Prof. İsrafil İsmayılov
(tarix elmləri doktoru)

# AZƏRBAYCAN – TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİ XX ƏSRDƏ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

B a k ı - 2004





*«ƏGƏR DÜNYANIN BİZƏ HÖRMƏT GÖSTƏRMƏSİNİ İSTƏYİRSƏK, ƏVVƏLA, BİZİM ÖZ MƏNLİYİMİZƏ VƏ MİLLƏTİMİZƏ BU HÖRMƏTİ HİSSƏN, FİKRƏN, FELƏN BÜTÜN HƏRƏKƏTLƏRİMİZLƏ GÖSTƏRMƏLİYİK»*

**M.ATATÜRK**

*«AZƏRBAYCAN XALQI ÖZ QAMƏTİNİ DÜZƏLDƏCƏK, AYAĞA QALXACAQ, GÜCÜNÜ BİRLƏŞDİRƏCƏK, MÜASİR ORDUSUNU YARADACAQ VƏ MÜSTƏQİL DÖVLƏTİNİ... QORUYACAQDIR»*

**HEYDƏR ƏLİYEV**

$U\frac{4702060204}{M653(07)2004}$

ISBN5-8020-1697-3

# GİRİŞ
## (TÜRKLÜYƏ QISA TARİXİ NƏZƏR)

Bir neçə min illik dövlətçilik tarixinə malik olan türkdilli xalqlar «Kitabi – Dədə Qorqud», «Bilqamıs» və digər qədim qəhrəmanlıqlar dastanlarını yaratmışlar.

Dünyanın türkdilli xalqları içərisində Türkiyə və Azərbaycan ərazilərində yaşayan türklər zəngin dövlətçilik tarixinə və mədəniyyətə malikdirlər. Azərbaycan dünyaya Zərdüşdü və «Avesta» kitabını bəxş etmiş, Türkiyə isə hələ Orta əsrlərdə (XIII əsrdən başlayaraq) dünya miqyasında inkişaf etmiş və yeddi əsr ərzində sayılan bir imperiya dövləti olmuşdur.

Elmi mənbələrdə verilmiş məlumatlara görə alimlər bu nəticəyə gəlmişlər ki, Nuhun tufanından sonra başlanan tarix türkdilli şumerlərdən başlanır. Heç də təsadüfi deyil ki, Amerika türkşünası professor S.N.Kramer qədim türklər haqqında əsərini «**Tarix şumerlərdən başlanır**» adlandırmışdır.

Görkəmli Azərbaycan filosofu professor Əli bəy Hüseynzadə 1905-ci ildə Bakıda nəşr edilən «Həyat» qəzetinin 9-cu sayında yazmışdı: «Türklər tarix səhnəsinə miladi İsadan iki yüz min il əqdəm çıxmışlar».

Möhtəşəm İslam mədəniyyəti Orta əsrlərin əvvəlində meydana gəlmiş və beş əsrdən çox dövran sürmüş 18 xanədan (imperiya) yaratmışdır.

1896-cı ildə Peterburqda nəşr edilmiş «Cazıbədar Asiya» adlı kitabda türklər haqqında belə yazılmışdır: «Allah onları «hiylə və məkrlikdən məhrum etmişdir», onlar «çox namuslu, xeyirxah, safürəkli və qonaqpərvərdirlər».

Fransanın böyük maarifpərvər mütəfəkkiri Fransua Voltér demişdir: «Türklər qazandıqları zəfəri ruhlarda və nəsillərdə yaşatmağın üsulunu bilirlər».

Mançester universitetinin professoru K.E.Bosfortun və digər ingilis alimi L.P.Stenlinin XIX əsrin sonlarında yazdıqları

«Müsəlman xanədanları» adlı kitablarında Azərbaycan Atabəyləri və Səlcuqları (Alp Arslan və onun oğlu Məlik şah) bu müsəlman xanədanlarından biri kimi şərh edilmişdir. Bu imperiyanın hakimiyyəti 1041-1186-cı illəri əhatə etmişdir və böyük vəzir Nizamül Mülk həmin dövrdə yaşamış və «Siyasətnamə» əsərini qələmə almışdır.[1]

Səlcuq sultanlarının hakimiyyəti Anadolu hüdudlarını da əhatə etmişdir.

Türk (Osmanlı) səyyahı Övliya Çələbi hicri tarixlə 1057-ci ildə Bakıya gəlmiş və öz yazılarında göstərmişdir ki, Bakı qalası Şirvan əyalətində yerləşir və Dara şah (İran) tərəfindən Xəzər dənizi sahilində Moskov kralına qarşı bina edilmişdir. Üç min əsgəri və on iki hakimi vardır. Bir dəfə Moskva qazağı İdil (Volqa) çayından gələrək Bakı və Gilan nahiyələrini qarət etmişdir. Şəhərin qərbində yeddi yerdə neft mədənləri vardır. Əhalinin əksəriyyəti sünnüdür.

Görkəmli islamşünas alim Əbülhəsən Əli Nədvi 1950-ci ildə Qahirədə nəşr etdirdiyi «İslam və dünya» adlı kitabında yazır ki, XVI əsrdə dünyada üç imperiya var idi: Ottoman (Türkiyə) imperiyası, Moğol (Babur) imperiyası (Hindistanda), Səfəvi imperiyası. Bu üçüncü imperiya şiəliyə ifrat dərəcədə meyl etdiyinə və Türkiyə ilə mənasız ixtilaflara görə zəifləməyə başladı.[2]

Professor Ramiz Mehdiyev «Türklük tarixin gözü ilə...» məqaləsində hələ on il bundan əvvəl yazmışdır: «**türk həmrəyliyi, türk-azərbaycanlı varlığı ideyası Azərbaycan türklərinin şüurunda dumanlı və yayınıq şəkildə olsa da, qədimdən bəri mövcuddur...**

Dil və mədəniyyətlərimizin ümumiliyi, tarixi müqəddəratlarının bir-birinə yaxınlığı, təsərrüfat və məişət tərzinin oxşarlığı – bütün bunların dərk edilməsi türk xalqlarının etnik şüurunun əsasını təşkil etmişdir».[1]

---

[1] Bu haqda daha geniş bax: İ.Z.İsmayılov. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B., 1996, s.9-15.

[2] Əbülhəsən Əli Nədvi. İslam və dünya (rus dilində). M., 1950, s.106.



XX əsrin əvvəllərinə doğru, tərkibində çoxsaylı türk xalqları yaşayan Rusiya imperiyasında «panslavizm» ideyalarının mənfi təsiri, Avstriya-Macarıstan və Osmanlı imperiyalarının dağılması meyillərinin təsirilə türk xalqları arasında həmrəylik ideyasının güclənməsinə təkan verildi.

Başlanğıcında turançılıq kimi meydana gələn bu ideya tədricən «türkçülük» ideyasına çevrilməyə başladı.

Nəzəri sahədə panturançılığın da təbliğatçısı olmuş Ziya Göyalp türkçülüyə belə tərif vermişdir: «**Türkçülük türk millətini ucaltmaq deməkdir**».

Türkün ictimai şüuruna müasirlik (Avropa mədəniyyətini qavramaq) anlayışının əlavə edilməsi (qəbul edilməsi) bu şüurun daşıyıcılarının gələcək müqəddəratı üçün xüsusi əhəmiyyət kəsb etmişdir. Türkdilli xalqların müasir dövlətçiliyə yönəmi də bundan başladı. Mustafa Kamal Atatürk demişdir: «**Dövlətin əsası mədəniyyətdir**».

Müsəlman xalqlarının həyatında Orta əsrlərdə mövcud olmuş dövlətçilik formaları (xəlifət, padşahlıq, xanədan və s.) yeni dövr üçün uyğun gəlmirdi. Digər tərəfdən Volqaboyundan Kiprə (Kıprısa), Tanrıdağdan Savalana, Uraldan Kərkükə qədər geniş əraziləri əhatə edən Turan məkanını birləşdirmək ideyası XX əsrdə heç bir türkün xəyalına belə gəlmirdi. Bütövlükdə isə türklərdə şovinizm əhval-ruhiyyəsi heç bir zaman olmamışdır.

Türk-islam mədəniyyəti türklüyün və islamçılığın birləşməsi əsasında yaranmış və inkişaf etmişdir. İslamın yaranması vətəni Ərəbistandırsa, islam mədəniyyətini türkdilli xalqlar daha geniş inkişaf etdirmişlər. XIX əsrdən başlayaraq isə bu iki

---

[1] Ramiz Mehdiyev. «Türklük tarixin gözü ilə...», «Xalq» qəzeti, 14 sentyabr, 1993.

mənbəyə üçüncü bir mənbə – müasirliyin təsiri əlavə edilmişdir.

Böyük türk mütəfəkkiri Mustafa Kamal paşa Atatürk mədəniyyət, mənəviyyat və ana dili sahəsində həm nəzəri, həm də təcrübə qazanılması yolunda zəngin bir irs yaratmışdır. Heydər Əliyev demişdir: «**Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar**».

Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Nizami Cəfərov «**Atatürkçülük nədir?**» sualına belə cavab verir: «Milli mütəşəkkillik yaratmaq, milli dövlət qurub inkişaf etdirmək, xalqı öz tarixindən, milli-mənəvi dəyərlərindən qoparmadan modelləşdirmək təcrübəsidir. Və atatürkçülük bir nəzəriyyə olmaqdan daha çox, Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, həyata keçilmiş qəhrəmanlıqdır, yəni təcrübədir. Ona görə də atatürkçülüyün atatürkşünaslığa çevrilməsi, nəzəri mülahizələr kimi deyil, məhz bir elm kimi öyrənilməsi zəruridir».[1]

Görkəmli türkoloq professor Nizami Cəfərov Azərbaycan mədəniyyətinin təşəkkülü məsələlərini araşdıraraq, burada ümumtürk müsəlman mədəniyyəti, klassik mədəniyyət, folklor mədəniyyəti ilə yanaşı, milli Azərbaycan mədəniyyətinin olduğunu ayrıca qeyd etmişdir.[2]

Keçmiş SSRİ-də 23 türkdilli xalq yaşamışdır. Bunlardan biri Azərbaycan türkləridir. Sovetlər İttifaqı dövlətinin siyasi rəhbərliyi tərəfindən xüsusilə XX əsrin 30cu illərində türkçülüyə qarşı geniş miqyasda mübarizə aparılmışdır. Əsas məqsəd də ondan ibarət idi ki, türklərin, o cümlədən Azərbaycan türklərinin, bu ərazilərdə qədimdən yaşamalarını inkar

[1] «Xalq» qəzeti, 24 iyul 2004.

[2] Nizami Cəfərov. Azərbaycan mədəniyyəti məsələləri. B., 2000.



etmək, onların buraya orta əsrlərdən gəlməsini təbliğ etmək! Bu isə azərbaycanlıları öz tarixi keçmişindən ayırmaq, onlara etnik mənşəyini unutdurmaq məqsədini güdürdü.

Elmi araşdırmalar sübut edir ki, Azərbaycan xalqı türkmənşəlidir, türk etnik sisteminin tərkib hissəsidir. Hazırda dünyada olan 50 milyon nəfərdən çox azərbaycanlı toplu şəkildə Azərbaycanda, İranda (Cənubi Azərbaycan), Gürcüstanın şərq rayonlarında, Dağıstanın Dərbənd bölgəsində, eləcə də Türkiyədə və başqa ölkələrdə yaşayırlar.

XX əsrin əvvəlində türkoloji tədqiqatlar Bəkir Çobanzadənin, Mehmet Fuad Köprüllünün, Əhməd bəy Ağaoğlunun, Firudin bəy Köçərlinin yaradıcılığında daha güclü olmuşdur.

70 illik sovet quruculuğu dövründə Azərbaycanda türkçülüyə aid ədəbiyyatın nəşrinə qadağalar Azərbaycanın və Türkiyənin milli mənafelərinə çox ağır zərbələr vurmuşdur. Belə bir şəraitdə ermənilər bütün dünyada türklərə düşmənçilik mövqeyindən yazdıqları ədəbiyyatı geniş yayaraq, türkləri qaniçən və vəhşi qiyafəsində rüsvay etmək üçün geniş imkanlar əldə etdilər. Onların bu xəyanəti, xüsusilə «genosid» adlandırdıqları soyqırımın guya olduğunu türklərə təlqin etmək siyasətinin təbliği erməni şovinistləri tərəfindən bu gün də davam etdirilir.

Sovetlər İttifaqı tərkibində 70 il olmuş türkdilli xalqların yaşadıqları ərazilərdə bu ölkənin təbii sərvətlərinin böyük bir hissəsi yerləşməsinə baxmayaraq, milli siyasətdə bu məsələyə əhəmiyyət verilmirdi. Məsələn, XX əsrin hətta 80-ci illərinin məlumatına görə SSRİ-də istehsal edilən neftin 32%-i türkdilli respublikalar ərazilərində çıxarılırdı (həmin əsrin 40-cı illərində isə Azərbaycan, SSRİ-də istehsal edilən neftin 75%-ni verirdi). Əlvan metallar üzrə isə: misin 78%-i, civənin 100%-i, qurğuşunun və sinkin 86%-i, xrom və uranın 100%-i, fosforun 90%-i türkdilli respublikaların ərazilərində istehsal edilirdi.[1]

[1] Dirçəliş XXI əsr, mart №61, 2003, s.125.

Bütün xalqlar öz mədəniyyətlərini iqtisadiyyatlarına əsaslanaraq, milli kökləri üzərində inkişaf etdirirlər. Bu isə məzmunda millilikdir. Deməli, SSRİ dövründə Azərbaycan mədəniyyətinin məzmununda da millilik mövcud olmuşdur. Professor Nizami Cəfərov yazır: «...yenilik hissi yaxşı şeydir, ancaq bu, milli təfəkkürdən doğan və milli mədəniyyətin tarixi keyfiyyətini əks etdirən yenilik olmalıdır».[1]

Sovet siyasi sisteminin 70 illik hökmranlığı şəraitində Azərbaycan xalqının tarixinin ən çox saxtalaşdırılan və bayağılaşdırılan sahələrindən biri Azərbaycan - Türkiyə münasibətləri tarixi olmuşdur. Müəllifin qələmə aldığı bu yazı da, müəyyən dərəcədə, bu boşluğun ləğvi üçün işə başlamağa çağırışdır.

Eyni zamanda etiraf etməliyik ki, Azərbaycanın 1991-ci ildə bərpa etdiyi dövlət müstəqilliyindən keçən sonrakı dövrdə də Azərbaycan-Türkiyə mədəni əlaqələri hələlik geniş tədqiq edilməmişdir və zəif təbliğ edilir.

Ədalət naminə qeyd etmək lazımdır ki, Azərbaycanda «Xalq Cəbhəsi-Musavat» birliyinin bir illik hakimiyyəti dövrü (1992-1993) gündəlik mətbuatın və bəzi özəl nəşriyyatların nəşrlərində Azərbaycan-Türkiyə əlaqələrinin 1918-22-ci illərinə aid yazılarında bir sıra xronika xarakterli yazılar verilmişdir.

Bu dövrdə, həm də ondan sonra nəşr edilmiş bəzi tədqiqatlara aid digər bir çatışmazlığı tədqiqatçı Ramiz Mirzə çox sərrast belə qeyd etmişdir: «Azərbaycan Demokratik Cümhuriyyəti ilə bağlı son vaxtlarda artan tədqiqatların əksəriyyətində qaynaqlar sanki unudulur, həmin dövr əsrin əvvəllərindəki fikir hərəkatından təcrid edilir. Bu isə eyni qəbildən olan məsələlər arasındakı varislik əlaqəsini dərk etməyə mane olur və beləliklə də Cümhuriyyətin tariximizdə təsadüfi bir hadisə kimi qəbul olunmasına yol açır».[2]

---

[1] Nizami Cəfərov. Azərbaycan mədəniyyəti məsələləri, B., 2000, s.35.
[2] Ramiz Mirzə. Türkçülüyün babası. B., 2000, s.13.



Beləliklə, Azərbaycanda dövlət müstəqilliyinin bərpa edilməsi (1991) bütün tariximizi, xüsusilə XIX-XX əsrlər tariximizi tarixi sənədlər əsasında düzgün yazmaq üçün imkanlar yaratdı. Lakin bu imkanlardan hələlik zəif istifadə edilir.

Azərbaycanda 1988-1993-cü illəri əhatə edən hərcmərclik dövründə yazılmış ötəri tarixi oçerklər yığılıb qalmış problemləri daha da dolaşdırdı. Məsələn, xalqımızın böyük oğlu Nəriman Nərimanovun sovet siyasi sisteminin çətin və ziddiyyətli dövründə özündə hünər taparaq milli mənafelərimizə xidmət etməsini, dövrün imkan verdiyi maksimum səviyyədə xidmət etməsini araşdırmaq və xalqa təbliğ etmək əvəzinə, onu ziyalıların «aldanmışlar qrupu»na daxil etmək kimi cəfəng bir addım da atıldı.

XX əsrin son onilliyinin əvvəlində SSRİ-nin dağılması zəminində türkdilli xalqlardan beşi öz müstəqil dövlətlərini yaratmağa imkan tapdılar və türk dünyası xeyli gücləndi.[1]

Dövlət müstəqilliyini qazanmış Azərbaycanda prezident Heydər Əliyev ilk növbədə tarix dərsliklərinin yenidən yazılmasını qarşıya qoydu və ilk növbədə ən mühüm vəzifə kimi orta məktəblər üçün tarix dərsliklərinin təcili olaraq yazılması lüzumu ortaya çıxdı: bir qrup tarixçilərimiz bu işə qoşuldular və müəyyən uğurlar əldə edildi. Lakin Azərbaycanın həm XIX-XX əsrlər tarixinin, həm də ən qədim dövrdən başlayaraq əsaslı elmi tarixinin yazılmasında ləngimək qüsuru tamamilə aradan qaldırılmamışdır.

Mülki tarix üzrə elmi tədqiqat əsərlərinin tezliklə yazılmasını indi təqaüddə olan yaşlı nəsl tarixçilərindən gözləmək reallıqdan çox uzaqdır. Gənc tarixçilər nəslinin hazırlanması üzrə real addımlar hətta atılıbsa da belə, onların yetişməsi üçün müəyyən dövr tələb olunur. Bunun üçün ilk növbədə bu vaxta qədər istifadə edilməmiş arxiv sənədlərindən istifadə etmək üçün və cavan tarixçilərin ərəb əlifbası ilə yazılmış və digər

---

[1] Bax: İsrafil İsmayılov. Türk dünyası XX əsrin 90-cı illərində. B., 2001.

xarici dillərdə olan ədəbiyyatlardan istifadə edə bilmələri üçün tədbirlər görülməli və arxivlərdə işləmək üçün iqtisadi imkanlar məsələlərini həll etmək lazımdır.

Sovet üsulu-idarəçiliyinin davam etdiyi 70 ildə idarəçilikdə mövcud olmuş inzibati-amirlik metodu tarix elminin də inkişafına müəyyən maneçiliklər etmişdir.

Sovet sosialist siyasi quruluşu dövrü Azərbaycanda iki yeni nəsl intellektual sahədə yetişmişdir (1910-20-ci illərdə anadan olmuşlar və 1950-60-cı illərdə doğulmuşlar). Bu sistemin həmin dövrdə törətdiyi mənfi hallardan imtina etməklə yanaşı əldə edilmiş müsbət nailiyyətləri qəbul edərək, davam etdirməliyik. Böyük öndər Heydər Əliyev demişdir: «**Müstəqillik illərində biz əslində milli-mədəni irsimizi, milli sərvətimizi bir daha təhlil edərək onu ideoloji buxovlardan və qadağalardan xilas edirik**».

Azərbaycanın XX əsr tarixinin yenidən yazılmasında Heydər Əliyevin irsindən geniş istifadə edilməlidir. Görkəmli tarixçi professor Mahmud Yaqubov Heydər Əliyevin Böyük Vətən mücadiləsini 6 dövr ətrafında şərh etməyi məsləhət görür.[1] Bu bölgü, Azərbaycanın XX əsr tarixinin dövrlərə bölünməsinə kömək edir. Fikrimizcə, XX əsr tariximizi aşağıdakı dövrlər ətrafında şərh etmək məqsədəuyğundur: 1901-1917, 1917-1918, 1918-20, 1920-22, 1923-1991 (1923-1932, 1932-1969, 1969-1982, 1982-91), 1991-93, 1993-2000. Burada əsas çətinlik bu dövrlərə siyasi başlıq verməkdən ibarət olacaqdır.

XX əsrin 70-ci illərinin ikinci yarısında Azərbaycanda həyat tərzi problemi geniş araşdırmalar mövzusu oldu. XXI əsrin əvvəllərindən başlayaraq isə düşüncə tərzi (mentalitet) mövzusuna diqqət ön plana çəkildi. Bu iki problem arasında sıx əlaqə mövcudluğu şübhəsizdir. Bunların hər ikisi milli təfəkkürlə qidalanır. Bununla belə düşüncə tərzi bu ikilikdə aparıcı yer tutur. Azərbaycan xalqının fəlsəfi təfəkkürünün inkişafı

[1] Bax: «Xalq» qəzeti, 18 yanvar 2004.



istiqamətində milli musiqiyə və şerə meyllik güclüdür. Azərbaycan dilinin zənginliyi, zərifliyi və incəliyi də düşüncədə güclü təfəkkür tərzinin inkişafına kömək edir.

Düşüncə tərzi mövzusunda mənəvi dəyərlər əsas yerlərdən birini tutur. Bu dəyərlər isə insanlarda vətənpərvərliyi, ailə şərəfinin qorunmasını, ünsiyyətdə həssaslığı və səbrliliyi özündə təcəssüm etdirən sağlam düşüncə vasitəsilə qazanılır və yaşadılır. Bu da həqiqətdir ki, sağlam həyat tərzinə malik olan xalqın düşüncə tərzi də sağlam və müdrik olar.

Görkəmli tarixçi və etnoqraf V.L.Veliçko «Qafqaz» əsərində (1904) yazmışdır: «Nəciblik azərbaycanlıların qanındadır». Fransız yazıçısı Aleksandr Düma (1802-1870) XIX əsrdə Azərbaycana etdiyi səyahətindən sonra «Qafqaz səfəri» əsərində azərbaycanlıları xeyirxah, milli ləyaqəti olan mərd bir xalq kimi səciyyələndirmişdir.

Tarixən əldə edilmiş bu mənəvi nailiyyətlər 70 illik sovet üsul-idarəsi dövründə bir qədər zəifləməyə başladı. Burada əsas səbəb islam dini ayinlərinin rəsmən qadağan edilməsi və milli adət-ənənələr əvəzinə beynəlmiləlçilik ənənələrinə üstünlük verilməsi olmuşdur.

Azərbaycan xalqının düşüncə tərzinə 70 illik sovet üsul-idarəsi dövrü vurulmuş ikinci zərbə ərazilərimizin bir hissəsinin işğal edilməsi faktıdır.

1801-1828-ci illərdə Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. Bunun 280 min kv.km Cənubi Azərbaycandır və 1828-ci ildə İranın tərkibinə qatılmışdır. Şimali Azərbaycan isə Rusiyanın müstəmləkəsinə çevrilmişdi. İrəvan xanlığı (sahəsi 9 min kv.km) Rusiyanın təzyiqi ilə ermənilərə verildi, Dərbənd xanlığı isə (sahəsi 7 min kv.km) Rusiyanın tərkibinə qatıldı.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən onun ərazisi 114 min kv.km idi. 1920-ci ilin ikinci yarısında Sovet Rusiyası hökuməti (XI ordunun Zaqafqaziyada yerləşməsindən istifadə edərək) Azərbaycanın əraziləri olan Zəngəzuru,

Göyçəni, Şəruru, Dərələyəzi və Dilicanı Ermənistana, Borçalı mahalını isə Gürcüstana verdi. Bu ərazilərin sahəsi 27,4 min kv.km idi. Beləliklə Sovet üsul-idarəçiliyinin ilk illərində Azərbaycan Sovet Respublikasının əraziləri 86,6 min kv.km sərhəddində qaldı.

Deməli, SSRİ-nin tərkibində olduğu 1923-1991-ci illərdə Azərbaycan ərazilərinin bir hissəsi xırda hissələrlə Ermənistana və Gürcüstana bağışlanıldı. Halbuki, **SSRİ və Azərbaycan SSR konstitusiyalarında yazılmışdı ki, hər hansı ərazi və sərhəd dəyişməsi xalqın rəy sorğusu (referendum) yolu ilə həll edilə bilər.**

Azərbaycan öz müstəqilliyini elan etdiyi 1991-ci ilin oktyabrında, Ermənistan onunla müharibə vəziyyətində idi və Ermənistan ordusu, onun ərazilərini zəbt etməkdə davam edirdi. 1988-1994-cü illərdə Azərbaycanın 13,1 min kv.km ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən (Rusiya hərbi hissələrinin köməyi ilə) işğal edilmişdir.

XX əsrin əvvəlində dünyada yalnız bir müstəqil türk dövləti (Türkiyə) mövcud idi.

Azərbaycanda Türkiyənin XX əsr tarixinə və M.Atatürkə aid tədqiqatlar zəif də olsa aparılmışdır: bu əsərlər İ.V.Əlibəyov[1], Y.A.Bağırov[2], Həmid Əliyev[3], Tofiq Paşa oğlu[4] tərəfindən yazılmışdır.

Azərbaycan-Türkiyə mədəni əlaqələri Türkiyə müəlliflərindən İbrahim Yüksel[1], E.Hasanova[2] və digərləri tərəfindən araşdırılmışdır.

[1] İ.V.Əlibəyov. Kamal Atatürkün görüşlərinin Türkiyə Respublikasının iqtisadi siyasətinin formalaşmasına təsiri. Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1982, №1, rus dilində.

[2] Bağırov Y.A. Sovet-Türkiyə münasibətləri tarixindən (1920-1922). Bakı, 1965 (rus dilində).

[3] Həmid Əliyev. Müasir Türkiyə (oxunmuş mühazirənin stenoqramı). B., 1958; Yenə də onun: Müasir Türkiyədə xarici kapital. B., 1962; Yenə də onun: Türkiyə birinci dünya müharibəsi dövründə. B., 1965.

[4] Tofiq Paşa oğlu. Atatürk və Türkiyədə mədəni inqilab (1920-30-cu illər). Bakı, 1993.



Azərbaycanın müstəqilliyi (1991-ci ildən) dövrünün əvvəllərindən başlayaraq qardaş Türkiyə haqqında yazılar bir qədər çoxalmağa başladı. 1990-cı ildə Dünyamalı Vəliyev və Yadigar Babayev «Türkiyə, Torqut Özal. İqtisadi möcüzələr» adlı kitabça nəşr etdirdilər. Həcmcə kiçik olan bu əsərdə «İqtisadi möcüzələr atası» sayılan Torqut Özalın iqtisadi nəzəriyyəsi və iqtisadi siyasətinin əsas istiqamətləri şərh edilir. Həmin kitabçada eləcə də T.Özala qədərki dövrdə Türkiyənin prezidentləri olmuş 7 nəfər (Mustafa Kamal Atatürk, İsmət İnönü, Cəlal Bayar, Cəmal Gürsel, Cövdət Sunay, Fəxri Korutürk, Kənan Evqen) haqqında qısa məlumatlar verilir.

Türkdilli xalqların mədəni irslərinin öyrənilməsi və qarşılıqlı bəhrələnməsi işində mədəni əlaqələrin genişlənməsi müstəqillik dövründə xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq I Ümumittifaq türkoloji qurultayın (1926) 80 illik yubileyi münasibətilə **2006-cı ildə Bakıda II Türkoloji qurultayın çağrılmasına böyük ehtiyac duyulur və bu tədbirə indidən başlamaq məqsədəuyğundur.**

XX əsrdə Azərbaycan-Türkiyə mədəni əlaqələri mövzusunu işlərkən SSRİ tərkibində olan türkdilli Azərbaycan xalqı ilə müstəqil Türkiyə xalqı arasındakı əlaqələrə Sovetlər İttifaqı dövləti tərəfindən yaradılmış süni maneçiliklər tarixi faktdır. Bu faktın ən mənfi nəticəsi ondan ibarət oldu ki, Azərbaycanlı və Osmanlı türklərinin mədəniyyət xadimləri arasında da əlaqələr son dərəcə zəif idi.

Türkiyədə Sədi Borat tərəfindən tərtib edilmiş «100 böyük türk» kitabında (Bakı, 1991) ədəbiyyat, sənət, elm və

[1] İbrahim Yüksel. Azərbaycanda fikir hayatı və basın (mətbuat).

[2] E.Hasanov. Sovet bilginlerinin əsərlərində Kemal Atatürkün ictimai və siyasi anlayışlarının işıqlandırılması. VIII. Türk tarixi konqresi, III, Ankara, 1983.

hərbiçilikdə böyük xidmətləri olmuş yüz nəfər türk böyüyündən 26 nəfəri XX əsr çərçivəsində fəaliyyət göstərmişlər. Bu kitab haqlı olaraq böyük M.Atatürk ilə başlanır.

SSRİ-nin mövcud olduğu 67 il ərzində (1923-90) Azərbaycan-Türkiyə əlaqələri, o cümlədən mədəni əlaqələri çox sönük olsa da, qırılmamışdır. Bu əlaqələrin davamında əsas ağırlıq mühacir azərbaycanlıların üzərinə düşmüşdür.

Müəllifin bu yazısı mədəni əlaqələr sahəsində açıqlanmamış boşluqları aşkar etmək işində ilk təşəbbüslərdən biri kimi nəzərə alınmalıdır.



# I Hissə
# AZƏRBAYCAN VƏ TÜRKİYƏ 1901-1922-ci İLLƏRDƏ

## I Fəsil. TÜRKİYƏ VƏ ŞİMALİ AZƏRBAYCAN 1901-1917-ci İLLƏRDƏ

Osmanlı (Türkiyə) imperiyası adı ilə XIII-XVII əsrlərdə yüksələn xəttlə inkişaf etmiş, bütün Asiya və Avropanı lərzəyə salmış Türkiyə sultanlığının tarixində XVII əsrin ikinci yarısından başlayaraq zəifləmə dövrü başlandı. Türkiyə ordusunun Vena altında 1683-cü ildə məğlubiyyətindən az sonra Avstriya, Polşa və Venesiya dövlətləri birləşərək Türkiyəyə qarşı ittifaq yaratdılar. Bu «müqəddəs ittifaq»a Rusiya da qoşuldu. 1696-cı ildə I Pyotr Azovu zəbt etdi və Rusiya dövləti Qara dənizə çıxdı, Rusiya ilə Türkiyə arasında 1768-74-cü illərdə aparılmış müharibə «Küçük-Kaynarça sülh müqaviləsi» ilə başa çatdı və Krım Türkiyə tabeliyindən çıxarıldı, Qara dənizin və onun boğazlarının Rusiya ticarət gəmiləri üçün açıq olması elan edildi.

XIX əsrdə Türkiyənin xarici işlər naziri olmuş Rəşid paşa tərəfindən hazırlanmış və 1839-cu ilin 3 noyabrında «Tənzimat» adlı islahatda (rəsmi adı «Gülxanə xətt-i Şərifi») əsas məqsəd ölkədə idarə sistemində Avropa tipli dəyişikliklər etmək idi. Bunun üçün ölkə vətəndaşlarının əmlakının qorunmasına zəmanət verilir, torpaqdan istifadə, vergi və maliyyə sistemində dəyişikliklər vəd edilirdi. Sənəddə eləcə də ömürlük hərbi mükəlləfiyyətin ləğvi, dünyəvi məktəblərin açılması, təhsildə dini ayinlərin icrasında mütərəqqi dəyişikliklər edilməsi vəd edilirdi. Bu məsələlərin həlli baş nazir Əli paşanın tərtib etdiyi «Xətt-i hümayun»da (1856) nəzərdə tutulurdu və XIX əsrin 70-ci illərinin əvvəllərinə qədər qismən həyata keçirildisə də, sonrakı illərdə sultanlığın mürtəce qüvvələrinin güclü müqavimətinə rast gəldi.

Tənzimat dövrünün təsirilə Türkiyədə dünyəvi təhsil üçün şərait yarandı, demokratik ruhlu milli ziyalılar yetişməyə başladı.

Türkiyədə XIX əsrin sonlarında «gənc türklər» inqilabı adlanan hərəkat başlanmışdı və bu hərəkatın təsiri ilə «İttihad və tərəqqi» adlı gizli partiya yaradılmışdı (ilk başçıları doktor Nazim, Əhməd Rza). Bu hərəkat Türkiyənin imperialist dövlətlər tərəfindən parçalanması planlarına qarşı və ölkənin müqəddəratına laqeyd olan sultan II Əbdül Həmidin üsul-idarəsinə qarşı yönəlmişdi. Sonrakı illərdə hərəkatın rəhbərliyi tərəfindən irəli sürülən siyasi tələblər Sultanı qorxuya saldı və o, 1876-cı il konstitusiyasını bərpa etməyə məcbur oldu. Beləliklə, «gənc türklər» inqilabı hərəkatı 1908-ci ildə dinc yolla başa çatdı və sultan II Əbdül Həmid öz taxtında qaldı. Lakin iki həftə sonra Türkiyənin Makedoniyada yerləşən ordu hissələri (komandir Mahmud Şövkət paşa, qərargah rəisi – Mustafa Kamal) İstanbula daxil oldu və bu ordunun tələbi ilə Türkiyə parlamanı II Əbdül Həmidi sultanlıqdan məhrum etdi və onun yerinə Beşinci Mehmet Rəşad taxta oturuldu.

1912-1913-cü illərdə olmuş Balkan müharibələrinin gedişində Türkiyə məğlub oldu və o, Balkan xalqları üzərindəki hakimiyyətini demək olar ki, itirdi.

Beləliklə 1 dünya müharibəsi ərəfəsində keçmiş Osmanlı (Türkiyə) imperiyası dağılma vəziyyətinə çatdı və vəziyyət həmin müharibə illərində daha da gərginləşdi.

Birinci dünya müharibəsi illərində Türkiyə yeddi cəbhədə (istiqamətdə) vuruşlarda iştirak edirdi. Ordunun təminatı ağır vəziyyətdə idi. Ölkənin hətta ucqar kəndlərində əhali pəncərə dəmirlərini sökərək, süngü düzəldib orduya göndərirdi.

Türkiyənin gələcək müqəddəratı böyük strateji əhəmiyyəti olan Dardanel və Bosfor boğazlarının müdafiəsini tələb edirdi. İngiltərə (Britaniya) ordusu 1915-ci ilin 19 fevralında Dardaneli zəbt etmək üçün «Dardanel əməliyyatı»na başladı.



Dardanel boğazı Türkiyədə Çanaqqala adı ilə məşhurdur. İngiltərə və Fransa dəniz qüvvələrinin Dardaneli zəbt etmək üçün başladıqları hücum əməliyyatı uğur qazana bilmədi. Üç gün içərisində onlar 18 min matros və üç böyük hərbi gəmi itirdilər. Bu gəmilərdən birinə «Yarım dünya» gəmisi deyilirdi. Müttəfiq qüvvələrin sonrakı hərbi əməliyyatları da onlar üçün bir nəticə vermədi. Bu məğlubiyyətin təsiri ilə İngiltərənin Baş naziri Lloyd Corc istefa verdi.

1915-ci ilin 6 avqustunda İngiltərə və Fransanın başladıqları yeni desant əməliyyatı da onların məğlubiyyəti ilə qurtardı. Mustafa Kamal paşanın başçılığı altında Çanaqqalada vuruşan Türkiyə ordusu «Vətən uğrunda ölümə hazırıq!» andı ilə düşmən qüvvələrini darmadağın etdi.

Çanaqqala vuruşunda İngiltərə 120 min nəfər, Fransa 26 min nəfər əsgərini itirdi. Bu döyüşlərdə Avstraliya və digər ərazilərdən muzdlu əsgərlər də iştirak etmişdi. Çanaqqala döyüşünün əsas qəhrəmanı isə Mustafa Kamal paşa oldu. Hər iki tərəfdən itgi isə yarım milyon nəfərə yaxın olmuşdu.

808

Azərbaycan xalqı Türkiyə xalqına onun üçün çox ağır olan 1915-ci ildə fərdi yığılmalar yolu ilə 40 kiloqram qızıl göndərmişdi. Çanaqqala döyüşlərində vuruşan Türkiyənin 57-ci alayının bütün tərkibi şəhid olmuşdu. Bu alayın döyüşçüləri içərisində azərbaycanlılar da var idi. Onlardan biri bakılı İbrahim Həsən oğlunun məzarı şəhidlərin uyuduqları məzarıstanda indi də qayğı ilə saxlanılır.

Çanaqqala vuruşları Türkiyə xalqının bədii ədəbiyyatında geniş şərh edilmişdir.

XX əsrin əvvəllərində Türkiyədə realist bədii ədəbiyyatın güclənməsinə 1908-1909-cu illərin inqilabi hərəkatlarının və xüsusilə sultan II Əbdül Həmidin hakimiyyətinin devrilməsinin böyük təsiri oldu. Bu dövrün şair və yazıçılarından Namiq Kamal, Tofiq Fikrət, Nazim Hikmət, Rəşad Nuri Güntəkin, Əziz Nesin və digərlərinin əsərləri Azərbaycanda da böyük həvəslə oxunurdu.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

**Türkiyədə 1908-ci il** inqilabı təsirilə gənc türklər partiyası adlanan «İttihad və tərəqqi» partiyası Sultan II Əbdül Həmidin səltənətinə və istibdadına qarşı öz mübarizəsini gücləndirməyə imkan tapdı.

Bu dövrün şairlərindən olan Tofiq Fikrət (1867-1915) «Millət şərqisi» şerində yazmışdı:

Zülmün topu var, gülləsi var, qələsi varsa
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.
Göz yumma, günəşdən nə qədər nuru qalarsa,
Sönməz əbədi, hər gecənin gündüzü vardır.
Ey haqq yaşa, ey sevgili millət, yaşa, var ol.
Millət yoludur, haqq yoludur, tutduğumuz yol.

***

Anadolu türkləri tarixi kökləri və mənşələri etibarilə, şifahi dil quruluşu və üslub tərzi, adət-ənənələri ilə Azərbaycan türklərinə çox yaxın və bəzi hallarda oxşardırlar. Bu xalqların icmaları tarixi inkişafın əksəriyyət mərhələlərində biri digərinə dayaq olmuşlar. Bu yaxınlıq XX əsrdə böyük sınaqlardan uğurla çıxmışdır. Hazırda qardaş Türkiyədə əslən azərbaycanlı olan 3 milyona qədər azəri türkü yaşayır.

1828-ci ilin 10 fevralında Rusiya ilə İran arasında imzalanan «Türkmənçay» müqaviləsində 1813-cü ildə imzalanmış «Gülüstan» müqaviləsinə əlavə olaraq, daha iki xanlıq - Naxçıvan və İrəvan xanlıqları Rusiyanın tərkibinə qatıldı və Araz çayı Şimali Azərbaycanla Cənubi Azərbaycanı biri-birindən ayıran sərhəddə çevrildi.

Azərbaycanın Rusiya ilə İran arasında iki hissəyə bölünməsi nəticəsində azəri türklərindən Türkiyəyə mühacirət gücləndi.



Azərbaycan mühacirəti XX əsrdə Türkiyəyə[1] əsasən aşağıdakı dövrlərdə olmuşdur: 1905-1907-ci illər; 1918-20-ci illər; 1930-cu illər; II dünya müharibəsi illəri və 1970-80-cı illər (əsasən İranda yaşayan Cənubi azərbaycanlılar hesabına).

XX əsrin əvvəlinə doğru Rusiyanın xarici siyasətinin əsas istiqamətindən biri imperiyanın müsəlmanlar yaşayan ucqarlarını ruslaşdırmadan və erməniləşdirmədən ibarət idi. 1905-ci ildə Qafqazda ermənilərin əli ilə müsəlman əhalisinin qırğınının başlanması bu siyasətin davamı idi. Bakıda, Gəncədə, İrəvanda, Şuşada və digər yerlərdə təşkil edilmiş qırğınlar nəticəsində Cənubi Qafqazın müsəlman əhalisi Türkiyə və İrana qaçmağa məcbur oldu. Onların yerini isə ermənilər tutdular.

1896-1906-cı illərdə Bakı-Batumi neft kəmərlərinin çəkilməsi Azərbaycanın Qara dəniz sahillərində yaşayan müsəlman xalqları ilə iqtisadi və mədəni əlaqələrinə müsbət təsir etdi. Bakı Qafqazın iqtisadi və qismən də siyasi mərkəzinə çevrildi. Lakin bu vəziyyətin mənfi təsiri daha ağır idi.

Rusiyanın müstəmləkəsi vəziyyətində olan Şimali Azərbaycanda Bakı neftinin böyük bir hissəsi Rusiya çarizmi tərəfindən icarəyə verilərək, xarici kapitalistlərin əli ilə qarət edilirdi. Bakı nefti hissə-hissə xarici kapitalın əlinə keçirdi. 1913-cü il məlumatına görə Bakıda neft sənayesi üzrə milli burjuaziyaya aid müəssisələrin miqdarı bu müəssisələrin ümumi miqdarının 15%-ni təşkil edirdi.

***

Rusiyada 1905-ci il inqilabı, Türkiyədə 1908-ci il inqilabı Türkiyə və Azərbaycanda ziyalılar arasında müəyyən ümidlər doğurdu.

Azərbaycanın tərəqqipərvər mədəniyyət xadimləri çarizmin müstəmləkəçilik siyasətini tənqid etməyə imkan tapdılar.

[1] Bax: İsrafil İsmayılov. Dünya azərbaycanlıları XX əsrdə. B., 1997, s.200-205, 210-214.

1905-ci ilin aprelində Əlimərdan bəy Topçubaşov tərəfindən «Zaqafqaziyanın müsəlman əhalisinin tələbləri» adı ilə tərtib edilmiş sənədə (petisiya) Şəmsi Əsədullayev, Ə.Ziyatxanov, Q.Zülqədərov, Əhməd Ağayev kimi milli burjuaziya nümayəndələri və ziyalılar imza etmişdilər və bu sənəddə Rusiya çarının Qafqaz canişinindən tələb olunurdu ki, müsəlman əhalisinin mətbuat və vicdan azadlığından məhrumiyyəti ləğv edilsin; milli dildə ibtidai təhsil, ali məktəblərə qəbula icazə verilsin, yerli özünüidarə orqanlarında təmsil üzrə mövcud qadağalar ləğv edilsin.

1905-1917-ci illərdə keçirilmiş Rusiya müsəlmanlarının dörd qurultayında azərbaycanlı mütəfəkkir, 1905-ci ildə «Ümumrusiya Müsəlman İttifaqı»nın sədri seçilmiş Əlimərdan bəy Topçubaşov (1865-1934) bu sahədə lider səviyyəsinə yüksəlmişdi. 1905-ci ilin 15 avqustunda Nijni Novqorod şəhərində keçirilmiş Rusiya müsəlmanlarının I qurultayındakı çıxışında Ə.Topçubaşov demişdi: «Biz hamımız türk övladlarıyıq. Əslimiz bir, nəslimiz bir, dilimiz birdir. Bir vaxtlar Qərbdən Şərqə qədər böyük bir ərazi bizim babalarımızın mülki idi. Əcdadlarımızın həqiqətən də qəhrəman olmalarına baxmayaraq, bu gün biz onların mülkü olan vətənimizdə, torpağımızda öz ehtiyaclarımızı belə dilə gətirə bilmirik».

Digər azərbaycanlı Cəlil Məmmədquluzadə (1866-1932) Yaxın Şərqdə ilk satirik jurnal olan «Molla Nəsrəddin»in 1906-cı ilin aprelindən başlayaraq Bakıda nəşr edilməsini təşkil etmişdi (bu jurnal qısa fasilələrlə 1931-ci ilə qədər nəşr edilmişdir) və jurnalın nəşri ilə əlaqədar olaraq 1921-ci ildə Türkiyədə olmuşdur.

Ensiklopedik şəxsiyyət olan Məhəmməd Ağa Şahtaxtlı (1836-1931) Beynəlxalq Asiya Cəmiyyətinə üzv seçilmiş və 1901-ci ildə fransız dilində «Türkiyəni necə xilas etməli?» adlı kitabını nəşr etdirmişdir (Bu kitab 1975-ci ildə Fransadan Azərbaycana gətirilərək tərcümə edilmişdir). M.Şahtaxtlı 1908-1918-ci illərdə Türkiyədə, İranda və İraqda yaşamışdır.



XX əsrin əvvəllərində Azərbaycan ziyalıları çarizmin bütün qadağa və manelərinə baxmayaraq, Bakıda «İqbal», «Açıq söz», «Həyat», «İrşad», «Təkamül» və digər adlarda onlarla qəzet və jurnalın nəşrinə nail olmuşdu və bu nəşrlər xalqın siyasi maariflənməsinə xidmət edirdi.

Rusiyada çarizm üsul-idarəsi devrildikdən (1917-ci il fevral inqilabı) sonra Bakıda «Musavat» partiyası və «Hümmət» təşkilatı fəaliyyətlərini genişləndirdilər, Nəsib bəy Usubbəylinin başçılığı altında Gəncədə «Türk ədəmi mərkəziyyət» partiyası yaradıldı.

1917-ci ilin noyabrında Tiflisdə yaradılmış Zaqafqaziya Komissarlığı (müvəqqəti hökumət) müstəqillik elan etdi və keçirilmiş seçkilər nəticəsində 1918-ci ilin 22 fevralında Zaqafqaziya seymi, 9 apreldə isə Zaqafqaziya Federativ Hökuməti yaradıldı.

1918-ciilin mayının sonunda Zaqafqaziya seymi üç hissəyə parçalandı. Seymin Azərbaycan fraksiyası özünü Milli Şura elan etdi.

1918-ci ilin 28 mayında Tiflisdə Milli Şura adından Azərbaycanın müstəqilliyi haqqında «Bəyannamə» qəbul edildi. Bəyannamədə deyilirdi: «Yaranmış vəziyyət Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycanın dövlət orqanlarını yaratmaq zərurətini qəti surətdə tələb edir». Həmin tarixdə eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin müvəqqəti hökuməti Fətəli xan Xoyskinin başçılığı ilə təşkil edildi. Beləliklə 1905-1917-ci illərdə Azərbaycan xalqının istiqlal hərəkatı Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması üçün möhkəm zəmin yaratdı.

## II Fəsil. MUSTAFA KAMAL ATATÜRK TÜRKLÜK VƏ MƏDƏNİYYƏT HAQQINDA

***«Əsla şübhəm yoxdur ki, türklüyün unudulmuş böyük mədəni vəsfi və böyük mədəni qabiliyyəti bundan sonrakı inkişafı ilə gələcəyin yüksək mədəniyyəti üfüqündə bir günəş kimi parlayacaqdır».***

**M.K.ATATÜRK**

XX əsrin birinci yarısında yetişmiş və geniş fəaliyyətdə olmuş dünya miqyaslı görkəmli dövlət xadimi, müasir Türkiyə dövlətinin yaradıcısı və ilk prezidenti Mustafa Kamal paşa (Atatürk) milli mədəniyyətlərin məzmunu, mahiyyəti və inkişafı haqqında geniş bir təlim yaratmışdır.

M.Atatürkün bu fəaliyyəti Osmanlı türkləri dövlətində hakim ideologiyanın sırf islam dini olduğu bir dövrdə başlanmışdı. Bu ideologiya isə 1923-cü ildə Türkiyədə yaradılmış Respublika üsul-idarəsinin məqsədlərinə uyğun gəlmirdi. Buna görə də Türkiyənin teokratik dövlət aparatı M.Atatürkün nəzəri planda hazırladığı etatizm (dövlətçilik) prinsipi əsasında yaranan dövlət aparatı ilə əvəz olunmalı idi.

M.Atatürk demişdir: «Din bir vicdan məsələsidir. Hər kəs vicdanının səsini eşitməkdə sərbəstdir. Biz dinə hörmət edirik,...bu düşüncəyə müxalif deyilik. Biz sadəcə olaraq dini işləri milli və dövlət işləri ilə qarışdırmamağa çalışır, kasta və digər cinayətkar fəaliyyətlərə əsaslanan fanatizmi qəbul etmirik».[1]

Avropa və Asiya qitələri xalqlarının mədəni həyatları ilə dərindən tanış olmuş M.Atatürk bu iki qitənin ayrıcında yerləşən Türkiyə üçün müasirləşmə siyasətinə üstünlük verdi: sul-

[1] Bax: professor Utkan Qocatürk. Atatürk. (Ankara, 1987), Bakı, 1991, s.11.



tanlıq ləğv edildi (1922) və Türkiyə Cümhuriyyət elan edildi (1923), xəlifəlik aradan qaldırıldı (1924), Türkiyədə mədəni quruculuq işlərinin məzmununu nəzərdə tutaraq M.Atatürk 1930-cu ildə demişdi: «Mədəniyyət bir insan cəmiyyətinin: a) dövlət həyatında, b) mənəvi həyatda və incəsənətdə, v) iqtisadi həyatda ... edə bildiyi tədbirlərin bərabər təsir göstərən qüvvəsidir... **Dövlətin əsası mədəniyyətdir**».

Türkiyənin böyük lideri olan Mustafa Kamal paşa demişdir: «**Mənim həyatda yeganə fikrim, şərəfim türklükdən başqa bir şey deyildir**». 1933-cü ildə isə Qazı Mustafa Kamal paşa Atatürk: «**Nə xoşbəxtdir türkəm deyən**» sözlərini böyük iftixarla şərh etmişdir.

Bütövlükdə **milli birlik** tərəfdarı olan M.Atatürk cəmiyyətdə sinfi bölgünü, siniflərarası mübarizəni rədd edir. O, demişdir: «**Əgər dünyanın bizə hörmət göstərməsini istəyirsək, əvvəla bizim öz mədəniyyətimizə və millətimizə bu hörməti hissən, fikrən, felən bütün hərəkətlərimizdə göstərməliyik. Onu da bilməliyik ki, milli mənliyini qoruya bilməyən millətlər başqa millətlərin ovudur**».

Türkiyə xalqının milli-azadlıq mübarizəsi tarixi M.Atatürk tərəfindən 1927-ci ilin 15-20 oktyabrında Xalq Respublikaçılar partiyası konqresinin 6 iclasında, 36 saat ərzində məruzə şəklində şərh edilmişdir və «Nitq» adı altında nəşr edilmişdir. Rus dilində həmin «Nitq» adlı kitab «Yeni Türkiyənin yolu» adı altında 4 cilddə (I cild Moskvada 1929-cu ildə çapdan çıxmışdır) nəşr olunmuşdur. Bütün bunlara baxmayaraq Mustafa Kamal Atatürkün siyasi görüşləri, həm də kamalçılıq və Kamal inqilabının məzmunu Sovet siyasi ədəbiyyatında uzun illər, xüsusilə 1923-53-cü illərdə düzgün qiymətləndirilməmişdir. Bu məsələlər «Böyük Sovet Ensiklopediyası»nın 20-ci cildində (1953-cü il) Mustafa Kamal paşa «burjua-mülkədar partiyasının lideri kimi daxili siyasətdə xalqa zidd xətt yeridirdi» deyə şərh edilmişdir. Halbuki, Mustafa Kamal Atatürk xalqçılıq prinsiplərinə sadiq olaraq qeyd edirdi ki, cəmiyyət si-

niflərdən deyil, zümrələrdən ibarətdir, yəni kəndli, fəhlə, sənətkar, tacir və dövlət məmurları kimi peşə prinsipi ilə birləşmiş fərdlər toplusudur. Deməli, Rusiya bolşeviklərinin cəmiyyəti varlı və yoxsul siniflərə bölmə siyasətini qəbul etmədiyi üçün, M.Atatürk əsassız olaraq burjua-mülkədar partiyasının lideri kimi qələmə verilmişdir. Halbuki, M.Atatürk cəmiyyətin siniflərə bölünməsinin əksinə olaraq, xalqı vahid və bölünməz qüvvə kimi qəbul etmişdir.

XX əsrin 20-30-cu illərində Türkiyədə aparılmış islahatlar ölkədə mədəni inkişafın Türk-dünyəvilik –Qərb sistemi əsasında həyata keçirildi, mədrəsələr bağlandı (1924), İslam təqvimi beynəlxalq təqvimlə əvəz edildi (01/01.1926-cı ildən), məktəblərdə oğlan və qızların birgə oxumasına keçildi (1927), öyrənilməsi çox çətin olan ərəb əlifbası əvəzinə Latın əlifbası qəbul edildi (1928), islam dininin dövlət dini olması haqqındakı Konstitusiya maddəsi ləğv edildi (1928), qadınlara seçki hüququ verildi (1930). Bütün bu tədbirlər mədəni inqilabın tərkib hissəsi kimi xalq tərəfindən qəbul edildi.

Mustafa Kamal Atatürk mədəniyyətin inkişafında elmin roluna xüsusi əhəmiyyət vermişdir. Çıxışlarının birində o, demişdir: «Dünyada hər şey üçün – mədəniyyət üçün, həyat üçün, müvəffəqiyyət üçün həqiqi mürşid elmdir, fəndir. Elm və fəndən xaricdə mürşid axtarmaq qəflətdir … cəhalətdir…».[1]

M.Atatürkün təşəbbüsü ilə 1931-ci ilin 12 aprelində Türkiyədə «Türk tarixi tədqiq cəmiyyəti» yaradıldı və bu cəmiyyət 1935-ci ildən «Türk tarix qurumu» adlandırıldı. Bu qurumda Yusif Akçura oğlu, Mehmet Fuad Köprüllü, Əhməd Ağaoğlu (mühacir azərbaycanlıdır) və digərləri üzv olmuşlar. Mustafa Kamal paşa bu cəmiyyətin fəxri üzvü seçilmişdir. Bu qurum «Tarix» kitabını (4 cilddə, 1932-34-cü illərdə), «Cümhuriyyət tarixi», «Tarix dərsliyi», «Türkiyə inqilab tarixi» kitablarını hazırlayaraq nəşr etdirdi. Bu kitablara qədərki dövrdə

[1] Atatürkün söyləv və deməçləri. II cild, Ankara, 1989, s.203.



Türkiyə Osmanlı[1] Xanədanlığı tarixi kimi şərh edilirdi. İslamdan əvvəlki dövrlərin zəngin tarixi isə tamamilə unudulmuşdu. Türklərin Orta Asiyada yaşadıqları dövrün tarixi tamamilə kölgədə qalmışdı.

1934-cü ildə etdiyi çıxışların birində M.Atatürk zəngin «türk tarixini düzgün təməllər üstündə» yazmağın vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Milli mədəniyyətin ifadə vasitəsi olan **ana dili** üzrə inqilabi tədbirlər (latın əlifbasına keçid, əcnəbi dillərdən keçmiş lüzumsuz sözlərin çıxarılması və s.) Türkiyədə mədəni inkişafa böyük bir təkan oldu. M.Atatürk deyirdi: «Türk dili ahəngli, zəngin dildir» (1928), «türk dili dillərin ən zənginlərindəndir» (1930). 1931-ci ildə etdiyi çıxışların birində isə o, demişdir: **«Dil millət üçün müqəddəs bir xəzinədir»**.

M.Atatürk mədəni inqilab yolunu işıqlandırarkən «milli birlik və bərabərlik» amalına xüsusi fikir verirdi. 1925-ci ildə etdiyi çıxışların birində o, demişdir: «Milli mübarizədə şəxsi ehtiras deyil, milli ideal, milli ləyaqət gerçək amil olmuşdur». Türklərin «milli varlığının təməlini milli şüurda və milli birlikdə görən» M.Atatürk 1928-ci ildə etdiyi çıxışların birində demişdir: **«Bizim millətimiz utanmaq üçün yaranmamışdır. O, fəxr etmək üçün yaranmışdır. Öz tarixində o, dəfələrlə möhtəşəm uğurlar həyata keçirmişdir»**.

M.Atatürkün irsinin geniş və dərin tədqiqatçısı professor Ütkan Qocatürk yazır: Atatürkçü çağlaşmanın təməlində dövlət olaraq istiqlaliyyət, millət olaraq hegemonluq, fərd olaraq hüquq və azadlıqlar durur.[2]

Mədəni inkişafa yol açan islahatların ümumi məzmununu nəzərdə tutaraq, M.Atatürk demişdir: «Etdiyimiz və etməkdə

[1] Anadolu türklərindən Şəmsəddin Sami (1850-1904) «Osmanlı» sözü əvəzinə «türk» sözünü ilk dəfə işlətmişdir. Onun «Dəmirçi gavə» pyesi hələ inqilabdan əvvəl Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur.
[2] Atatürkün Söylev ve demeçleri. II cild, Ankara 1989, s.214.

olduğumuz inqilabların məqsədi, Türkiyə Respublikası xalqını hər baxımdan sivilizasiyalı bir cəmiyyət halına gətirməkdir. İnqilablarımızın təməl şərti budur»[1].

***

Mərmərə Qrupu Vəqfinin təsisçisi olan Akkan Suver 1968-ci ildə M.Atatürkün Cümhur Başqanı (prezident) olduğu dövrdə mosul vəzifələrdə olmuş 10 nəfərə 3 sual ilə müraciət etmişdi və onların cavabları «Atatürkü yaşamaq» adlı kitabda[2] verilmişdir.

Müəllif həmin kitabda (1999-cu ildə yazılmışdır) 12 kiçik bölmədə Atatürkün böyüklüyü və müasirliyi haqqında söylənən araşdırmalara öz münasibətini bildirmişdir. Məsələn, «Atatürkün böyüklüyü» adlı bölmədə deyilir: «Əmir millətlərə istiqlal fikrinin babası Atatürkün çağdaşı (müasiri) Lenin, işçi imperatorluğu üzərinə bir hayal (xəyal, ümid) qurarkən, Atatürk zənginlik, çağdaşlıq və mədəniyyətdən ibarət yeni bir dünyanın quruluşuna imza atmışdır».

Kitabın «Saxta müsəlmanlar» bölməsində Yunus Emrə, Həzrəti Movlana, Əhməd Yesevi və digər gerçək müsəlmanlarla yanaşı terrorçu Üsame Bin Laden, El-Kaide tərəfdarlarının saxtalığı və imansızlığı, dar görüşləri tənqid edilir (2001-ci il). Müəllif yazır ki, müasir müsəlmanlığımıza görə də biz Atatürkə borcluyuq.

Kitabın «Ağustos Ayı» bölməsində bu ayın türklər üçün uğurlu olduğu dilə gətirilir və deyilir ki, 1071-ci ilin avqust ayında türklər Anadoluya ayaq basmışlar, 1922-ci ilin bu ayında Anadoludan düşmənləri söküp atmışlar. Müəllif yazır: «Türklər islamiyyəti qəbul etdikdən sonra İslam mədəniyyətini də mənimsəmişlər» və ərəb əlifbasını qəbul etmişlər. Lakin, bu əlifbanın fonetikası türk dilinə uyğun gəlmir. Sultan Abdul Əziz

[1] Ütkan Qocatürk, Atatürk. B., 1991, s.94-95.
[2] Akkan Suver. Atatürkü yaşamaq. Bakı, 2003, s.44-63.



dövründə yazıda reforma təşəbbüsü baş tutmadı. Sonra azərbaycanlı yazar Axundzadə Fetih Əli (Mirzə Fətəli Axundov) İstanbula gələrək təşəbbüs göstərmiş, lakin Osmanlılar tərəfindən qəbul edilməmişdi.

Nəhayət, 1928-ci ilin 9 avqustunda Böyük Atatürkün təklifi ilə Türkiyədə latın əlifbasına keçid həyata keçirildi... Azərbaycan türkləri də Heydər Əliyevin təklifi ilə 2001-ci ilin 1 avqustunda latın əlifbasına qayıtdılar (onlar üçün bu əlifba tanışdır, çünki 1927-ci ildə bu əlifbaya keçmişdilər).

## M.ATATÜRKÜN TÜRKLÜK VƏ MƏDƏNİYYƏTƏ DAİR SEÇİLMİŞ DEYİMLƏRİ

***Mənim həyatda yeganə fikrim, sərvətim türklükdən başqa bir şey deyildir.***
**M.ATATÜRK**

1. «Hörmətli gənclər, həyat mübarizədən ibarətdir. Ona görə həyatda yalnız iki şey var: qalib olmaq, məğlub olmaq. Sizə, Türk gəncliyinə qoyub gedəcəyimiz vicdanı əmanət yalnız və daim qalib olmaqdır. Və əminəm ki, həmişə qalib olacaqsınız...» (1923).

2. Türk gəncliyinə Atatürkün xitabı: «Qərb sizdən, Türkdən çox geri idi. Mənada, fikirdə, tarixdə bu belə idi. Əgər bu gün Qərb texnikada bir yüksəliş göstərirsə, ey türk cocuğu, o qəbahət sənin deyil, səndən əvvəlkilərin bağışlanmaz günahının nəticəsidir...» (1936).

3. «Türk milləti utanmaq üçün yaranmış bir millət deyildir: iftixar etmək üçün yaranmış, tarixini iftixarla doldurmuş bir millətdir...» (1928).

4. «Millətimiz ... ana vətəndə müstəqil bir dövlət yaratdıqdan sonra Qərb aləminə, düşmən içinə girdi və orada böyük

çətinliklər içində bir imperiya yaratdı və bunu, bu imperatorluğu altı yüz il böyük bir qüvvət və əzəmətlə qorudu. Buna müvəffəq olan bir millət, əlbəttə, yüksək siyasi keyfiyyətlərə və idarəçilik qabiliyyətinə malikdir, belə bir vəziyyət yalnız qılınc gücünə yarana bilməzdi...» (1919).

5. «Sənətkar əl öpməz, sənətkarın əlini öpərlər» (1930).

6. «Bir millətin yeniləşməsində ölçü onun musiqidə dəyişiklik edə bilməsi, bu dəyişiklik zərurətini qavraya bilməsidir» (1934).

7. «Mən yalnız ləyaqət aşiqiyəm».

8. «Biz heç kimin düşməni deyilik. Yalnız insanlığın düşməni olanların düşməniyik» (1936).

9. «Türk milləti... yeniliksevər və inqilabçı bir millətdir» (1925).

10. «Ey Türk gəncliyi! Birinci vəzifən, Türk istiqlalını, Türk Respublikasını əbədiyyətə qədər mühafizə etməkdir... Bir gün istiqlaliyyət və respublikanı müdafiəyə qalxmaq məcburiyyətində olarsansa, borcunu yerinə yetirmək üçün mövcud imkan və şərtlər səni dayandırmamalıdır. Bu imkan və şərtlər çox əlverişsiz ola bilər...

Bütün bu şərtlərdən daha dəhşətlisi və daha qorxuncu odur ki, ölkənin daxilində hakim qüvvələr qəflət və dəlalət, hətta xəyanət içində ola bilərlər.

Bu hakim qüvvələr öz şəxsi mənafelərini ölkəni ələ keçirənlərin siyasi əməlləri ilə birləşdirə bilərlər. Millət fəqirlik və yoxsulluq içində dağılmış və üzülmüş hala düşə bilər.

Ey Türk istiqlalının övladı! Əslində bu vəziyyət və şərtlər daxilində də sənin vəzifən Türk istiqlalını, respublikanı qorumaqdır. Lazım olan qüdrət damarlarındakı nəcib qanda mövcuddur» (1927).

Ey gənc dostlar, yorulmadan mənim arxamca gəlməyə söz vermisiniz. Mən xüsusən bu sözdən çox qəhərləndim...

Əlbəttə yorulacaqsınız...



Sizlər yeni Türkiyənin gənc övladları, yorulsanız belə mənim arxamca gəlin. Dincəlmədən yürüməyi qət edənlər əsla və əsla yorulmazlar. Türk gəncliyi qayəyə, bizim yüksək idealımıza doğru durmadan, yorulmadan yürüyəcəkdir (1937-ci il)».

11. Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə nitqində M.Atatürk demişdi: «Bu gün Sovetlər İttifaqı dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız vardır. Fəqət sabah nə olacağını kimsə bu gündən müəyyən edə bilməz. Eyni Osmanlı kimi, eyni Avstriya-Macarıstan kimi parçalana, küçülə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir müvazinətə çata bilər. Bax, o zaman Türkiyə nələr edəcəyini yaxşı bilməlidir... Bizim bu dostumuzun idarəsində dili bir, inacı bir, özü bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq...».[1]

***

M.K.Atatürkün zəngin irsi Türkiyədə geniş öyrənilir. XX əsr Türkiyə yazarlarından Akbal (Oktay), Ömər Asım (Aksoy), Altan Çetin, Nazihe Araz, Atay (Falih Rifki), Şovket Süreyya (Aydemir), Feyzi Halıcı, Mehmet Kaplan, Mehmet Emin, İlham Selçuq və digərlərinin yaradıcılığında M.K.Atatürk mövzusu geniş işıqlandırılmışdır. Nezihe Araz «Mustafa Kemalla 1000 gün» kitabını yazmışdır və s.

[1] Mövlud Uluqtəkin Yılmaz. Türk xalqlarının ortaq ata-babaları. Bakı, 1997, s.189-190.

## TÜRKLÜK ŞƏRƏFİ

*Nə xoşbəxtdir,*
*türkəm deyən!*
**M.ATATÜRK.**

Bəşərin əzəli olan türk xalqı
Tarixə düşmüşdür «şumer» adıyla.
Türklər olub insanlıq nümunəsi
Tarixlərdə heyran edib hər kəsi.

***

Türklük bir sərvətdir, ülvi şöhrətdir
Türkdə ləyaqət var, iftixar vardır.
Türk tarixi insanlığa örnəkdir
Türkdə ədalət var, hünər də vardır.

***

Türkün oğlu uşaqlıqdan qoçaqdır
Düşməndən gizlənmək ona yasaqdır.
Türk bayrağı qələbəyə örnəkdir
Savaşlardan zəfərlərlə dönməkdir.

***

Türkün yolu qəhrəmanlıq yoludur
Türklük inam, iman yoludur.
Türk Anası insanlığa şərəfdir
Türk savaşı hərbin zəfər qoludur.

***



## III Fəsil. NƏRİMAN NƏRİMANOV MİLLƏT VƏ MİLLİ MƏDƏNİYYƏT HAQQINDA

XIX əsrin sonu və XX əsrin ilk iyirmi beşilliyində Azərbaycanda və Rusiyada siyasət aləmində, eyni zamanda bədii ədəbiyyat və təbabət sahələrində geniş demokratik fəaliyyət göstərmiş Nəriman Nərimanov xalqımızın çoxəsrlik tarixində yetişdirdiyi görkəmli şəxsiyyətlərdəndir.

Nəzəri cəhətdən fəlsəfi təfəkkürə malik, əməli sahədə ədalətə arxalanan Nəriman Nərimanov öz zəkasını və qələmini ən mürəkkəb olan milli münasibətlər sahəsində də sınamış və böyük uğurlar qazanmışdır. Təkcə bunları demək kifayətdir ki, millət haqqında onun görüşləri tam orijinal və müstəqildir. Əməli sahədə isə siyasət aləmində güclü şəxsiyyət olan Lenin Nəriman Nərimanovun milli siyasət məsələləri üzrə məsləhət və tövsiyələrindən çox bəhrələnmişdir; Lenin onu Rusiya Sovet hökuməti xarici işlər naziri müavini təyin etmiş və bu sahədə onun məsləhətlərindən həmişə istifadə etmişdir.

Nəriman Nərimanovun milli siyasət aləminə cəlb edildiyi XX əsrin əvvəllərində Azərbaycan Rusiya imperiyasının müstəmləkəsi vəziyyətində idi. Azərbaycanda demokratik hərəkatların genişləndiyi həmin dövrdə «Müstəqil Azərbaycan» tələbi ilə çıxış edən görkəmli vətənpərvər ziyalılardan biri də Nəriman Nərimanov olmuşdur. Bu tələbi o, Rusiyada 1917-ci ilin oktyabrında qurulmuş Sovet üsul-idarəsi ilə ittifaq şəraitində təbliğ edilirdisə də, əsas ideya Azərbaycanın müstəqilliyi ideyası və tələbi idi.

N.Nərimanovun «Müstəqil Sovet Azərbaycanı» şüarında (tələbində) digər əsas ideya bu müstəqilliyə Azərbaycan türklərinin tarixən yaşadıqları ərazilər çərçivəsində nail olunmasından ibarət idi.

Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının bu dövlətçilik ənənələrini bərpa edərək, müstəqil dövlət halında inkişafı ideyası və bu məfkurənin millətin siyasi

ideologiyası səviyyəsində işlənib hazırlanması XX əsrin əvvəlinə təsadüf edir və bu sahədə .Nəriman Nərimanovn fəaliyyəti öncül kimi qiymətləndirilməlidir.

Nəriman Nərimanov xüsusi olaraq qeyd edirdi ki, həyatın mənasını yeyib-içməkdə, gündəlik həyatının «bu dünya beş gündür, beşi də qara» fəlsəfəsi əsasında keçirməkdə görən şəxslər əqidəsiz insanlardırlar. Böyük ədib və siyasi xadim Nəriman Nərimanov «Bəsirət»[1] qəzetinin 1914-cü il 5 iyul sayında (№11) çap etdirdiyi «Əqidə» adlı məqaləsində yazmışdı: «Biz təəssüf edirik özlərini «müəyyən bir əqidədə» olanlara oxşadan «balta başlar»a, ... lakin «elmsiz böylə bir mühüm məsələlərə girişmək çətindir». Bunun üçün darülfünunlarda elmlər dairəsində geniş imkanlar açılır, «Fəqət görən göz, eşidən qulaq, sağlam beyin, hissli ürək gərəkdir olsun». Bunlar oldu isə, şəksiz müəyyən bir əqidə də meydana gəlir».

Nəriman Nərimanov bütün ömrü boyu insanları xeyirxahlığa, paklığa, vətənpərvərliyə, xalqın və vətənin gələcəyi haqqında düşünməyə dəvət etmişdir. Doktor N.Nərimanov 1914-cü ildə Bakıda öz mənzilində müalicəxana açmışdı və burada bütün kasıbları pulsuz qəbul edərək müalicə edirdi. Tibbi sahədə savadsız əhalini maarifləndirmək üçün şəhərin Suraxanski küçəsindəki 6-cı rus-tatar məktəbində təşkil etdiyi «Xalq universiteti»ndə isə hər cümə günləri vərəm, vəba, çiçək, əsəb, göz ağrısı və digər xəstəliklər haqqında mühazirələr oxuyur və özünün tərtib etdiyi «Tibb və islam» adlı kitabçasını yoxsul fəhlələrə pulsuz paylayırdı.

1914-cü ilin yanvarının son günlərinə təsadüf edən mövlud bayramında (Məhəmməd peyğəmbərin anadan olması günü) N.Nərimanov Bibiheybət məscidində, «Səfa» məktəbində və digər yerlərdə iştirak etmişdi və keçirilmiş mərasimlərdə onun çıxışları böyük ehtiram və hörmətlə qarşılanmışdı.

---

[1] «Fərasət, uzaqgörənlik» mənasını verir.



N.Nərimanov «Dərdlərimizin əlacı» adlı məqaləsində yazmışdı: «Bir millət özünü tanımayınca hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır».[1] N.Nərimanov 1899-cu ildə «Türk-Azərbaycan dilinin müxtəsər sərfi-nəhvi» kitabını yazaraq nəşr etdirmişdir.

XX əsrin əvvəlindən başlayaraq Nəriman Nərimanovun yazılarında milli məsələyə dair nəzəri müddəalar getdikcə çoxalır. 1906-cı ildə o, yazmışdı: «**Millətin dilini bilməmiş onun dərdinə dava etmək çətindir**».[2]

Nəriman Nərimanov 1906-cı ildəki məqalələrinin birində yazmışdı: «Siz özünüzü bir millətdən hesab edirsinizsə, özünüz üçün müəyyən bir vətəniniz vardırsa, həmin milləti, həmin vətənin dərdi-qəmi sizin dərdiniz, qəminizdir və ya bir millət və ya vətən sizi üzvlərindən hesab edirsə, sizin dərdiniz, qəminiz millət və vətən üçün ümumi dərd və qəm olmalıdır».[3]

Millət haqqındakı nəzəri fikirlərini o, sonrakı çıxışlarında daha geniş əsaslandırmışdır. 1919-cu ilin mayında qırğızların Sovet qurultayındakı çıxışında N.Nərimanov demişdi: «Millətlər bir-birlərindən dilləri, adətləri, mənşələri və qismən dini *ibadətləri ilə fərqlənirlər*».

Ana dilinin milli ruha təsirini nəzərdə tutaraq N.Nərimanov «Bu gün» adlı məqaləsində yazmışdı: «Ana dili, nə qədər rəfiq, nə qədər ali hissiyyatı-qəlbiylə oyandıran bir kəlmə! Nə qədər möhtəşəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə...».[4]

Peşə etibarilə həkim və yazıçı olduğu üçün N.Nərimanov xalqın milli həyatı və mədəniyyətinə, milli ruhuna aid məsələlərə daha yaxın olmuşdur. M.Atatürk hökümətinin nümayəndə-

---

[1] «Yeni iqbal» qəzeti, 1916, № 212.
[2] «İrşad» qəzeti, 1906, № 84.
[3] «Həyat» qəzeti, 1906, № 97.
[4] «Həyat» qəzeti, 1906, № 187.

si doktor Rza Nur 1921-ci ildə Sovet Rusiyası hökuməti ilə danışıqlar aparmağa gedərkən yolüstü Bakıda olmuş və Nəriman Nərimanovun qonağı olmuşdur. Sonralar qələmə aldığı «Moskva-Sakarya xatirələri» adlı memuarında, Rza Nur Nəriman Nərimanov haqqında belə yazmışdır: «...onunla tez-tez və təkbətək görüşdüm, xeyli söhbətləşdik. Baxdım ki, gözəl bir insandır. Ona etimad təlqin edə bildim. Açılışdı və dedi: «Bolşevik nə olan şeydir? Bu rəzalət bizə yaraşmaz. **Biz türkük. Milliyyət hissi ilə yaşamalıyıq**».

Bu etiraf millətin mahiyyətini başa düşmək üçün son dərəcə qiymətlidir. Deməli, Nəriman Nərimanov **milli ideyanı, milli şüuru, milli həmrəyliyi millətin əsas əlaməti kimi qəbul edirdi.**

Təbiətən yaltaqlığın düşməni olan N.Nərimanov üçün yaşadığı mürəkkəb və ziddiyyətli dövrdə yüksək vəzifələrdə işləmək çox çətin olmuşdur. O, siyasi fəaliyyətində də cəsarətli və safqəlbli olduğu üçün, heç bir zaman ikili (ikitirəli) xətt seçməmişdir. V.İ.Leninə böyük ehtiram və hörmətlə yanaşan N.Nərimanov bəzən ona da ədalətli və çox sərt məktublar yazmaqdan çəkinməmişdir.

1920-ci ilin iyununda Moskvaya göndərdiyi teleqramında N.Nərimanov yazmışdı: «**Azərbaycanı köhnə sərhədlərində saxlaya bilməməsi müsəlman kütlələri tərəfindən Sovet hakimiyyətinin xəyanəti, ermənipərəstliyi və yaxud da zəifliyi hesab ediləcəkdir**».[1]

N.Nərimanov ana dilimizin öyrənilməsinə və inkişaf etdirilməsinə etinasızlığı böyük kədər hissi ilə tənqid edirdi. 1906-cı ildə «Həyat» qəzetinin 181-ci sayında yazırdı: «Firəng dili Avropada nə məqami haiz isə, bizim də ana dilimiz Asiyada o məqami haizdir. Lakin biz özümüz qədrini bilməyib qüşeyinişyana atıb ehmal etmişdik. Bəli, ehmal etmişdik söyləyirəm,

[1] N.Nərimanov. Seçilmiş əsərləri. II cild, B., 1989, s.311 (rus dilində).



Hürriyyət olmasa idi dilimiz bu halətdən xilas olmayacaq idi. Əsarətdən qurtarmayacaq idi...».

1922-ci ilin iyununda N.Nərimanov Bakıda Azərbaycan və rus dillərində nəşr olunan rəsmi qəzetlərdə «Bəzi yoldaşlara cavab»[1] adı ilə nəşr etdirdiyi məqaləsində yazmışdı ki, son vaxtlarda bəzi rəhbər işçilər Azərbaycan məktəblərində türk dili dərslərinin, türk teatrlarında bu dildə göstərilən tamaşaların ixtisar edilməsi haqqında təkliflər verirlər. Hakimiyyəti öz əlinə almış Azərbaycanın fəhlə və kəndlilərinin mədəniyyətinin yüksəlməsinə və savad dərəcələrini artırmağa qarşı yönəldilmiş belə təkliflərin müəlliflərini N.Nərimanov «Köçəri quşlar» (yəni gəldi-gedərlər) adlandırmışdı. Belə təklifləri o, savadsız xalqın mənafeinə xəyanət kimi şərh etmişdi.

Həmin məqalədə N.Nərimanov yazmışdı ki, «Türk dili Azərbaycanda dövlət dili elan edilmişdir. Və bu dil bütün hüquqlarından və üstünlüklərindən istifadə etməlidir...».

Azərbaycan xalqının milli mədəniyyətinin inkişafı qayğısı N.Nərimanovun həmişə diqqət mərkəzində olmuşdur. Yazısı çətin ərəb əlifbası əvəzinə latın qrafikası əsasında tərtib edilmiş yeni əlifbanın Şərqdə ilk dəfə Azərbaycanda qəbul (1927) edilməsində N.Nərimanovun böyük əməyi olmuşdur.

1921-ci ilin 30 dekabrında N.Nərimanov Azərbaycan ziyalılarının yığıncağında demişdi: «Yeni əlifba qəbul etmək məsələsini qət etməliyik. Əksər adamlar özümüzə latın əlifbasını qəbul etmək fikrindədir, burası həyatımızda bir inqilabdır».[2] «Yeni yol» qəzeti 1924-cü ildə yazmışdı: «**Yoldaş N.Nərimanov inqilab başlanarkən yeni əlifba üçün ilk təşəbbüsdə bulunmuş, indi isə Moskvada bu əlifbanı ümumi Rusiya türkləri arasında yaymaq fəaliyyətinə keçmişdir**».[3]

[1] Rus dilində «Bakinskiy raboçiy» qəzetinin 1922-ci il 15 iyun sayında; «Kommunist» qəzetinin isə 1922-ci il №132 çap olunmuşdur.
[2] «Kommunist» qəzeti, 1922, №1.
[3] «Yeni yol» qəzeti, 1924, №10.

Nəriman Nərimanov Azərbaycan türklərinin rus xalqının mədəniyyəti ilə tanış olmalarını yüngülləşdirmək üçün Bakı gimnaziyasında Azərbaycan dili müəllimi işlədiyi zaman «Müsəlmanlar üçün müəllimsiz rus dilini öyrənməkdən ötrü asan kitabça» adlı 64 səhifə həcmində kitabını yazaraq çap etdirmişdi.

N.Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» adlı Moskvada Partiya Mərkəzi Komitəsinə məktubunda Azərbaycanda milli siyasətin həyata keçirilməsində S.M.Kirov (20-ci illərin əvvəlində Azərbaycan partiya təşkilatının rəhbəri) və Mirzoyanın (Bakı şəhər partiya komitəsinin katibi) fəaliyyətini konkret faktlarla «cinayətkar siyasət» adlandırmışdı.

XX əsrin 20-ci illərinin əvvəllərində Bakıda partiya və sovet idarələrində azəri türklərdən idarələrə müraciətlər yalnız rus dilində qəbul olunurdu. Bakıda olan 17 fabrik-zavod şagirdliyi məktəblərində rus uşaqlarının sayı 1192 nəfər, müsəlman fəhlələrin uşaqlarının sayı isə cəmisi 26 nəfər idi. 35 təqaüdçü tələbədən 30 nəfəri rus, 5 nəfəri isə türk idi. N.Nərimanov yazırdı ki, Bakı Sovetinin 500 nəfər üzvündən türklər yalnız 200 nəfərdir. Bakıda olan birinci dərəcəli 57 məktəbdən yalnız 20-si türk dilində olan məktəbdir. 16 ikinci dərəcəli məktəbdən isə yalnız 4-ü türk dilində idi.[1]

Ədalətli milli siyasətə uyğun olaraq N.Nərimanov Azərbaycanda xalqın milli mənafelərini həmişə üstün tutmuşdur. Vətənpərvərlik hissiyyatının məzmununu və mənasını nəzərdə tutaraq o, yazırdı: «**Vətənpərvərlik insan həyatına bağlı bir keyfiyyətdir...ali hissiyyatdır**».[2] Azərbaycan xalqının mənafelərinə qayğı N.Nərimanovun Azərbaycana rəhbərlik etdiyi 1920-1922-ci illərdə daha qabarıq şəkildə özünü göstərirdi.

[1] Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. (İ.V.Stalinə məktub). Bakı, 1992, s.49-53.

[2] «Həyat» qəzeti, 1906, №124.



N.Nərimanov Moskvaya, partiya rəhbərliyinə 1923-cü ilin əvvəlində göndərdiyi məktubunda yazmışdı: «Azərbaycan kəndliləri ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və i.a. eşitməyə məcbur olursan».

Məlumdur ki, Azərbaycanda istehsal edilən neft məhsullarından Azərbaycanın xeyrinə faizlər ayrılması məsələsini N.Nərimanov qaldırmışdı və bu məsələ uğrunda o, Azneft birliyinin rəisi Serebrovski ilə bir il mübarizə aparmalı olmuşdu.

N.Nərimanov 1923-cü ildə Moskvada SSRİ Mərkəzi İcraiyyə Komitəsinin dörd sədrindən biri vəzifəsində işlədiyi dövrdə Azərbaycan Xalq Komissarlar Şurası sədri Qəzənfər Musabəyova yazdığı məktubunda göstərmişdi: «Yoldaş Musabəyov, məncə fikrim aydındır: neftin əvəzinə alınan vəsait Azərbaycanın yalnız maarif və səhiyyəsinə xərclənməlidir».

Həmin 5 milyon manatlıq «neft fondu» yalnız Nikita Xruşşovun dövründə İttifaq büdcəsinə «bağışlanıldı».

Gözəl insani keyfiyyətlərə malik olan Nəriman Nərimanov son dərəcə qayğıkeş bir şəxsiyyət idi. Azərbaycanın böyük şairi Mirzə Ələkbər Sabirin Bakıdakı heykəlinin ucaldılması N.Nərimanovun qayğısı nəticəsində olmuşdur.

N.Nərimanov 1923-cü ilin martında Tiflisdə keçirilmiş Zaqafqaziya kommunist təşkilatlarının II qurultayından Bakıya qayıtdıqda şəhərdən 30 km kənarda yerləşən Mərdəkan qəsəbəsinə gedərək məşhur xeyriyyəçi qoca Hacı Zeynalabdin Tağıyevə baş çəkdikdən sonra Moskvaya qayıtmışdı.

Nəriman Nərimanov Leninin elan etdiyi bərabər hüquqlu respublikalar ittifaqı şüarı ilə Stalinin ifrat mərkəzləşdirmə siyasəti arasındakı ziddiyyəti gördükdə və çıxış yolu tapmadıqda mənəvi böhran keçirməyə başladı və az sonra xəyanət nəticəsində dünyasını dəyişməsi ilə bu əzabdan qurtardı.

## NƏRİMANIN RUHU DARDADIR

*Nərimanov qoydu Sabirə heykəl*
*Heydər də ucaltdı ona bir heykəl.*
*Cavidi qaytardı Heydər Vətənə*
*Nəriman məzarı gözləyir növbə.*

Azəri xalqının Nəriman oğlu
Öz xalqını Şərqə tanıdan oğlu.
Şərq siyasətinin nadir ustadı
Xalqın sevimlisi, darda imdadı.

***

Yaşadı dövranın tufanlarında
Uğurlar qazandı əməllərində.
Savaşa girirdi mərdi-mərdanə
Zərbələr vururdu düşmənlərinə.

***

İndi onun qəbri qalıb qürbətdə
Xəyanət gördüyü bina yanında.
Məzarı qalıbdır cığır altında
Ruhu Bakıdakı heykəl yanında.

***

Millət yığır Vətən oğullarını
Növbəti cəsarət İlham bəxtində.
Cavan Prezidentə uğurlar olsun
Qaytarsın Vətənə Nəriman qəbrin.

***



## IV Fəsil. AZƏRBAYCAN – TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİ 1918-1920-ci İLLƏRDƏ

Anadolu və Azərbaycan türklərinin həyatında göstərilən bu üç il çox gərgin bir dövr olmuşdur.

Həmin dövrün əvvəlindən Rusiya Sovet hökumətinin əli ilə erməni-daşnak qüvvələrinin rəhbərliyi altında «Bakı Kommunası» adlı bir qurum yaradılmışdı. Bunun ərəfəsində isə çox iyrənc bir siyasi oyun həyata keçirildi.

1918-ci ilin 30 martında Bakıda 7000 nəfərlik erməni hərbi dəstələri və 6000 nəfərlik qırmızı qvardiya ( bolşevik-rus hərbi qüvvələri) Bakıda yaşayan türk əhalisini qırmaq üçün hazır vəziyyətə gətirildi. Martın 31-də saat $22^{00}$-da bütün bu silahlı qüvvələr şəhərin müsəlman əhalisinə qarşı hücuma keçdilər.

Şəhərin şimal hissəsində «Erməni kənd» adlanan yerdən toplardan atəş açıldı. Bir top gülləsi Təzəpir məscidinin minarəsini zədələdi. Şəhərin «Şamaxinka» adlanan hissəsində daşnak hərbi hissələri hücuma keçdilər və məşhur «İsmailiyyə» binası qarət edilərək yandırıldı. Vəhşiləşmiş erməni hərbi dəstələri şəhərin mərkəzində yerləşən Balaxanı küçəsindən Xəzər dənizinə (dənizkənarı meydana) qədərki bütün evlərdə yaşayan türk əhalisini küçələrə tökərək, güllələdilər.

Martın 31-də gecə Şaumyan, Mikoyan və daşnakların digər başçılarının rəhbərliyi altında əhalinin sığınacaq tapdığı «İçəri şəhər» də zəbt edildi.

1918-ci il aprelin 1-də səhər saat 10-da şəhərin «Astoriya» mehmanxanasında yerləşən birləşmiş hərbi ştabdan verilən əmrə əsasən yerli müsəlman əhaliyə qarşı dənizdəki gəmilərdən top atəşi açıldı. Göstərilən 3 gündə 15 mindən çox azərbaycanlı-türk məhv edildi.

Aprelin 13-də Stepan Şaumyan Moskvaya Leninə bu məlumatı göndərdi: «Bakıda üç gün ərzində ... gərgin döyüşlər oldu. Bir tərəfdən bizim təşkil etdiyimiz Qırmızı Qvardiya, Qızıl ordu, Qızıl Donanma və erməni milli dəstələri, digər tərəf-

dən musavat partiyası rəhbərliyi altında müsəlman «Vəhşi diviziyası» və müsəlmanların quldur silahlı dəstələri iştirak edirdi. Bizə eləcə də aviasiya məktəbinin hidroplanları kömək etdilər. Döyüşdə çox gözəl nəticələr əldə etdik. Düşmən tamamilə məğlub edilmişdir...».

Mart qırğını, Bakıda erməni-bolşevik rəhbərliyi altında Bakı kommunasının yaradılmasını təmin etdi.

1918-ci ilin mayının sonunda keçirilmiş Cənubi Qafqaz Seyminin müsəlman fraksiyasında çıxışında Nəsib bəy Usubbəyli demişdi: «Yalnız Azərbaycanı deyil, bütün Cənubi Qafqazı istila edən böyük dəhşətli anarxiyanı biz öz qüvvəmizlə sakitləşdirə bilmərik. Şərq tərəfdən bolşeviklərin bizim əsrlik düşmənimizlə (ermənilərlə – İ.İ.) birləşərək hücum etməsi vəziyyəti daha da ağırlaşdırır və türk millətinə olduqca böyük müsibət və fəlakət gətirir. Belə olduğu halda, bizə xarici bir qüvvənin müdaxiləsini istəməkdən başqa çarə qalmır... Bizim heyətin Batuma gedərək Cənubi Qafqaz türkləri adından Osmanlı dövlətindən yardım istəməyinizin zamanı gəlmişdir».

Türkiyənin hakim dairələri və ilk növbədə Hərbi nazir Ənvər paşa (1881-1922) Azərbaycana belə bir köməyin edilməsini vacib hesab etdi. Beləliklə Azərbaycan və Anadolu türklərinin birgə əməliyyatları üçün imkanlar əldə edildi.

Azərbaycanın görkəmli ziyalılarından bir neçəsi 1918-19-cu illərdə Türkiyədə diplomatik fəaliyyətdə olmuşlar və onlar da bu köməyin təşkilində iştirak etdilər.

Əlimərdan bəy Topçubaşov (1865-1934) 1918-19-cu illərdə Azərbaycan respublikasının Türkiyədə fövqəladə elçisi və səlahiyyətli naziri idi. 1918-ci ilin 4 iyununda Azərbaycan ilə Osmanlı imperatorluğu arasında dostluq müqaviləsinin bağlanmasında onun xüsusi xidmətləri olmuşdur. Görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli (1887-1943) 1919-cu ildə Azərbaycanın Türkiyədə səfiri olmuşdur və həmin dövrdə orada «Azərbaycan ədəbiyyatına bir nəzər» adlı kitabını nəşr etdirmişdir.



1918-ci ilin 4 iyununda Batumda Azərbaycan Cümhuriyyəti ilə Türkiyə dövləti arasında dostluq haqqında imzalanmış müqavilənin 4-cü bəndində Azərbaycana hərbi yardım edilməsi nəzərdə tutulmuşdu.

1918-ci ilin 25 mayında Türkiyə hərbi nazirinin tapşırığı ilə general-leytenant Nuru paşa (1889-1949) Gəncəyə gəlmişdi və orada yerləşən müsəlman korpusunun vəziyyəti ilə tanış olduqdan sonra bildirmişdi ki, Azərbaycana türk qoşunları gəlməsə burada yerləşən erməni-bolşevik hərbi qüvvələrini Bakıdan çıxarmaq mümkün olmayacaqdır.

Qafqaz İslam ordusunu möhkəmləndirmək məqsədilə Türkiyənin 5-ci diviziyası Mürsəl paşanın komandanlığı altında Gürcüstandan keçərək, Azərbaycana göndərildi və Qazax yolu ilə Gəncəyə gəlib çatdı. Həmin ilin 26 iyununda müsəlman korpusuna Xüsusi Azərbaycan korpusu adı verildi və məşhur azərbaycanlı general-leytenant Əliağa Şıxlinski korpusun komandiri təyin edildi.

Türkiyə-Azərbaycan qoşun hissələrinin Bakıda yerləşən daşnak-bolşevik hərbi qüvvələri üzərinə hücumu 1918-ci ilin 27 iyununda başlandı. İyul ayının əvvəlində Türkiyədən gəlmiş əlavə qoşun hissələri ilə birlikdə Türkiyə-Azərbaycan hərbi qüvvələrinin sayı 10 min nəfər, daşnak-rus hərbi qüvvələri isə 18 min nəfər idi ki, bunların da 60-70%-i erməni daşnaklardan ibarət idi.

1918-ci ilin 6 iyulunda Türkiyə-Azərbaycan hərbi qüvvələri Ağsunu, iyulun 19-da isə Hacıqabulu düşmənlərdən azad etdilər. Düşmənin salamat qalmış hərbi qüvvələri Bakıya çəkildi.

Azərbaycan-Türkiyə hərbi qüvvələri 31 iyulda Xırdalana daxil oldular. Belə bir şəraitdə Bakı Kommunası hakimiyyəti istefa verdi və hakimiyyət avqustun 1-də Sentrokaspi adlanan eser-daşnak-menşevik liderlərin diktaturası əlinə keçdi və İrandakı ingilis hərbi qüvvələri Bakıya dəvət edildi. Avqustun 17-

də general Denstervilin komandanlığı altında Bakıya göndərilmiş az saylı ingilis qoşun hissələri Bakıya daxil oldu.

Azərbaycan-Türkiyə hərbi qüvvələrinə köməyə göndərilmiş Türkiyənin 15-ci diviziyası sentyabrın 8-də Bakı ətrafına çatdı və sentyabrın 13-dən 14-nə keçən gecə buraya gəlmiş Nuru paşanın ümumi komandanlığı altında Bakıdakı düşmən qüvvələrinə qarşı ümumi hücum başlandı və şəhər sentyabrın 15-də düşmənlərdən tamamilə azad edildi. Bakıda olan az saylı ingilis qoşun hissələri cüzi müqavimətdən sonra dəniz ilə Ənzəliyə (İran ərazisindədir) geriyə çəkildilər.

1918-ci ilin 15 sentyabrında Bakıda 5-ci Qafqaz və 15-ci Türkiyə piyada diviziyalarının rəsmi keçidi oldu. Bakının düşmən qüvvələrindən azad edilməsi əməliyyatlarında 1100 nəfər türk əsgəri və 30 nəfər türk zabiti şəhid oldular.[1]

Xilaskar türk ordusu hissələrinin köməyi ilə Azərbaycanın paytaxtı Bakı şəhəri düşmən qüvvələrindən azad edilməsi şərəfinə Bakının dağüstü parkında (indi «Şəhidlər xiyabanı» adlanır) Türkiyənin xilaskar ordusunun şəhidlərinin adları mərmər lövhələrə həkk olunmuşdur və bu da Azərbaycan-Türkiyə əbədi dostluğunun rəmzidir.

Bakı şəhəri düşmən qüvvələrindən azad edildikdən 2 gün sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncədən Bakıya köçdü.

1918-ci ilin 10 oktyabrında Antanta dövlətləri və Türkiyə sultanlığı arasında aparılmış sülh danışıqlarına əsasən Türkiyə sultanı öz ordusunu Batumdan və Bakıdan çıxarmalı idi.

Türkiyə ordusunun Azərbaycandan getməsi erməni daşnak hərbi qüvvələrinin Azərbaycan ərazilərinə yenidən hücumlarına şərait yaratdı: erməni generalı Andranikin dəstələi Zə-

[1] Bakının azad edilməsi döyüşlərində həlak olmuş azəri və osmanlı-türk döyüşçülərinin dəfn edildiyi dağüstü parka 1934-cü ildə Leninqradda terrorçu tərəfindən edam edilmiş Sergey Kirovun adı verilmişdi və orada ona böyük heykəl ucaldılmışdı. Bu heykəl 1992-ci ildə dağıdıldı və parka «Şəhidlər xiyabanı» adı verildi.



ngəzur dairəsində azəri türklərini qarət edərək yaşatdıqları yerlərdən qovmağa başladılar. Belə hücumlar Qarabağda da təşkil edildi.

Azərbaycan Parlamanı 1918-ci ilin 20 dekabrında Qarabağda general-qubernatorluq yaratdı (tərkibinə Zəngəzur, Cavanşir, Şuşa və Cəbrayıl dairələri daxil edildi) və general Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təyin edildi.

Erməni-daşnaq hərbi dəstələri qardaş Türkiyə xalqının da dövlət müstəqilliyinə qarşı, Türkiyə ərazilərində Ermənistan dövləti yaratmaq haqqında cəfənq planlarından əl çəkmirdilər. Bu işdə Sovet Rusiyasının hakim dairələri də onlara kömək edirdi. Rusiya Sovet hökümət başçısı Lenin öz çıxışlarında «Türkiyə Ermənistanı» üslubundan tez-tez istifadə edirdi.

1919-cu ilin yayı (23 iyul-6 avqust) ərzində Mustafa Kamal paşanın rəhbərliyi altında keçirilmiş konqresdə Cənubi Anadolu ərazilərində erməni və yunan dövlət qurumlarının yaradılması planlarına qarşı mübarizə tədbirləri müzakirə edildi. Həmin ilin 4-12 sentyabrında Sivasda keçirilmiş ümumi Türkiyə konqresində xarici işğalçılara qarşı mübarizə aparan bütün milli təşkilatlar Mustafa Kamal paşanın rəhbərliyi altında yaradılmış komitədə birləşdilər və milli azadlıq mübarizəsinin mərkəzi Ankaraya köçürüldü.

Beləliklə 38 yaşlı vətənpərvər Mustafa Kamal paşa Türkiyənin müstəqilliyini qorumaq uğrunda azadlıq hərəkatına rəhbərliyi öz üzərinə götürdü.

1920-ci ilin 23 aprelində Ankarada çağrılmış nümayəndələr məclisi özünü Türkiyənin Böyük Millət Məclisi adlandırdı və Mustafa Kamal paşa həmin Məclisin sədri seçildi. Böyük Millət Məclisi həm də özünü Türkiyənin ali qanunverici orqanı olduğunu elan etdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qardaş Türkiyəyə Azərbaycanda mədəni-maarif işinin təşkili üzrə kömək edilməsi haqqında müraciətlər etmişdi. Xalq Cümhuriyyəti

hökuməti 1919-cu ilin sentyabrında 100 nəfər azərbaycanlı gənci dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərmək haqda qərar qəbul etdi. Bunlardan 9 nəfər Türkiyəyə, 45 nəfər Fransaya, 23 nəfər İtaliyaya, 10 nəfər İngiltərəyə göndərilmişdi. Rusiyada davam edən vətəndaş müharibəsi oraya 13 nəfəri göndərməyə imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan bir ay sonra Azərbaycan türkcəsi rəsmi olaraq dövlət dili elan edildi. Lakin milli ziyalıların çatışmazlığı mədəni-maarif şəbəkəsinin inkişafına mane olurdu.

Azərbaycan parlamanının 1919-cu il 9 iyulda qəbul etdiyi qərara əsasən Bakıda, Gəncədə, Qazaxda, Şəkidə, Şuşada, Qubada, Zaqatalada və Salyanda iki aylıq pedaqoji kurslar açıldı və bu kurslarda dərs deyən müəllimlərin əksəriyyəti Türkiyədən dəvət edilmişdi. Bu kursları qurtaran müəllimlər Azərbaycan məktəblərində uşaqların ibtidai təhsilə cəlb edilməsi üçün açılmış ilk məktəblərin müəllimləri oldular.



## V Fəsil. 1920-1922-ci İLLƏRDƏ AZƏRBAYCAN – TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİ

1920-ci ilin mayının əvvəlindən 1922-ci ilin sonunadək Azərbaycan Sovet Respublikası ilə Rusiya Sovet dövləti arasında dövlətlərarası münasibət müstəqillik prinsipinə əsasən tənzim edilirdisə də, Rusiyanın XI ordusunun Azərbaycanda olması bu müstəqilliyi çox zəiflədirdi.

Belə şəraitdə Azərbaycanın Hərbi-İnqilab Komitəsi sədri Nəriman Nərimanov böyük cürətlə Azərbaycan Şura (Sovet) hökumətinin ilk tərkibinin hamısını azərbaycanlılardan təşkil etdi. Bu hökumətdə Xarici İşlər Naziri – Mirzə Davud Hüseynov, Hərbi və Dəniz işləri üzrə Nazir – Əliheydər Qarayev, Torpaq Naziri – Sultan Məcid Əfəndiyev, Daxili işlər Naziri – Həmid Sultanov, Maarif Naziri – Dadaş Bünyadzadə idi və s.

Bakıya XI ordu ilə birlikdə gəlmiş Anastas Mikoyan və Bakıda özlərinə yuva salmış digər erməni daşnak rəhbərləri bu faktı əldə əsas tutaraq Moskvaya, V.İ.Leninə Nəriman Nərimanovun millətçiliyi haqqında yazılı şikayətlər göndərmişdi. Göstərilən məsələ üzrə Leninin tələbinə əsasən göndərdiyi izahat məktubunda Nəriman Nərimanov yazmışdı ki, Azərbaycanda və Türküstanda milli hərəkatın inkişafı və milli siyasətin milli mənafelər üstündə köklənməsi Sovet Rusiyasının Şərq siyasəti üçün xüsusi əhəmiyyət kəsb edir. V.İ.Lenin Nərimanov tərəfindən Azərbaycanda sırf milli hökumət yaradılmasının düzgün olduğunu etiraf etmişdi və bununla da erməni daşnakların şikayəti bağlanmışdı.

1920-ci ilin yayında Qafqaz cəbhəsi komandanı general Kazım Qarabəkir paşanın (1881-1948) rəhbərliyi ilə aparılmış döyüşlərdə Sarıqamış, Kars və Qumru erməni hərbi dəstələrindən azad edildi. Rusiya ilə Türkiyə arasında 1921-ci ilin 16

martında bağlanmış müqaviləyə əsasən Türkiyə Kars, Ardaqan və Sarıqamış üzərində öz suverenliyinə nail oldu.



## Azərbaycan Sovet Respublikasının Xalq Komissarlar Şurasının ilk tərkibi

Türkiyə dövləti 1920-ci ilin avqustunda yazıçı Memduh Şövkət bəyi özünün Azərbaycanda ilk səfiri təyin etdi. Az sonra, 1921-ci ilin oktyabrında Azərbaycan dövləti özünün ilk səfiri İbrahim Əbilovu (1882-1923) Türkiyəyə göndərdi. Bütün bu tədbirlərin nəticəsində SSRİ yaradılmasına qədərki dövrdə (30/XII 1922) Azərbaycan-Türkiyə əlaqələri müəyyən qədər müstəqil və uğurlu olmuşdur.

1920-ci ilin 1-8 sentyabrında Bakıda çağrılmış «Şərq xalqlarının birinci qurultayı» Azərbaycan-Türkiyə mədəni əlaqələrinin genişlənməsinə təkan verdi. Qurultayda dünyanın 26 ölkəsindən 37 millət və xalqı təmsil edən 1891 nümayəndə iştirak etmişdi. Türkiyədən qurultayda 105 nümayəndə gəlmişdi: o cümlədən nümayəndə heyəti başçısı İbrahim Talı, Ənvər paşa, Mustafa Sübhi, Süleyman Nuri və digərləri.



Nəriman Nərimanov qurultayı açarkən demişdi: «Əxlaq və mədəniyyət haqqında bizə ilk dəfə anlayışlar vermiş qoca Şərq, bu gün burada göz yaşları tökərək, burjua ölkələrinin kapitalı tərəfindən əsrlər boyu ona vurulmuş ağır yaralar, gətirilmiş bəlalar haqqında söyləyəcəkdir...».[1]

Qurultayda Türkiyədən Vahardın Şakir, Türküstandan Narbutabəyov, Dağıstandan Qorqmazov və digərləri çıxış edirdilər. Qurultayın son iclasında qadın nümayəndələr adından Türkiyədən gəlmiş nümaəndə Nəciyə xanım çıxış etdi. Onun çıxışı Şərq qadınlarının azad edilməsi üzrə tələblərə həsr olunmuşdu və qurultay tərəfindən müdafiə edildi.

Qurultayda 48 nəfərdən ibarət seçilmiş «Təbliğat və fəaliyyət şurası» tərkibinə Nəriman Nərimanov (sədr), Süleyman Nuri (Türkiyə), Heydər Əmioğlu (İran) və digərləri seçildilər.

Türkiyə ilə Zaqafqaziya respublikaları arasında müqavilə bağlanması üçün 1921-ci ilin 26 sentyabrında Karsda çağrılmış konfransda Türkiyədən Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşa, Türkiyənin Azərbaycandakı səlahiyyətli nümayəndəsi Memduh Şövkət bəy, Azərbaycandan Behbud Şahtaxtlı iştirak etmişdir.

1921-ci ildə Türkiyə hökumətinin Moskvada apardığı danışınların iştirakçısı Faruk Sümer yazır ki, bu danışıqların rəhbəri Y.Kemal Moskvaya gətmək ərəfəsində Mustafa Kamal paşadan soruşmuşdu: «Paşam, ruslar Naxçıvan uzerinde irsar ederlerse ne yapalım?» sorqusuna Atatürk «Naxçıvan türk kapısıdır. Bunu özellikle dikkate qlaraq elinizden geleni yapınız» cavabını vermişdi».[2] Bu mövqenin nəticəsidir ki, Rusiya ilə

---

[1] «Şərq Xalqları» jurnalı, 1920, №1, s.4-5 (rus dilində).
[2] İsmayıl Musayev. Azərbaycan-Türkiyə ilişkeleri (1917-1922 yılları). Bakı, 1998, s.33.

Türkiyə arasında 1921-ci ilin 16 martında Moskvada bağlanmış müqavilədə Naxçıvanın Azərbaycanın tərkibində olması öz hüququ təsdiqini tapmışdır.

Türkiyə xalqının 1918-ci ildə başladığı milli azadlıq hərəkatı 1920-1922-ci illərdə geniş miqyas almışdı. Bu dövrdə gələcək döyüşlər üçün hərbi sursat və yanacaq ehtiyatı görülməsi xüsusi əhəmiyyət kəsb edirdi.

Azərbaycan hökuməti 1921-ci ildə Türkiyə ordusu üçün 94 sistern neft və benzin, 11 sistern kerosin, eləcə də kredit olaraq 1 milyon rubl (qızıl pulla) göndərmişdi. 1922-ci ildə isə Azərbaycandan Batum limanı vasitəsilə Türkiyəyə 924 ton kerosin və 340 ton benzin göndərilmişdi.[1]

Beləliklə Mustafa Kamal paşanın bilavasitə komandanlığı ilə milli azadlıq hərəkatı ilk uğurlu əməliyyatlarını başladı.

Türkiyə xalqının Antanta qüvvələri üzərində hərbi qələbələri münasibətilə Nəriman Nərimanov və Azərbaycan Respublikası Xarici İşlər Naziri Mirzə Davud Hüseynovun imzası ilə 1921-ci ilin 24 aprelində Mustafa Kamal paşaya göndərilmiş teleqramda deyilirdi: «Azərbaycan Sovet hökuməti bu tarixi qələbənin fərəhini Sizinlə bölüşərək Azərbaycanın fəhlə-kəndli kütləsi adından inqilabi Türkiyənin *hökumətinə təbrik* göndərir».

Sakarya çayının sağ sahilində Türkiyə ilə yunan ordu hissələri arasında döyüşlər 1921-ci ilin 23 avqustunda başlandı və 22 gün davam edərək, Türkiyənin tam qələbəsi ilə qurtardı. Bu qələbəyə görə Böyük Millət Məclisi Mustafa Kamal paşaya marşal və «qazı» rütbələri verdi.

1921-ci ilin 13 oktyabrında Karsda Türkiyə ilə Zaqafqaziya respublikaları arasında müqavilə imzalandı. Bu müqavilə həmin ilin 16 martında Moskvada bağlanmış Rusiya-Türkiyə müqaviləsinin davamı idi.

---

[1] F.A.Bağırov. Sovet-Türkiyə münasibətləri tarixindən (1920-1922). B., 1965, s.124 və 134 (rus dilində).



1922-ci ilin 26 avqustunda Türkiyə ordusu Yunanıstan ordusuna qarşı *hücum əməliyyatını davam etdirdi* və 9 *sentyabrda* İzmir yunanlardan azad edildi, sentyabrın 18-də bütün Anadolu düşmən qüvvələrindən təmizləndi. 1923-cü ilin iyununda Lozanna (İsveçrə) konfransında Antanta ilə Türkiyə arasında sülh müqaviləsi imzalandı.

Azərbaycan hökuməti 1922-ci ilin oktyabrında Türkiyənin Anadolu hissəsində yaşayan kəndlilər üçün Azərbaycandan maddi kömək edilməsini təşkil etməkdən ötrü Dadaş Bünyadzadənin rəhbərliyi altında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin xüsusi komissiyasını təşkil etmişdi və yığılmış vəsait hesabına münasib köməkliklər edilmişdi.

Azərbaycanın Türkiyə respublikasındakı səlahiyyətli nümayəndəsi İbrahim Əbdilovun 1920-22-ci illərdə Azərbaycan Xalq Komissarlar Şurası sədri Nəriman Nərimanovun adına göndərdiyi rəsmi məlumatlar göstərilən illərdə Azərbaycan-Türkiyə mədəni əlaqələrinin genişləndiyini təsdiq edir. 1922-ci ildə Türkiyənin Kars, Trabzon və Samsun şəhərlərində Azərbaycan respublikasının konsulluğu mövcud idi və bunlar Türkiyə ilə mədəni əlaqələrin genişlənməsinə xidmət edirdi.

Zaqafqaziya federasiyasında ittifaq şurasının sədrliyinə Nəriman Nərimanovun seçilməsi, Federasiyanın Xarici İşlər Naziri vəzifəsinə Behbud Şahtaxtlının göndərilməsi, İbrahim Əbilovun Türkiyədə üç Zaqafqaziya respublikası üzrə səlahiyyətli nümayəndəsi təyin edilməsi Rusiya Sovet hökumətinin (V.İ.Lenin) Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq məqsədinə xidmət edirdi. Sovet Rusiyası hökuməti başçısı Lenin Azərbaycan və Türkiyə vasitəsilə inqilabi təsirini Şərqə doğru genişləndirməyə xüsusi əhəmiyyət verirdi. Buna görə də 1920-22-ci illərdə Azərbaycan-Türkiyə əlaqələrinin genişlənməsinə imkan yaradılmışdı və Azərbaycan tərəfi bundan istifadə edirdi.

SSRİ yaradıldıqdan sonra isə bu əlaqələr əsasən ittifaq (SSRİ) Xarici İşlər Nazirliyinin səlahiyyətinə keçdi və Azərbaycan-Türkiyə əlaqələri zəifləməyə başladı.

## §1. Azərbaycan Respublikası səfiri İbrahim Əbilovun Türkiyə ilə mədəni əlaqələr sahəsində fəaliyyəti (1921-1923)

Azərbaycanın Türkiyə Respublikasındakı ilk diplomatik nümayəndəsi (səfiri) İbrahim Məhərrəm oğlu Əbilov (1881-1923) Azərbaycan Xalq Cümhuriyyəti dövrü parlamanın üzvü olmuş, 1920-ci ilin sentyabrında Bakıda keçirilmiş Şərq xalqlarının I qurultayında isə qurultayın seçdiyi «Təbliğat və hərəkət şurası»nın katibi vəzifəsinə seçilmiş və bu vəzifədə bir ilə qədər işləmişdir.

İbrahim Əbilovun başçılıq etdiyi 25 nəfərdən ibarət Azərbaycanın ilk diplomatik heyəti Ankaraya 1921-ci ilin 12 oktyabrında çatmışdı və oktyabrın 15-də Böyük Millət Məclisində məclisin sədri, Türkiyənin silahlı qüvvələrinin Ali baş komandanı Mustafa Kamal paşa tərəfindən qəbul edilmişdi.

1921-ci ilin 23 oktyabrında səfirliyin təntənəli açılışı mərasimində Mustafa Kamal paşa şəxsən iştirak etmiş və səfir İ.Əbilovun xahişi ilə müstəqil Azərbaycanın bayrağını səfirlik üzərində o qaldırmışdı. Bu münasibətlə çıxışında Mustafa Kamal paşa demişdi: «Azərbaycan və Türkiyə arasında mövcud olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliyi özü-özlüyündə qiymətli olmaqla yanaşı, həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər ölkələrlə əlaqələrimizi həyata keçiririk».[1]

1922-ci ilin yazında Türkiyə silahlı qüvvələri Mustafa Kamal paşanın rəhbərliyi altında Antanta və Yunanıstan hərbi qüvvələrinə qarşı böyük hücuma hazırlaşırdılar. Ali Baş Komandan Mustafa Kamal paşanın səhra qərargahı Ağşəhərdə yerləşirdi və digər dost ölkə səfirləri ilə yanaşı buraya İbrahim Əbilov da dəvət edilmişdi. Görüşdən sonra İ.Əbilov cəbhələrdəki türk əsgərlərinə bəxşiş olaraq xüsusi kisələr hazırlamışdı

[1] Kamal Atatürk. Seçilmiş nitq və çıxışları. M., 1996, s.169 (rus dilində).



və içərisində qənd, tütün, iynə-sap, kağız olan bu kisələrin üstünə «Azərbaycan qardaşlarından türk əsgərinə» sözləri yazılmışdı. 10 gün davam edən bu görüşlər zamanı səfir İbrahim Əbilov Türkiyə ordusu əsgərləri qarşısında çıxışlar etmişdir.

Səfir İ.Əbilovun Azərbaycan hökumətinə müraciəti əsasında 1922-ci ildə Azərbaycan Batum limanı vasitəsilə Türkiyə ordusu üçün 9294 ton ağ neft və 340 ton benzin göndərilmişdi.[1]

Müstəqil Azərbaycan Respublikasının Türkiyədə ilk səfiri İbrahim Əbilov 1923-cü ilin 23 fevralında Türkiyədə ağır cərrahiyyə əməliyyatı zamanı vəfat etdi. Türkiyə xalqı Mustafa Kamal paşanın şəxsən iştirakı ilə səfirin tabutunu Bakıya göndərdi və onun dəfnində Nəriman Nərimanov çıxış edərək, xalqımızın görkəmli diplomatının fəaliyyətinə yüksək qiymət verdi.

[1] Anadolu Əbilova. İbrahim Əbilov – Atatürkün Azərbaycanlı dostu. B., 2003, s.30 (rus dilində).

## II Hissə
## AZƏRBAYCANDA VƏ TÜRKİYƏDƏ MƏDƏNİ İNQİLABIN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ, NAİLİYYƏTLƏRİ

## VI Fəsil. AZƏRBAYCAN VƏ TÜRKİYƏ XALQLARI MƏDƏNİYYƏTİNİN XX ƏSRDƏ GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

### 1. Əli bəy Hüseynzadə (1864-1940).

Əli Hüseyn oğlu Azərbaycanın Salyan şəhərində dünyaya göz açmış və 1910-cu ildən sonra əsasən Türkiyədə yaşamışdır.

1905-1918-ci illərdə Azərbaycanda yaradılmış istiqlal hərəkatının əsas ideoloqlarından biri olan Əli bəy Hüseynzadə 1907-ci ildə «Füyuzat» jurnalının 23-cü sayında «türkçülük, islamçılıq, müasirləşmək» düsturu ilə çıxış etmiş və türkçülüyü bütün türk dünyası birliyi üçün əsas istiqamət kimi müəyyənləşdirilmişdir.

Bu düsturu Ə.Hüseynzadə, bizə «türk hissiyyatlı, islam etiqadlı və Avropa qafiyəli fədai» lazımdır məzmununda şərh etmişdir. Buna uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağında mavi (türklük), yaşıl (islamiyyət) və qırmızı (hürriyyət və mədəniyyət) rənglər qəbul edilmişdir.

Bu ideyanı turançılıq ilə əlaqələndirərkən Əli bəy Hüseynzadə əlbəttə istər-istəməz romantizmə qapılmışdır. İstanbulda ali hərbi tibb məktəbi bitirdikdən (1895) sonra o, bütün dinləri öyrənərək onlara tolerantlıq (dözümlülük) bəsləmişdir.

Əli bəy Hüseynzadə «Türklər kimdir və kimlərdən ibarətdir?» adlı əsərini 1905-1906-cı illərdə Bakıda «Həyat» qəzetində hissə-hissə çap etdirmiş, sonralar isə Türkiyədə kitabça şəklində nəşr etdirmişdi. Həmin əsərində Ə.Hüseynzadə yazmışdır: «Türklərin ən qədim xətt və əlifbası «run»[1]» deyilən bir xəttdir və özləri tərəfindən ixtira olunmuşdur» (s.224).

Ə.Hüseynzadə türklər haqqında son dərəcə qiymətli ümumiləşdirmələr vermişdir. Həmin kitabında o, yazmışdır: «İslamı olduğu kimi qəbul etsələr də, türklər əsla ərəbləşmədilər (s.225)». «Əcəba səbəbi nədir?». Bu suala cavabında o, yazır: «Hər lisan lüğət və qəvaiddən ibarət bulunduğu halda, türk lisanı başlıca qəvaiddən ibarətdir... Yəni türk dili lüğətə əhəmiyyət verməz, hər lisandan bəyəndiyi kəlməyi alıb öz malı kimi asanlıqla öz ... nəhviyyəsinə tətbiqən təsrif edər» (s.226).

Əli bəy Hüseynzadə «Türk dilinin vəzifeyi-mədəniyyəsi» əsərində yazırdı ki, islam mədəniyyətinin sonuncu — üçüncü inkişaf dövrü türk tarixindən ibarətdir və türk dili öz üstün cəhətlərinə görə Asiyada ümumi ünsiyyət vasitəsinə çevrilə bilər.

1910-cu ildə yenidən Türkiyəyə qayıdan Əli bəy Hüseynzadə ömrünün sonunadək (qısa fasilələrlə) İstanbul universitetinin tibb fakültəsində 1933-cü ilədək professor işləmişdir.[2] O, İstanbulda Əhməd Ağayev, Məmməd Əmin Rəsulzadə, Ziya Göyalp, Y.Akçuraoğlu və digər mütəfəkkirlər ilə birlikdə «Türk ocağı» dərnəyi təşkil etmişdi. Əli bəy Hüseynzadə Mustafa Kamal paşa Atatürkün hökumətində bir sıra mühüm vəzifələrdə işləmişdir. Azərbaycan ilə əlaqəsini qırmayan Əli bəy Hüseynzadə Bakıda 1926-cı ildə keçirilmiş türkologi qurultaya dəvət edilmişdi və orada məruzə ilə çıxış etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti müəyyən mənada Əli bəy Hüseynzadənin görüşlərinin təsiri altında yaranmışdı. Sovet üsul-idarəsi illərində yazılmış və yazdırılmış bütün «tarix» dərsliklərində isə bu fikir aşılanırdı ki, Azərbaycan Xalq Cümhuriyyəti Türkiyənin güclü təsiri ilə yaradılmışdı, Azərbaycanda isə guya bolşevizm siyasi cərəyanı güclü olmuşdur. halbuki,

[1] Run qədim Orxan-yenisey əlifbasının əsasını təşkil etmişdir

[2] Daha geniş, bax: İsrafil İsmayılov. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B., 1996, s.54-59.

Nəriman Nərimanov da Bakı Kommunası haqqında öz mövqeyini bildirərkən həmin kommunanı Azərbaycanda siyasi əsası olmayan uğursuz bir tədbir hesab etmişdir. N.Nərimanov 1918-ci ildə yazmışdı: «Yalnız Bakının alınması və orada möhkəmlənməklə işi bitmiş hesab etmək olmazdı... Bakını Azərbaycansız öz arxamızca apara bilmərik...»[1]

## 2. Ziya Göyalp (1876-1924).

*«Ətimin və sümüyümün atası Əli Rza əfəndidirsə, fikrimin atası Ziya Göyalpdır».*
**M.ATATÜRK**

Türkçülüyün böyük filosofu Ziya Göyalp (Mehmet Ziya Tofiq əfəndi oğlu) 1876-cı ilin 23 martında Diyarbəkirdə dünyaya göz açmışdır. Cavan yaşlarında ərəb, fars və fransız dillərini mənimsəmiş, islam fəlsəfəsini şərq müəllimlərinin (Əl Qəzali, Mühyiddin Ərəbi və s.) əsərlərindən öyrənmişdir.

1895-1899-cu illərdə İstanbulda təhsildə olduğu dövrdə qərbin filosof və sosioloqlarının (Emil Dürkgeym, Berqson, Fixte və s.) əsərlərini dərindən öyrənmiş, 1919-cu ilə qədər İstanbul universitetində sosiologiya professoru vəzifəsində çalışmışdır.

İstanbul İngiltərə ordusu tərəfindən zəbt edilərkən (1919-cu ilin əvvəli) o da, Əhməd Ağaoğlu, Yusif Akçuraoğlu və digərləri ilə birlikdə həbs edilərək Malta adasına sürgün edilmişdi və 1921-ci ilin may ayına qədər burada sürgündə qalmışdılar.

M.Atatürkün köməyi ilə sürgündən azad edildikdən sonra Z.Göyalp 1923-cü ildən Ankarada Türkiyə Cümhuriyyətinin ilk konstitusiyasının hazırlanmasında fəal iştirak etmişdir. O, 1923-cü ildə Türkiyə Millət Məclisinə millət vəkili seçilmişdir.

[1] Daha geniş, bax: İsrafil İsmayılov. Türk dünyası XX əsrin 90-cı illərində. B., 2001, s.60-61.



Azərbaycanlı mühacir (Türkiyədə) Əhməd Ağaoğlu Ziya Göyalp haqqında demişdir: «*Türkün ölməyəcəyinə (məğlub olmayacağına) onun qədər inanmış bir adama hələ ki, təsadüf etmədim*».

Ziya Göyalp 1918-ci ildə «Türkləşmək – İslamlaşmaq - Müasirləşmək» şüarını, nəşr etdirdiyi eyni adlı kitabında əsaslandırmış və 1923-cü ildə yazdığı «Türkçülüyün əsasları» kitabında daha geniş şərh etmişdir. Eləcə də «Türk mədəniyyəti tarixi» əsərində Ziya Göyalp göstərmişdir ki, Türkiyə xalqının mədəniyyəti, dili, ədəbiyyatı və musiqisinin yaranması və inkişafında ikilik olmuşdur: 1) geniş xalq kütləsinin yaratdığı və işlətdiyi türk mədəniyyəti, dili, ədəbiyyatı və musiqisi, 2) xarici (ərəb, fars) təsirlərin iştirakı ilə yaradılan «Osmanlı» mədəniyyəti. Həmin əsərində o, yazmışdı: «Bu yöndən - cəhətdən osmanlı ədəbiyyatçıları və şairlərindən heç biri orijinal deyildir, təqlidçilikdən qurtula bilməmişdir, hamısının da əsərləri sənət ilhamından deyil, ağıl bacarığından doğmuşdur»[1].

Ziya Göyalp fikrini davam etdirərək yazır ki, «əxlaqda da eyni ikiliyi görürük. Türk əxlaqı *ilə osmanlı əxlaqı bir-birinə* ziddir...».[2]

Türk mədəniyyətinin böyük bilicisi olan Ziya Göyalp türklərdə imanın çox güclü olduğunu şərh edərək, yazır: «türklərin əski dinlərində ... əxlaqla bağlı törənlər - ayinlər ... çoxdur... İslamdan sonra da türklər çox güclü bir imana malik»[3] oldular.

Burada I dünya müharibəsi dövrü hərbi döyüşlərin birində yaralanaraq Rusiya ordusuna əsir düşmüş türk əsgəri Səid Nursi ilə bağlı bir hadisəni xatırlamaq yerinə düşər: Səid Nursi Ərzurumun süqutundan sonra yaralanaraq, huşunu itirmiş halda *ruslara əsir düşmüşdü* və Rusiyanın Kostroma şəhərindəki əsir

[1] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 1991, s.43.
[2] Yenə orada.
[3] Yenə orada, s.46.

düşərgəsinə göndərilmişdi: günlərin birində Qafqaz cəbhəsi baş komandanı – Rusiya çarının dayısı Nikolay Nikolayeviç həmin düşərgəyə gəlir və yerdə cərgə ilə oturmuş hərbi əsirlərin qarşısından keçərkən, hər bir əsir ayağa qalxaraq baş komandana təzim edir. Baş komandan Səid Nursinin qarşısından keçərkən o, yerindən qalxmır. Onun bu hərəkəti Baş komandan Nikolay Nikolayeviçin diqqətini cəlb edir və o, sınaq üçün Səid Nursinin qarşısından bir dəfə də keçir, lakin türk əsiri yerindən qalxmır ki, qalxmır. Bundan çox əsəbləşən baş komandan tərcüməçi vasitəsilə ondan soruşur ki. «bəs bilmədin, mən kiməm?» Səid Nursi Baş komandanın adını da, vəzifəsini də söyləyir. Təəccüb edən Baş komandan əsirdən bu davranışın səbəbini soruşduqda o, bildirir ki, «mənə belə etməyi buyuran mənim imanımdır...». Sonra izah edir ki, cismində imanı olan imansızdan üstündür. Ayağa qalxsaydım öz imanıma qarşı hörmətsizlik etmiş olardım.

Qəzəblənən Baş Komandanın əmri ilə hərbi əsir Səid Nursi hərbi tribunala verilir. Hərbi düşərgə yoldaşları Səid Nursini dilə tuturlar ki, Baş komandandan əfv diləsin. Lakin o, bunu etmir və hərbi tribunal ona ölüm hökmü verir. Edam günü Səid Nursi xahiş edir ki, Allahına son borcunu vermək üçün ona şərait yaratsınlar və buna icazə verilir: Səid Nursi təmkinlə abdəst (namaz dəsti) edir və iki rükət namaz qılmağa başlayır. Səid Nursi namazını bitirdikdə Nikolay Nikolayeviç ona yaxınlaşaraq, ondan üzr istəyir və hərbi tribunalın qərarını ləğv etdiyini bildirir və Səid Nursiyə deyir: «Mən səni ləkəsiz bir iman sahibi, sağlam bir davranış sahibi olduğuna görə təbrik edirəm».

Böyük iman sahibi olan Səid Nursi 18 illik sürgündən sonra vətəni Türkiyəyə qayıdır və ilahiyyət alimi səviyyəsinə yüksəlir. O, dinə aid 140-a yaxın əsər yazmışdır və 1960-cı ildə, 87 yaşında vəfat etmişdir.



## Hüseyn Cavid (1882-1941)

Rəsizadə Hüseyn Molla Abdulla oğlu Naxçıvanda dünyaya göz açmışdır. O, 1905-1909-cu illərdə Türkiyədə yaşamış və İstanbul universitetinin ədəbiyyat fakültəsində təhsil almışdır. Burada o, şair Tofiq Fikrət və Əbdülhəq Hamidin yaradıcılığı ilə yaxından tanış olmuşdur.

1910-12-ci illərdə yazdığı ilk «Ana» və «Maral» pyeslərindən sonra Hüseyn Cavid 1914-cü ildə məşhur «Şeyx Sənan» mənzum faciəsini yazmış və məşhurlaşmışdır.

Azərbaycanın Sovet Rusiyası tərəfindən (XI ordu tərəfindən) zəbt edilməsindən sonrakı ilk dövrdə Hüseyn Cavid bir müddət əsər yazmadı, lakin 1922-23-cü illərdə «Afət» dramını və «Peyğəmbər» əsərini, 1925-ci ildə isə «Topal Teymur» dramını yazdı.

1930-37-ci illər H.Cavid yaradıcılığının ən məhsuldar dövrü olmuşdur. Həmin illərdə o, «Dəli Knyaz», «Səyavuş» (1938), «Xəyyam» (1935) və «İblisin intiqamı» (1936) tarixi dramlarını və «Koroğlu» filminin ssenarisini yazmışdır.

1936-cı ildən başlayaraq Hüseyn Cavid yaradıcılığı Azərbaycanın Maarif Naziri Mustafa Quliyev və onun kimi qərb meyilli olanlar tərəfindən ədalətsizcəsinə tənqid edildi. Bu tənqidlərdə «türkçü», «turançı», «panislamist» ləkələri tez-tez təkrarlanırdı.

Həmin dövrdə yazdığı şerlərdən birində humanist şair H.Cavid:

Heç sorma halımı, yaralıyam mən,
Şən olmaz bir daha, viranə könlüm

sözlərilə bədbin hisslərini bildirmişdi.

1937-38-ci illər Azərbaycan ziyalılarının böyük bir hissəsi xəfiyyə orqanları zirzəmilərində məhv edilirdi və ya Sibirə sürgün edilirdilər. Bunların ilk cərgəsində Hüseyn Cavid də vətənindən Uzaq Şərqə sürgün edildi.

Azərbaycanın mühacir ədəbiyyatşünası Mustafa Haqqı Türkəqul «Azərbaycanın türk şairi Hüseyn Cavid» kitabını 1962-ci ildə yazmaqla onu Türkiyə türklərinə tanıtmaq vəzifəsini yerinə yetirdi. Həmin kitaba «Son söz»ündə o, yazmışdı: «Bu gün bir müstəmləkə olan Azərbaycanda Cavidin yüzlərcə tələbəsi və onu sevən on minlərlə münəvvər mövcuddur. Lakin bunlar Cavidi sevmələrinə rəğmən, onu istədikləri kimi oxumaqdan mərhumdurlar. Cavid onlara olduğu kimi tanıdılmır» (s.152-153).

Hüseyn Cavid daha çox fəlsəfi və tarixi dramlar və faciələr müəllifi kimi tanınır.

Hüseyn Cavidin «İblis» dram əsərində (1918) nəql edilən əhvalat I Dünya savaşı dövrü Bağdad yaxınlığında türk cəbhəsinin arxasında cərəyan edir. Ərəbistanda cərəyan edən həmin savaşın iştirakçısı olan Arif nə edəcəyini bilmir. Göydən enən İblis «insanları evlər yıxmaqda» taxsırlandırır. Ondan sonra göydən enən Mələk isə Rəbbə müraciət edərək «iblisəmi uymuş bəşəriyyət?» deyə soruşur. Sonda əsər İblisin bu monoloqu ilə bitir.

İblis nədir?
- Cümlə xəyanətlərə bais...
- Və hər kəsə xain olan insan nədir?
- İblis!

Beləliklə, əsərdə işğalçı müharibələr lənətlənir, azadlıq və mədəniyyət təqdir edilir.

Hüseyn Cavidin anadan olmasının 100 illiyi (1982) ərəfəsində cənazəsinin qalıqları böyük öndər Heydər Əliyevin bilavasitə köməyi ilə Rusiyanın İrkutsk vilayətindən Naxçıvana gətirilmişdir və həmin il Naxçıvanda «Hüseyn Cavid poeziya teatrı» açılmışdır.



## 4. Nazim Hikmət (1902-1963)

*«Mən bir qədər azərbaycanlıyam».* **(N.Hikmət)**

Türk dünyasının görkəmli şairi Nazim Hikmət 1902-ci ilin yanvarında Solonikdə dünyaya göz açmışdır.

1917-ci ildə yazdığı «Yolçu, yolun Şərqə isə» şerində Nazim Hikmət qoca Şərqə böyük ehtiram hissi ilə yazmışdı:

Yolçu, Şərqə isə yolun, onda sən
Hər daşı müqəddəs xərabəyə bax!
O yerdə son damla qanını tökən
Yaralı igidlər vuruşur, qoçaq.

Nazim Hikmət ilk dəfə Azərbaycanda 1927-ci ildə olmuşdur. 1928-ci ildə Bakıda Nazim Hikmətin ilk kitabı olan «Günəşi içənlərin türküsü» əsəri nəşr olunmuşdur. 1930-cu ildə isə o, «Bəhri xəzər» şerini yazmışdır. Səməd Vurğun 1929-cu ildə Nazim Hikmətə «Hərəkət» şerini ithaf etmişdir.

Nazim Hikmət 1959-cu ilin mayında «Ədəbiyyat və incəsənət» qəzetində çap etdirdiyi yazısında «mən bir qədər azərbaycanlıyam» deyə özünü təqdim etmişdi.

Nazim Hikmət Azərbaycanda XX əsrin 30-cu illərin sonlarından başlayaraq geniş tanındı. Onun «Kərəm kimi» şerinin

Mən yanmasam,
    sən yanmasan,
        biz yanmasaq
Necə çıxar
    qaranlıqlar
        aydınlığa....

misraları milli marş kimi hər yerdə səslənirdi.

Sonrakı illərdə Nazim Hikmətin «Şöhrət və ya unudulan adam» (1935) pyesi, «Alman faşizmi və irqçiliyi» (1936) kitabı, «Şeyx Bədrəddin dastanı» (1936) Türkiyədə nəşr olunmuşdur. Siyasi baxışlarına görə 1938-50-ci illərdə həbsdə olan şair «Memleketimdə insan mənzərələri» əsərini, «Həbsxanadan məktublar» silsiləsini, «Məhəbbət əfsanəsi» və «Yusif və Züleyxa» pyeslərini yazmışdır.

Nazim Hikmətin əsərlərinin süjetləri əsasında «Eyni məhəlləli iki oğlan» (1957), «Yaşamaq gözel şeydir, kardeşim» (1966), «Məhəbbətim, kədərim mənim» (1978) və digər adlarda kino və baletlərə musiqini görkəmli Azərbaycan bəstəkarı Arif Məlikov yazmışdır.

Nazim Hikmət Ümumdünya Sülh Şurası Bürosunun və onun rəyasət heyətinin üzvü olmuşdur.

Qonşu Türkiyə dövlətinə düşmənçilik siyasəti yenidən Sovet dövləti rəhbərliyi Nazim Hikmətə Türkiyə xalqının məhəbbətini düzgün qiymətləndirə bilməmişdir: xüsusilə onun sağlığında və hətta 60-80-cı illərdə Türkiyədə onun əsərlərinin qadağan edilməsi haqqında Sovet mətbuatında tez-tez təkrarlanan məlumatlar əsassız idi. Həmin illərdə SSRİ-nin türkdilli xalqlarının ziyalıları üçün Türkiyəyə səfər etməyə qarşı da cürbə-cür əngəllər və bəzi hallarda qadağalar həyata keçirilirdi.

Keçmiş Sovetlər İttifaqının dağılması əsasında müstəqillik qazanmış türkdilli xalqlar indi qardaş Türkiyə dövləti ilə hərtərəfli əlaqələrini genişləndirirlər.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən (1991) sonrakı on ildə Azərbaycan-Türkiyə siyasi əlaqələri xeyli güclənmiş və genişlənmişdir. Burada, onu da demək yerinə düşər ki, Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkə Türkiyə oldu

Nazim Hikmət şərəfli bir həyat və yaradıcılıq yolu keçmişdir. O, Amerikada çap olunmuş «XX əsrin ən böyük şairləri» kitabına daxil edilmiş 25 şairdən biridir. Bu böyük şərəf Türk dünyasından yalnız Nazim Hikmətə qismət olmuşdur.



Bəzi siyasi səbəblərə görə Türkiyədə bir neçə il həbsxanada qalmış böyük şair 1951-ci ilin iyununda motorlu qayıqla Rumıniya gəmisinə çataraq SSRİ-yə mühacirət etdi.

Vətənini tərk etmək məcbuiyyətində qalan Nazim Hikmət Türkiyənin yetişdirdiyi ən böyük şairlərdən biridir. Ömrünün son vaxtlarında deyərmiş: «Ölümümdən sonra millətimlə mənim aramda bir barışıq başlayacaq».

Nazim Hikmətin «Qəribə adam» (1956) pyesi müəyyən mənada özünün siyasi həyatına həsr olunmuşdur. Əsərin əsas ideyası budur: insan xalqından ayrılarsa tək qalar, qabiliyyətini göstərə bilməz. Əsərin qəhrəmanı Əhməd Rza kommunist deyildir, lakin namuslu olması onu kommunistlərin sırasına gətirib çıxarmışdır.

«Qəribə adam» əsərinin tamaşasının müsiqisini dünyanın görkəmli bəstəkarlarından biri olan azərbaycanlı Qara Qarayev yazmışdır.

Azərbaycana ilk gəlişindən 30 il sonra Nazim Hikmət 1957-ci ilin noyabrında Bakıya gəlmiş və Azərbaycanda təxminən bir ay qalmışdır. Nazim Hikmətin yazdığı «Eyni məhəlləli iki oğlan» əsəri əsasında Əjdər İbrahimov 1956-cı ildə Azərbaycanda film çəkmişdir və bu filmə baxışda Nazim Hikmət iştirak etmişdir.

Nazim Hikmətin «Bakıya gedirəm» adı ilə sonralar nəşr edilmiş kitabına (1984) «Bakıya gedirəm» (1957) məqaləsi də daxil edilmişdir. Azərbaycana bu gəlişi günlərində böyük şair Gəncə və Qazaxda ziyalılarla görüşmüşdür. Bu görüşlərdə o, Azərbaycan xalqının şerə və şairə böyük ehtiramını məmnunluqla qeyd etmişdir. O, yazmışdır: «Burada mən hara getdimsə, Səmədə rast gəldim. Hər şəhərdə, hər kənddə, hər məktəbdə, hər klubda, neft buruqlarının yanında, pambıq tarlalarında, hər evdə Səmədlə üz-üzə gəldim. Hər süfrədə qədəhimi onun qə-

dəhi ilə doqquşdurdum, hər narı, hər üzüm salxımını Səmədlə bölüşdürdüm...»[1]

1951-1963-cü illərdə Nazim Hikmət SSRİ-də yaşamışdır. Həmin illərdə onun Azərbaycan ilə əlaqələrinin genişlənməsinə və möhkəmlənməsinə Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Arif Məlikov, Qara Qarayev, Aqşın Babayev, türkoloq Əkbər Babayev, İslam İbrahimov və digər mədəniyyət xadimləri xidmətlər göstərmişlər. Aqşın Babayev «Nazim Hikmət və Azərbaycan» adlı məqaləsində yazmışdı: «Nazim Hikmət Azərbaycana və azərbaycanlılara son dərəcə böyük rəğbət bəsləyirdi. Nazim Hikmət görüşlərinin birində demişdi: «Canım, gözüm bakılılar! Bakıya gəldim, dünyalar mənim oldu! İnanın, həmişə sizi xatırlayıram. Bakı, Azərbaycan bilirsizmi mənə nə qədər əzizdir? Mənim gələcəyim də, qocalığım da Bakıya bağlıdır»[2] Böyük şair Bakıda Azərbaycanın mədəniyyət xadimlərinin əksəriyyəti ilə ünsiyyətdə olmuşdur.

Nazim Hikmətin «Bakıya gedirəm» kitabında (1984) toplanmış «Neftə doğru (yol dəftərindən)»: «Günəşi içənlərin türküsü», «Arpa çayının iki yanı», «Xəzər dənizi», «Bakıya gedirəm» (1957), «Otuz il sonra» (1957), «Səməd Vurğuna» (1957), M.Rəfiliyə (1958), «Gecə vaxtı Bakı», (1960) şerləri böyük şairin Azərbaycana və onun xalqına dərin sevgisini tərənnüm etdirir.

Nazim Hikmət yazır: «Azərbaycan müsiqisi ulu bir çinar kimidir. Kökləri Azərbaycan torpağının, xalqının dərinliklərindədir, qövdəsi dostluq, nikbinlik, ümid kimi sağlam, yekəpərdir. Budaqları bir-birindən sıx, qol-qol, ayrı-ayrı tərəflərdən eyni göy üzünə yüksəlir».[3]

---

[1] Bakıya gedirəm. N.Hikmət və Azərbaycan, B. 1984, .45.
[2] «Qobustan» jurnalı, 1982, №2.
[3] Bakıya gedirəm, s.48



Nazim Hikməti Azərbaycanda çox sevirdilər və indi də sevirlər. 1957-ci ildə bir aya qədər Azərbaycanda olarkən onu Bakıda 40-dan çox evə qonaq çağırmışdılar və bəzən bir gündə üç yerdə qonaq olurdu.[1]

Nazim Hikmət Azərbaycanda olarkən (1957) Gəncə Dövlət Dram teatrında özünün «Kəllə» pyesinin tamaşasına baxmışdır. Bu əsərin radio tamaşası 1953-cü ildə Bakıda lentə yazılmışdır. (Dalbanezo rolunda məşhur səhnə ustası Ələsgər Ələkbərov çıxış etmişdir). Bu əsər İstanbulda da tamaşaya qoyulmuş, bir çox dillərə (ingilis, italyan, rus, alman, rumın, çex, ərəb, polyak və s.) tərcümə edilmişdir.

Nazim Hikmət vətəni Türkiyəni hədsiz dərəcədə sevirdi. Moskvada keçirilmiş beynəlxalq konqreslərin birində Türkiyədən gəlmiş nümayəndə heyəti ilə hər gün görüşürdü. Belə şam yeməyi görüşlərinin birində Türkiyədən gəlmiş qonaqların heç birinin barmağında üzük olmadığını gördükdə, Nazim Hikmət soruşdu: «xayır ola, artıq Türkiyədə üzük taxmırlarmı?». Ona cavab verdilər ki, «Türkiyədə 27 may çevrilişindən sonra xəzinəyə yardım kompaniyası keçirildi və bu zaman qadınlar öz zinət şeylərini, kişilər də üzüklərini xəzinəyə bağışladılar». Nazim Hikmət öz barmağındakı üzüyü çıxararaq professor Fahir İzə verdi və xahiş etdi ki, Türkiyəyə qayıdarkən xəzinəyə versin. Lakin professor söylədi ki, bu üzüyü gömrükdən keçirmək mümkün olmayacaqdır, çünki, biz «gömrükxanadan keçərkən üzüksüz keçdik, indi dönərkən bir üzüklə keçsək, başımız bəla çəkər».[2] Bu həyacanlı hadisə Nazim Hikmətə və türkiyəli qonaqlara ağır təsir etdisə də, Nazim Hikmətin böyüklüyünü bir daha göstərdi.

---

[1] Abuzər İsmayılov, Nazim Hikmət (Həyat və yaradıcılıq salnaməsi) Bakı, 1990, s.110-111.
[2] Əbuzər İsmayılov, Nazim Hikmət (Həyat və yaradıcılıq salnaməsi) Bakı, 1990, səh. 114-115.

Nazim Hikmət Azərbaycanda üçüncü dəfə 1960-cı ildə olmuşdur.

Böyük şairin əsərləri Azərbaycanda 50-ci illərdə və sonra «Seçilmiş əsərlər» (1952), «Şerlər» (1952), «Seçilmiş əsərlər» (I cild, 1961, II cild, 1963), «Azərbaycan haqqında şerləri» (1984) adları ilə nəşr edilmişdir.

Azərbaycan teatrları səhnələrində Nazim Hikmətin «Türkiyədə» (1953), «Qəribə adam» (1956), «Kəllə» (1957), «Domokl qılıncı» (1960), «Şöhrət və ya unudulmuş adam» (1961) pyesləri tamaşaya qoyulmuşdur.

Nazim Hikmət «Literaturnaya qazeta»nın 1960-c il 11 iyun nömrəsində «Mən Bakını gəzirəm» adlı məqalə ilə çıxış etmişdi: Həmin məqalədə Bakıda Azərbaycan şairi Xurşud Banu Natavanın abidəsinin açılışındakı özünün çıxışına əsasən o bildirdi ki, bu abidə Şərqdə ilk qadın-şair abidəsidir.

Ölümündən bir qədər əvvəl yazdığı «Yaşamaq gözəl şeydir, kardeşim» romanında Nazim Hikmət özü haqqında çox şeyrləri söylədi. Fəqət, hamısını yox!

Rəsul Rza 1970-ci ildə «Nazimlə görüş» adlı şerini yazmışdır.

Görkəmli şairə Nigar Rəfibəyli Nazim Hikmətin ölümünə həsr etdiyi «Bəşər oğlu» şerində ona «qardaş» deyə müraciət edərək, 1963-cü ilin 6 iyununda yazmışdı:

İstəyin – insan fənalığını
təmizləmək.
Əzilən bəşəriyyət üçün
Döyünürdü sinəndəki
böyük ürək...

Azərbaycan şairi Teymur Elçinin 1974-cü ildə yazdığı «Bu dünyadan Nazim keçdi» şerinə məşhur bəstəkar Fikrət Əmirov musiqi bəstələdi və Zeynəb Xanlarova məşhur Niyazinin dirijorluğu ilə bu mahnını 1976-cı ildə ifa etdi.



Böyük Niyazi Hacıbəyov 1977-ci ildə «Ədəbiyyat və incəsənət» qəzetində «Niyazi. Bu günün, gələcəyin şairi» adlı məqaləsində yazmışdı: «Moskvada ilk dəfə türk sinfonik musiqi səslənəndə Nazim böyük fərəh hissi keçirirdi. Türk bəstəkarlarından Adnan Sayqunun və Ülvi Camal Erkinin sinfoniyalarını konservatoriyanın böyük salonunda Moskva musiqisevərlərinə ilk dəfə mən tanıtdırdım. Yadımdadır, hələ fasilə zamanı o, «Mənim arslanım» deyə sevinclə məni bağrına basmışdı.

Leninqradda Opera və Balet teatrında Nazimlə birgə keçirdiyim həyəcanlar indi də qəlbini isidir... Bəstəkar Arif Məlikovun musiqisi böyük müvəffəqiyyət qazanmışdı...

Balet («Məhəbbət əfsanəsi» baletinin librettosunu Nazim Hikmət özünün «Bir eşq masalı» əsəri əsasında yazmışdır) doğrudan da əsil sənət bayramına çevrilmişdi...».[1]

Türkiyənin görkəmli ictimai xadimi Yaşar Kamal 1969-cu ilin 3 iyununda nəşr edilmiş «And» adlı məcmuədə çap etdirdiyi «Nazim Hikmət və xalq» adlı məqalədə ürək yanğısı ilə yazmışdır: «Nazim Hikməti sevmək, ona heyran olmaq, yəni onu öyrənmək, onu başa düşmək deməkdir. İşin pis cəhəti orasındadır ki, N.Hikmətin həyatını orta səviyyəli bir rus yazıçısı yazır və biz onu türkcəyə çevirmək məcburiyyətində qalırıq. Belə olmaz... Bu qədər şair, bu qədər gənc nasir əllərini, qollarını bağlamışlır, elə-belə durub gözləyirlər...».

Haqlı gileydir. Bu giley əsasən Türkiyə ədəbiyyat xadimlərinə ünvanlansa da, bir hissəsi də Azərbaycan ziyalılarına aiddir.

[1] Ədəbiyyat və incəsənət. 22 yanvar 1977.

## VII Fəsil. AZƏRBAYCAN-TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİ 1923-1991-ci İLLƏRDƏ

SSRİ rəhbərliyi tarixən gərgin olmuş Rusiya-Türkiyə münasibətlərindəki gərginliyi davam etdirərək çoxmillətli Sovet dövləti tərkibində olan çoxsaylı türkdilli respublikaları və vilayətlərin əhalisinin Türkiyə ilə əlaqələrini məhdudlaşdırmaq siyasətinə bəraət qazandırmaq üçün pantürkizm və panislamizm oyuğunu (vahiməsini) təbliğ etməkdə davam edirdi və bununla əlaqədar iddia edilirdi ki, Türkiyə dövləti guya dünyada yaşayan bütün türkdilli xalqları (bunların sayı 40-dan çoxdur və onların da yarıdan çoxu keçmiş SSRİ tərkibində idi) birləşdirərək Turan dövləti yaratmaq məqsədini öz qarşısına qoymuşdur. Əlbəttə, bu təbliğat heç bir fakta istinad etmirdi, çünki belə bir faktın özü yox idi.

Almaniya professoru Hans Köhn «Panslavizm və Rus millətçiliyi» əsərində bu məsələyə aydınlıq gətirərək yazmışdır: **«İkinci dünya savaşı yeni bir «panrusçuluq» dalğası doğurdu»**[1].

Müasir müstəqil Türkiyə dövlətinin banisi Mustafa Kamal paşa Atatürk hələ 1920-ci ildə demişdi: «Heç bir sərhəd tanımayaraq dünyada mövcüd bütün türkləri... bir dövlət halında birləşdirməyə nail olunması mümkün olmayan bir məqsəddir». Böyük öndər M.Atatürk sözünü davam etdirərək eyni zamanda qeyd edir ki, «Panislamizm, pantürkizm siyasətinin müvəffəqiyyət qazandığına və dünyada tətbiqedilmə sahəsi tapdığına tarixdə təsadüf edilməmişdir»[2].

Həmin məsələ haqqında Məmməd Əmin Rasulzadə ilk dəfə İngiltərədə nəşr olunmuş (Oksford, 1985) «Pantürkizm haqqında» əsərində göstərmişdir ki, Panislamizm müsəlman

[1] Prof. Hans Kohn. Panslavizm və Rus millətçiliyi (almancadan tərcümə). Ankara, 1991. s.260.

[2] Bax: Utkan Qocatürk. Atatürk. Bakı, 1991, s.156.



xalqlarında özünüdərk şüurunun oyanmasına mane olur, onların tərəqqisini ləngidir, və bununla da onların müstəqil olmalarına mane olur (göstərilən kitabın 58-ci səhifəsində).

Beləliklə panislamizm vahiməsi yalnız romantik bir əhvali-ruhiyyə idi və, görünür, olsa-olsa türkçülüyün təbliğ edilməsi məqsədini güdürdü. M. Atatürk digər bir çıxışında bu haqda demişdi: pantürkistlər və panislamistlər «xülyaya aludə olmuş saxtakarlardırlar».[1]

Yuxarıda deyilən siyasətə uyğun olaraq, Türkiyədə 1924-cü ilin martında Dini işlər və vəqflər nazirliyi ləğv edilmişdi və mədrəsələr bağlanmışdı.

Mustafa Kamal paşa ilə V.İ.Lenin arasında XX əsrin 20-ci illərinin əvvəlində mövcud olmuş yazışmaların və anlaşmaların təsiri ilə həmin dövrdə Sovet – Türkiyə əlaqələrində müəyyən dərəcədə yaxınlıq olmuşdur: məsələn, 1923-cü ilin fevralında Türkiyənin İzmir şəhərində keçirilmiş iqtisadi konfransda SSRİ-nin Türkiyədəki səfiri Semyon Aralov və Türkiyədə Zaqafkaziya respublikaları üzrə səfir İbrahim Əbilov öz çıxışlarında Sovetlər ölkəsində aparılan mədəni quruculuq işləri haqqında geniş məlumat vermişdilər.

Mustafa Kamal paşanın çıxışları və əsərləri ilə tanışlıq, Semyon Aralov[2] və İbrahim Əbilovun Türkiyədə diplomatik fəaliyyətləri haqqında yazılarının məzmunu onu deməyə əsas verir ki, siyasi quruluşlarda böyük fərqlər olmasına baxmayaraq, mədəni quruculuq sahəsində Türkiya və Azərbaycanda həmin dövrdə həyata keçirilən mədəniyyətə aid tədbirlərdə müəyyən oxşarlıq mövcud idi: Latin əlifbasına keçid (Azərbaycanda 1927-ci ildə, Türkiyədə 1928-ci ildə), qadınlara seçgi hüququ verilməsi və çadranın götürülməsi uğrunda gərgin mübarizə və binlara oxşar tədbirlər deyilən müddəanın təsdiqidir.

[1] Вах.: Д.Е.Еремеев, Этногенез турок, М., 1971 стр.35.

[2] С.И.Аралов, Воспоминания советского дипломата. М., 1960.

1925-ci ilin 17 dekabrında SSRI ilə Türkiya arasında «Dostluq və bitərəflik haqqında» bağlanmış müqavilənin müddəti 1929-cu və 1936-ci illərdə daha 15 ilə uzadılmışdı.

Bu müqavilə Azərbaycan ilə Türkiyə arasındaki mədəni əlaqələrə hissedici təsir edə bilməsə də, müəyyən imkanlar yaradırdı. Məsələn, 20-ci illərin sonu – 30-cu illərin əvvəllərində Azərbaycanda istifadə edilən məktəb dərsliklərinin bir hissəsi Türkiyədən gətirilmiş dərsliklər əsasında tərtib edilir və tədris üçün məktəblərə göndərilirdi. Həmin illərdə Azərbaycanda müəllimlər hazırlamaq üçün təşkil edilmiş seminariyalarda Türkiyədən gətirilmiş dərsliklərdən daha çox istifadə edilirdi.

Bakıda 1926-cı ildə keçirilmiş I türkoloji qurultay Azərbaycan-Türkiyə arasında mövcud olan mədəni əlaqələrə böyük bir təkan verdi. Qurultayda 130 nəfər nümayəndə və 200 nəfər qonaq hüququnda şəxs iştirak etmişdir. Qurultaya Türkiyədən gəlmiş nümayəndələr içərisində professor Əlibəy Hüseynzadə (azərbaycanlı mühacir), professor Mehmet Fuad Köprüllü (İstanbul darülfünunun ədəbiyyat fakültəsi rəisi) və digərləri olmuşdur.

Bakının «Yeni Avropa» otelində yerləşdirilmiş prof. M.Köprüllü «Yeni fikir» jurnalı müxbirinə burada müsahibə verərkən, demişdi: «Türk xalqlarının ümumiyyətlə bir-birinin dillərini anladıqları bu qurultayda meydana çıxmışdı. Türklər arasında bir-birinə yaxın bir elmi-lisani vücuda gəlməsi, eyni islahatların qəbul edilməsi pək mümkündür».[1]

Professor M.Köprüllü qurultayda «Türk xalqlarının ədəbi dilinin inkişafı haqqında» məruzə etmişdir. Həmin məruzədə o demişdi: «Şərqi Oğuz ləhcəsi, yaxud «Azəri» VIII əsrdən yer tutmağa başlayır. Qərbi Oğuz ləhcəsi, yəni Anadolu ləhcəsinə gəldikdə o, monqolların istilasından qabaq da ədəbi əsərlər çıxarmışdır»[2].

[1] Bax: Buludxan Xalilov. Türkologiyanın intibah dövrü. Bakı, 2001. s.146.
[2] Bax: Buludxan Xəlilov. Türkologiyanın intibah dövrü. 2001, s.149.



Hələ qurultayın çağrılmasına hazırlıq dövründə professor Bəkir Çobanzadə yazmışdı: «Türkoloqlar qurultayı on birinci əsrdən Şərqdə və on üçüncü əsrdən Qərbdə başlayan türk-monqol tədqiqatı tarixində bir hadisədir».[1]

1922-ci ilin 22 iyununda Bakıda Yeni türk əlifbası komitəsi yaradılmışdı. Yeni əlifbaya keçmək üçün 1926-cı ildə yenə də Bakıda Yeni türk əlifbasının Ümumittifaq mərkəzi komitəsi yaradıldı (sədri Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi sədri Səməd Ağamalıoğlu oldu).

1926-cı ildə (26 fevral-6 mart) Bakıda çağrılmış I Ümumittifaq türkoloji qurultay faktiki olaraq beynəlxalq qurultay idi. Bu qurultayda Türkiyədən, Macarıstandan, Almaniyadan və digər ölkələrdən nümayəndələr olmuşdur. Həmin qurultay ərəfəsində prof. M.Köprüllü (1890-1966) «Azərbaycanın mədəniyyəti tarixi necə yazıla bilər?» adlı məqalə ilə çıxış etmişdir. 1926-cı ildə onun «Azəri ədəbiyyatına dair tədqiqatlar» əsəri də Bakıda nəşr olunmuşdur.

Azərbaycan mədəniyyəti tarixinə dair yuxarıda adı çəkilən məqaləsində prof. M.Köprüllü yazmışdı: «Türk məmləkətlərinin hər biri öz ... tarixini anlamaq üçün lazım gələn materialları toplamaq və onları elmi bir surətdə nəşr etmək vəzifəsinin öhdəsindən gəlməlidir».

Bakıda çağrılmış türkoloji qurultaydan bir neçə gün əvvəl burada Azərbaycan müəllimlərinin I qurultayının (15 fevralda) çağrılması, bundan da əvvəl isə, 1920-ci ilin sentyabrında yenə də Bakıda Şərq xalqlarının I qurultayınını çağrılması Azərbaycan ziyalılarının həmin dövrə görə müəyyən qədər intellektual qüvvəyə malik olmasına dəlalət edirdi. Bu güclü intellektual mədəni qüvvənin böyük bir hissəsi 1937-1938-ci illərin repressiyaları dövrü məhv edildi. Bu illərdə 50 mindən artıq azərbaycanlı güllələndi, 100 mindən çoxu isə Sibirə və Qazaxıstana

[1] Çobanzadə B. Türkoloji qurultay. «Kommunist», 9 noyabr, 1925, №256.

sürgün edildi. Bunların böyük bir hissəsi elm və mədəniyyət xadimləri idi.

Türkiyə sultanı Əbdülhəmidi ən çox tənqid edən şairlərdən Namiq Kamal və Tofiq Fikrət olmuşdur. Lakin Türkiyədə onlara cismani cəza verilmədi. Sovet Azərbaycanında isə Hüseyn Cavid, Mikayıl Müşviq, Bəkir Çobanzadə, Vəli Xülüflü, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb və digər yüzlərlə mədəniyyət xadimləri məhv edildi və ya sürgün edildilər.

Qardaş Türkiyədə XIX əsrin sonu və XX əsrin I yarısında ədəbi hərəkat görkəmli ədiblərin böyük bir nəslini yetişdirdi: Namik Kamal (1840-1888), Əbdülhəq Hamid (1852-1937), Tofik Fikrət (1867-1915), Ziya Göyalp (1876-1924), Xalidə xanım Adivar (1884-1964), Mehmet Fuad Köprüllü (1890-1966), Rəşad Nuri Güntəkin (1889-1956), Nazim Hikmət (1902-1963) və digərləri.

Rəşad Nuri Güntəkin 19 romanın, çoxsaylı dram əsərlərinin və hekayələrin müəllifidir. «Çalı quşu», «Atəş gecəsi», «Damğa», «Dodaqdan qəlbə», «Yarpaq tökümü», «Qızılcıq budaqları» romanları bir çox dillərə tərcümə edilmişdir.

Türkiyədə və Azərbaycanda bir sıra mədəniyyət xadimləri müəyyən dövrlərdə, tələbatdan asılı olaraq, diplomatik fəaliyyətdə olmuş və mədəniyyət sahələri üzrə nazirliklərdə işləmişlər: Tofik Fikrət, Fuad Köprüllü, Rza Tofiq, Əbdülhəq Hamid belə xadimlərdən olmuşdur.

Bu cür fəaliyyət Azərbaycan mütəfəkkirlərindən Yusif Vəzir Çəmənzəminliyə (1887-1943) də xas olmuşdur.

Yuxarıda sadalanan şair-yazıçı və mədəniyyət xadimlərinin əksəriyyətinin əsərləri XX əsrin I yarısında qarşılıqlı olaraq Türkiyədə və Azərbaycanda nəşr olunmuşdur. II dünya müharibəsindən sonrakı dövrdə isə belə nəşrlər azalmışdır.

Sovetlər dövlətinin rəhbəri İ.V.Stalinin nəzəri sahədə buraxdığı səhvlərdən biri də bu oldu ki, o, Azərbaycanı (Bakı istisna olmaq şərtilə) geridə qalmış feodal münasibətləri ölkəsi



adlandırmışdı. Stalin Kommunist Partiyasının XII qurultayında (1923-cü il) SSRİ-nin bütün türkdilli xalqlarını belə geridə qalmış xalqlar sırasına daxil etmişdi və burada da **əsas məqsəd** həmin xalqların inkişafında **sosializmin xidmətlərini şişirtməkdən ibarət idi.**

Əslində isə *neft sənayesinin inkişafı* ilə əlaqədar olaraq Bakıya Avropa kapitalının axınından asılı olmayaraq, bütün Azərbaycan II Dünya müharibəsinə qədərki dövrdə öz milli kökləri üzərində inkişaf edirdi: Gəncə, Şəki və digər şəhərlərdə, onların ətraflarında ərazilərdə milli mədəniyyət (ilk növbədə məktəb təhsilinin genişlənməsi əsasında) inkişaf edirdi.

1923-1932-ci illərdə Sovet Azərbaycanına rəhbərlik etmiş birinci şəxslər digər millətlərdən olmuşdur və bu faktın özü də Azərbaycan-Türkiyə əlaqələrinə öz mənfi təsirini göstərmişdir.

1933-1953-cü illərdə Azərbaycana Mir Cəfər Bağırov (1896-1953) rəhbərlik etmişdir və təbiidir ki, göstərilən 20 illik dövrdə Azərbaycanın Türkiyə ilə əlaqələrinə onun da təsiri olmuşdur. Əlbəttə, bu təsir rəsmi sovet siyasi xətti çərçivəsindən kənara çıxa bilməzdi.

Məlumdur ki, M.C.Bağırovun 1950-ci ildə Moskvada nəşr etdirdiyi «Müridizm və Şamil hərəkatının xarakteri məsələsinə dair» kitabçasında akademik Heydər Hüseynovun «Azərbaycanda XX əsrdə ictimai və fəlsəfi fikir tarixindən» adlı kitabı ədalətsiz mövqedən kəskin tənqid edilmişdi. Digər tərəfdən daşnak A.Mikoyanın təsirilə 1942-ci ilin yanvarında hazırlanmış azərbaycanlıların Qazaxstana sürgün edilməsi planına Stalin səviyyəsində müqavimət göstərmək və bu planın ləğvi M.C.Bağırovun böyük xidmətidir.

Müxtəlif siyasi sistemlərdə yaşasalar da Azərbaycan və Türkiyə xalqlarının həyatlarında mədəni inqilaba dair dəyişikliklər təxminən eyni vaxta təsadüf etmişdir. Bu inqilabın nailiyyətlərini müqayisəli şəkildə izləmək onların bu sahədə uğurlarının və dostluq münasibətlərinin səbəblərini izah etməyə imkan verir:

| № | Mədəni inqilabın qələbəsini təmin edən əsas göstəricilər | Tədbirlərin icrası illəri | |
|---|---|---|---|
| | | Azərbaycanda[1] | Turkiyədə[2] |
| 1 | 2 | 3 | 4 |
| 1. | Ərəb əlifbasından latın əlifbasına keçid. | 1927-ci il | 1928-ci il. |
| 2. | Ümumi icbari ibtidai təhsilə keçid. | 1920-ci illərdən başlayaraq | 1924-cü ildən etibarən |
| 3. | İlk milli dram teatrları | 1873 - Bakıda | XIX əsrin 50-ci illərində Naum Əfəndi tərəfindən İstanbulun Qalatasaray məhəlləsində Naum teatrosu, 1873-cü ildə «Vətən, yaxud silistrə» pyesi tamaşaya qoyulmuşdur (müəllifi Namik Kamal). |
| 4. | İlk ali məktəb | 1919 Bakı Dövlət Universiteti | 1926 Pedaqoji İnstitutu-Ankarada |
| 5. | İlk konservatoriya | 1921 - Bakıda | 1924 Ankara, 1936 - İstanbul |
| 6. | İlk milli opera teatrı | 1908 – Bakıda | «Kiçik opera teatrı», 1923. |
| 7. | İlk milli opera | 1908 – «Leyli və Məcnun» (Ü.Hacıbəyov) | 1933–«Sel»operası (bəstəkar Ədnan Sayqun) 1934 – «Firudin» operası |

[1] Sovet Azərbaycanı, B., 1958; Azərbaycan Sovet Ensiklopediyası, I cild (1976).

[2] Tofiq Paşaoğlu. Atatürk və Türkiyədə mədəni inqilab (1920-30-cu illər), B., 1993. Azərbaycan Sovet Ensiklopediyası, IX cild (1986).



| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | | 1909 – «Şeyx Sənan» (Ü.Hacıbəyov) | (Ə. Sayqun) |
| 8. | İlk musiqi məktəbi | 1921 - Bakıda | 1926 – Ankara, 1931 - İstanbul |
| 9. | İlk kinofilm istehsalı | «Neft və milyonlar səltənəti» (1916), «Arşın mal alan» (1917), Azərbaycan kinostudiyası - 28.04.1923. | İlk sənədli film –1914-cü ildə. «Casus» adlı qısametrajlı film – 1917, Kamal-film studiyası – 1922. |
| 10. | Milli Radio verilişinə başlanması | 20-ci illərin sonu | 29/X.27-ci ildə Türkiyənin Respublika elan edilməsinin 4-cü ildönümü günündə |
| 11. | Milli mətbuatın başlanması | İlk qəzet «Əkinçi» - 1875-ci ildə, «Kommunist» - 1919, «Yeni yol» - 1925. | İlk qəzet «Təqvimi vekai» –1832, «Tərcümani Əhval» -1860, «Yeni gün» - 1922, «Hakimiyyeti milliyye» - 1922, «Cümhuriyyet» - 1924. |
| 12 | İlk kitabın nəşri | «Leyli və Məcnun» -1820 Təbrizdə | İlk çap kitabı (lüğət) «Yan qolu» - 1729. |
| 13. | Televiziya verilişlərinin başlanması | 1956-cı ildən | 1968-ci ildən |

«Türk milletinin kültürel degerleri» (Ankara, 1973) kitabında yazılmışdır: «Cumhuriyyet devrində yeni bir nesl doğulmuşdur..., fakat bu nesil, binlerce yillik Türk kulturunun içinden gecmek və eski eserlerin terbiyesini almak suretiyle olğunlaşa bilmür» (səh.59-60).

Türkiyədə 1928-ci ildə latın qrafikasına keçid ilə əlaqədar «Osmanlı dili» «türk dili» üslubu ilə əvəz edildi.

Azərbaycanda latın qrafikasına keçidlə (1927-ci ilin sonu) əlaqədar olaraq məktəb şəbəkəsinin genişlənməsinə imkanlar yaradıldı və həmin məktəblərin yeni dərsliklər ilə təmin edilməsində Türkiyədən gətirilmiş dərs vəsaitlərindən də istifadə edilməyə başlandı.

Bu sətrlərin müəllifi 1932-ci ildə orta məktəbin beşinci sinfində oxuyarkən, bəzi fənnləri Türkiyədən gətirilmiş dərsliklər əsasında tədris etmişdir. Məsələn, hesab fənnində «kəsir» üzrə belə düstur var idi: «Naməlum məqsum əleyh bərabərdir məqsum təqsim xarici qismət». Həmin dövrdə Arşımed qanunu (Arximed deyilmirdi) belə səslənirdi: «Suya düşən bir cisim özü boyda suyun ağırlığı qədər öz ağırlığından itirir».

1935-40-cı illərdə Azərbaycanda ümumi icbari ibtidai təhsilə keçid həyata keçirildi. Yaşlı əhalinin savadsızlığının ləğv edilməsinə də əsasən nail olundu. Həmin dövrdə Türkiyədə məktəb yaşlı uşaqların 29%-i təhsilə cəlb edilmişdi. Yaşlı əhali içərisində isə savadlılar kişilər üzrə - 63,5%, qadınlar arasında - 46,3% olmuşdur.[1]

Respublika yaradılması ərəfəsində Türkiyədə mədrəsələr və digər dini məktəblər bütün məktəblərin yarıdan çoxunu təşkil edirdi və bu da onun mədəni inkişafına mənfi təsir edirdi. 1924-cü ilin martında Dini İşlər və Vəqflər nazirliyinin ləğv edilməsi bu sahədə böyük dönüş oldu.

[1] А.Ф.Миллер. Краткая история Турции. М., 1948, с.195.



XX əsrin 20-30-cu illərində Türkiyə məktəblərində ideya tərbiyəsinin əsasını Kamalçılıq inqilabı ideyaları təşkil edirdi və bu da təbii idi.

Türk millətçiliyi rəsmi dövlət ideologiyası olmaq etibarilə türklərin milli şüurunun formalaşmasında müsbət rol oynamışdır.

Mustafa Kamal Atatürk dalbadal dörd dəfə Türkiyə Respublikasının prezidenti seçilmişdir (1923-1927; 1927-1931; 1931-1935; 1935-38-ci illər). Atatürk ilk dəfə prezident seçilərkən «Xalq partiyası»nın (az sonra «Xalq Respublikaçılar partiyası» adlandırıldı) sədri idi. Mustafa Kamal paşanın elan etdiyi 9 prinsip həmin partiyanın proqramı kimi qəbul olunmuşdu:

1) Hakimiyyətin türk millətinə aid olması;
2) Sultanlığın ləğv edilməsi;
3) İnqilabın nailiyyətlərinin və ölkənin təhlükəsizliyinin qorunması;
4) Xalqa xidmət edən məhkəmə quruluşu;
5) Vergi (aşar) sisteminin xalqın sosial mənafeyinə uyğun olaraq qurulması;
6) Hərbi xidmətin müddətinin azaldılması və hərbçilərin maddi vəziyyətinin yaxşılaşdırılması;
7) Ehtiyatda olan zabitlərin, müharibə əlillərinin və təqaüdçülərin həyat səviyyəsinin qaldırılması;
8) Dövlət məmurlarının fəaliyyətini və maddi vəziyyətini yaxşılaşdırmaq;
9) Müharibə nəticəsində dağıdılmış ölkənin bərpa edilməsi.

Mustafa Kamal paşa cəmiyyətin siniflərə bölünməsini onun parçalanması (zəifləməsi) kimi şərh edirdi. Bu ideya dünyanın siyasətçilərinin əksəriyyəti tərəfindən də müdafiə edilirdi. Türkiyə tarixçisi Kazım Nami «Cümhuriyyət terbiyesi» adlı kitabında (Ankara, 1933) türk millətinin «harmoniyası və vəhdəti» ideyasını müdafiə edərək yazırdı ki, Türkiyə dövləti sinifsiz cəmiyyətdir (s.29).

Azərbaycan və Türkiyə üçün dünyəvi inkişaf yoluna XX əsrin əvvəllərində qədəm qoymaq mədəni inkişaf istiqamətlərində də oxşarlıq yaradır. Lakin burada köklü fərq ondan ibarətdir ki, Azərbaycan xalqının inkişafı XX əsrin 70 ili ərzində sosialist məzmununun təsiri altında olmuşdur.

Anadolu türklərinin milli musiqisində XX əsrin əvvəlində əsas istiqamət xalq musiqisi istiqaməti idisə, əsrin 20-ci illərinin ortalarından başlayaraq Mustafa Kamal paşanın apardığı islahatlar dövründə yeni bir inkişaf dövrü başlandı.

Mədəniyyətə aid məsələlər üzrə Azərbaycanda aparılmış islahatlar respublikanın SSRİ tərkibində olduğuna görə sistemin tələbinə əsasən açıq müqavimətsiz həyata keçirilirdisə, Türkiyədə bu islahatlar əlifba, maarif, geyim və məişət məsələlərində olduğu kimi, musiqi sahəsində də ciddi mübahisələr doğurmuşdu. Musiqinin inkişafı məsələsində Türkiyədə üç cür baxış mövcud idi: 1) türk musiqisini müasirləşdirmək tərəfdarları (Adnan Sayqun, Niyazi Oynaq, Çaqatay Əli Rüfət və digərləri), 2) türk milli musiqisini olduğu kimi saxlamaq tərəfdarları («mühafizəkarlar»), 3) şərq musiqisini inkar edən və yalnız Avropa musiqisini tanıyan qərbçi gənc musiqiçilər.

Azəri türklərinin musiqi mədəniyyətində isə milli (xalq) musiqi istiqaməti XX əsrin 20-30-cu illərində əsasən aşıq (saz) musiqisi, tarla ifa olunan xanəndəlik istiqaməti və zurnaçılar dəstələrinin ifaçılığından ibarət olmuşdur. Müasir Azərbaycanın musiqi mədəniyyətinin yaradılması böyük bəstəkar Üzeyir bəy Hacıbəyovun adı ilə bağlıdır və onun yaratdığı böyük bir məktəb və onun yetişdirmələri tərəfindən Azərbaycanın bugünkü musiqi mədəniyyətini dünya miqyasında layiqincə təmsil edirlər.

Türkiyədə müasir klassik əsərlərin yaradılmasına xalq musiqi folklorundan və melodiyalarından istifadə etməklə başlanmışdır; bu yeni əsərlər əsasən klassik «türkülər» əsasında yaranmışdır. Bəstəkar Adnan Sayqun 1933-cü ildə ilk milli opera olan «Sel» operasını yaratdı və ilk tamaşaya Mustafa Kamal



paşa da baxdı. İki il sonra Sayqun «Özsoy» operasını yazdı. Bəstəkar Camal Rəşid «Zerbek» operasını, eləcə də «Türk musiqi şarkıları» və «Anadolu xalq türküləri və rəqsləri» adlı mahnılar məcmuələrini yazdı.

Görkəmli müğənni Səbahəddin Pinar 60-dan çox mahnı bəstələyərək, ifa etmişdi. Türkiyədə Milli Opera əsərlərinin yaradılmasında musiqi xadimləri Cövdət Məmduh, Zəki bəy, Bədrəddin Tuncel xüsusi rol oynamışlar.

Təəssüflə qeyd etmək lazımdır ki, Sovetlər İttifaqı hakim dairələrinin qonşu Türkiyə ilə siyasi və mədəni əlaqələrə çox soyuq münasibətinin nəticəsi olaraq Türkiyə-Azərbaycan mədəni əlaqələri XX əsrin 70 ili ərzində dondurulmuş vəziyyətdə olmuşdur. Türkiyə gənclərinin müasir musiqinin yeni sahələri üzrə təhsili də əsasən Qərbi Avropa ölkələrində həyata keçirilmişdir.

Türkiyədə professional teatr sənətinin inkişafında Möhsün Ərtoğrulun xidmətləri xüsusi olaraq qeyd olunmalıdır. O, bir neçə dəfə SSRİ-də, o cümlədən Bakıda olmuş və yaradıcılıq əlaqələri yaratmışdır. Onun rəhbərlik etdiyi «Darülbədayei-Osmani» teatrında Qərbi Avropa dramaturgiyasının əsərləri ilə yanaşı türk müəlliflərinin də xalqın milli-azadlıq mübarizəsinə həsr olunmuş dram əsərləri («Vətən», «Mavi şimşək», «Qəhrəman», «Atilla», «On ilin qəhrəmanlıq dastanı» və s.) tamaşaya qoyulmuşdur.

Latın əlifbası SSRİ-də 1939-cu ildə Kiril (rus) əlifbası ilə dəyişdirildisə də, hazırkı müstəqillik dövründə bəzi türkdilli respublikalarda yenidən latın əlifbasına qayıtmağın nisbətən asan həyata keçirilməsi sübut edir ki, Bakıda 1926-cı ildə çağrılmış Qurultayın qəbul etdiyi bu qərar (latın əlifbasına keçid) düzgün olmuşdur.

1932-ci ildə Türkiyədə «Türk dili Qurumu» adlı mərkəz fəaliyyətə başladı, Azərbaycan alimlərindən Həmid Araslı həmin Qurumun fəxri üzvü, Məmmədağa Şirəliyev və Abbas Zamanov isə müxbir üzvü seçilmişlər. Ankarada yaradılmış «Türk

dili və ədəbiyyatı Araşdırmalar İnstitutu» müasir türk dilinin öyrənilməsi mərkəzlərindən biridir və 1951-ci ildən başlayaraq «Türk dili» adlı məcmuə nəşr edir.

M.Atatürkün vəfatından (1938) sonra Türkiyə ilə SSRİ arasındakı münasibətlərdə soyuqluq getdikcə artmağa başladı. 1941-ci ilin 18 iyununda Almaniya Türkiyə ilə «Bir-birinə hücum etməmək və dostluq haqqında» müqavilə imzaladılar.

Almaniya faşizmi ordu hissələrinin Moskva altında, Stalinqrad ətrafında və Qafqaz dağları ətəklərində darmadağın edilməsi Türkiyə hakim dairələrini (ölkə prezidenti İsmət İnenyü idi) müttəfiqi Almaniyaya kömək məqsədilə SSRİ-yə qarşı hərbi əməliyyatlara başlamaq mülahizələrindən yayındırdı. Bununla belə II dünya müharibəsi illərində Türkiyə Almaniyanın «qeyri-rəsmi» müttəfiqi kimi SSRİ sərhədlərində xeyli qoşun hissələri saxlayırdı. Türkiyəyə mənsub Bosfor və Dardanel boğazlarından isə Qara dənizə xeyli alman-italyan hərbi gəmiləri keçərək Sovet-Almaniya cəbhələrinə silah daşıyırdı.

II dünya müharibəsindən sonrakı ilk illərdən başlayaraq Azərbaycan mədəniyyətinin inkişafına Sovet ideologiyası sisteminin təsiri gücləndi. SSRİ-də mədəniyyətin «formaca milli, məzmunca sosialist» düstur əsasında inkişafı haqqında Sovet ideologiyasının nəzəri müddəası səhvdən azad deyildi. Belə ki, bu ideyaya görə *milli mədəniyyətlərin* məzmununda millilik olmamalıdır. Halbuki, türkdilli xalqların etiqad etdikləri islam dini müsəlman mədəniyyətinin məzmununa güclü təsir etmişdir və edir. Müsəlman dininin icrası (gizli də olsa) SSRİ-də qadağan edilsə də, bu dinin təsiri türkdilli Azərbaycan xalqının mədəniyyətində qalırdı. Milli məzmun eləcə də xalqın şifahi ədəbiyyatında (folklor) da iştirak edir.

Azərbaycan mədəniyyətinin inkişafı XX əsrin əvvəllərindən başlayaraq Həsən bəy Zərdabi (1837-1907), Nəcəf bəy Vəzirov(1854-1926), Əbdülrəhim bəy Haqverdiyev (1870-1933), Cəlil Məmmədquluzadə (1869-1932), Ömər Faiq Nemanzadə (1872-1941), Süleyman Sani Axundov (1875-1939), Mirzə Ələkbər Sabir (1962-1911), Nəriman Nərimanov (1871-1925), Abbas Səhhət (1874-1918), Abdulla Şaiq (1881-1959), Hüseyn Cavid (1882-1941) kimi nəhəng ədəbi simaların çiyinlərində həyata keçirilmişdir. Bu ediblərin fəaliyyəti Sovet dövründən əvvəl başlansa da, onlar Sovet dövründə də Azərbaycan mədəniyyətinin inkişafına layiqincə xidmət etmişlər.

Ədəbi nəslin sonrakı dövr nümayəndələrinin fəaliyyətinin başlanması əsasən Sovet üsul-idarəsi dövrünün ilk illərinə təsadüf edir: Cəfər Cabbarlı, Səməd Vurğun, Süleyman Rüstəm, Mirzə İbrahimov, Rəsul Rza, İlyas Əfəndiyev, Suleyman Rəhimov, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Sabit Rəhman, Əli Vəliyev, Əbülhəsən, İmran Qasımov, Qılman İlkin (Musayev) və digərləri bu ikinci dövr nəslinin nümayəndələridir.

Azərbaycan ədəbiyyatında «türk» sözünün işlədilməsinə qadağa qoyulduğu dövrdə böyük şair Səməd Vurğun 30-cu illərin sonunda yazdığı «Rəhbərə salam» şerində:

«Bakının sayrışan ulduzlarından
Çadrasız, boyasız **türk** qızlarından»

deyə rəhbərə salam yetirdiyini yazmışdı.

Bütün qadağalara baxmayaraq Sovet üsul-idarəsi illərində də vətənpərvər xalqımızın ürəyində türklük hissi yaşamışdır.

XX əsrin ortalarına doğru Azərbaycan ədəbiyyatına yeni bir nəsl gəldi: Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Tofiq Bayram, İslam Səfərli, Anar, Elçin Əfəndiyev, Sabir Rüstəmxanlı, İsmayıl Şıxlı, Xəlil Rza, Məmməd Araz, Şıxəli Qurbanov, Maqsud və Rüstəm İbrahimbəyov qardaşları bu nəslin görkəmli nümayəndələridir.

II Dünya müharibəsi illərində (1941-45-ci illər) Azərbaycan xalqının Almaniya faşizminə qarşı müharibədə geniş iştirakı mədəni quruculuq işlərinə yeni bir istiqamət, yəni vətənpərvərlik tərbiyəsi istiqamətini gücləndirdi. Buna görə də milli kökdən ayrılmaq istiqamətindəki tədbirlər sanki bir qədər

səngidi, lakin bu dövrdə milli vətənpərvərlik əvəzinə daha çox beynəlmiləl, ümum-sovet mədəniyyətinin təbliği ön plana çəkildi.

II dünya müharibəsindən sonrakı dövrdə Azərbaycanda mədəniyyət sahəsində əsas siyasət, ölkədaxili ideoloji və mədəni tədbirləri müharibədə əldə edilmiş ümumi qələbə səviyyəsinə qaldıraraq, ümumi sovet vətənpərvərliyini geniş təbliğ etmək vəzifəsini təmin etməkdən ibarət idi.

Bu tələbə uyğun olaraq Azərbaycanda da mədəniyyətə aid siyasətdə **milli mədəniyyətin köklərinə mənfi münasibət yenidən baş qaldırdı**: Azərbaycanda «Kitabi Dədə-Qorqud» dastanı yadlaşdırıldı, görkəmli filosof Heydər Hüseynovun «Azərbaycanda XIX əsrdə ictimai və fəlsəfi fikir tarixindən» adlı kitabı tənqid edildi, Azərbaycanın Rusiyaya zorla birləşdirilməsi fikri bu birləşmənin «mütərəqqi olması» müddəası ilə əvəz edildi. İş o yerə çatdı ki, Rusiya çarizminin işğalçı xarici siyasət aparması haqqında marksizmin banilərindən olan F.Engelsin yazıları İ.V.Stalin tərəfindən tənqid edildi. XX əsrin 40-cı illərində SSRİ-də türk xalqlarının yazılı abidələrinə qısqanclıq güclənməyə başlandı: «Kitabi Dədə-Qorqud» dastanlarına Azərbaycanda və Orta Asiya respublikalarında qərəzli münasibət bu dastanların guya «yad» və «yabançı» olmaları ilə əsaslandırıldı. Halbuki, «Kitabi Dədə-Qorqud» dastanı həqiqi xalq dastanıdır və XX əsrin sonunda keçirilmiş geniş tədbirlər bunu tamamilə sübut etdi.

Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi görkəmli dövlət xadimi və ictimai xadim **Nəriman Nərimanovun fəaliyyətinin işıqlandırılmasına qadağalar yenidən canlandı**. Azərbaycan partiya təşkilatı rəhbərliyinin XX əsrin 50-ci illərində milli məsələdə guya səhvlər buraxdığı haqqında iddialar irəli sürüldü və respublika rəhbərliyi Moskva tərəfindən dəyişdirildi.

1960-cı ilin mayında Türkiyədə baş vermiş hərbi çevrilişdən sonra (ölkə prezidenti C.Gürsel idi) Sovet-Türkiyə əlaqələrində bir qədər yumşalma baş verdi: 1963-cü ildə Türkiyə Böyük Millət Məclisinin 15 nəfərdən ibarət nümayəndə heyəti SSRİ-yə rəsmi görüşə gəldi və həmin nümayəndə heyəti Azərbaycanda da olmuşdu.



Stalinin ölümündən sonrakı dövrdə, 1956-cı ildən başlayaraq, əsassız məhv edilmiş mədəniyyət xadimlərinə bəraət verildi və onların yazdığı əsərlər üzərində qadağalar götürüldü.

Hüseyn Cavidin «Şeyx Sənan» əsəri 1956-cı ildə yenidən tamaşaya qoyuldu.

Süni yaradılmış qadağalara baxmayaraq, Azərbaycan və Türkiyə xalqları arasında mehribanlıq həmişə rəsmi və qeyri-rəsmi yollarla davam etmişdir. Bu fikri Nazim Hikmətlə Rəsul Rza arasında mövcud olmuş yaradıcılıq əməkdaşlığı və şəxsi dostluq daha aydın nümayiş etdirir.

Rəsul Rzanın II dünya müharibəsi ərəfəsində yazdığı «Almaniya» poeması (1934) və «Madrid» şeri (1937), SSRİ xalqlarının Almaniya faşizminə qarşı böyük itgilərlə apardığı Vətən müharibəsinin qələbəsinə həsr olunmuş «1418» poeması, müharibə illərində hərbi müxbirlik fəaliyyəti, Azərbaycan Ensiklopediyasının ilk baş redaktoru vəzifəsində gərgin doqquz illik (1966-1975) fəaliyyəti, Asiya və Afrika ölkələri ilə Respublika həmrəylik Komitəsi sədri (1960-1984) vəzifəsində çoxsahəli fəaliyyəti onu dünya miqyaslı ictimai xadim səviyyəsinə qaldırdı.

Rəsul Rza Nəriman Nərimanovun fəaliyyətinə həsr etdiyi «Xalq hakimi» (1961) poeması, çoxsaylı digər poema və şerləri ilə saf insanı əxlaq keyfiyyətləri təbliğ etmiş, əyri yollarla mal-dövlət toplayan rüşvətxorlara «evi muzey, qəlbi quzey» damğası vurmuşdur.

Nazim Hikmətlə Rəsul Rzanın Bakıda və Moskvada görüşləri zamanı rəsmi Moskva Nazim Hikmətə həmişə bir tərcüməçi qoşardı. Halbuki, buna heç bir ehtiyacı yox idi. Çünki Azərbaycan və Türkiyə türklərinin dilləri biri-birinə çox yaxındır və anlaşıqlıdırlar. Nazim Hikmətə tərcüməçi sifətində qo-

şulmuş rus isə Sovet dövləti təhlükəsizlik orqanının nümayəndəsi idi.

Söyləyirlər ki, Nazim Hikmət və Rəsul Rza bir gün Bakının dənizkənarı parkında gəzərkən, Nazim Hikmət Rəsul Rzaya «Əfəndim, könlüm paxlava istər» deyə müraciət edir. Tərcüməçi öz vəzifəsinə uyğun olaraq bu sözləri Azərbaycan dilinə tərcümə etməli idi. Lakin «paxlava» və «könül» sözlərini bilmirdi. Vəziyyətdən çıxmaq üçün tərcüməçi Nazim Hikmətə müraciətən, «Əfəndim, paxlava nəmənə?» deyə soruşur. Böyük şair ona saymazyana «ruslar paxlava qanmaz» deyə cavab verir.

1966-75-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru vəzifəsində işləmiş Xalq şairi(1960) Rəsul Rza 1968-ci ilin 2 aprelində Azərbaycan KP MK katibi Cəfər Cəfərova yazdığı məktubunda tələb etmişdi ki, 1957-ci ilin 11 sentyabrında SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Voroşilovqrad, Çkalov və Stalinabad şəhərlərinə onların köhnə adları Luqansk, Orenburq və Düşənbə adları qaytarılmışdır. Azərbaycanda da Kirovabadın qədim adı Gəncə özünə qaytarılmalıdır.

Maraqlıdır ki, həmin dövrdə Rəsul Rza Azərbaycanın Dövlət Himni üçün yeni bir mətn yazmışdı və bu mətnin birinci bəndi belə səslənirdi:

Yurdumuzun zəfər dolu tarixi vardır,
Hər qalamız igidlikdən bir yadigardır.
Açılmaqçün azadlığın işıqlı yolu
Bu torpaqda qılınc vurub Babək, Koroğlu...

Sovetlər İttifaqı şəraitində Azərbaycan-Türkiyə mədəni əlaqələri həmişə Moskvanın nəzarəti altında olmuşdur. Həmin dövrdə milli mədəniyyətin inkişafına belə qayğı Rəsul Rza ilə yanaşı Üzeyir Hacıbəyov, Səməd Vurğun, Mirzə İbrahimov və onlarla digər mədəniyyət xadimlərimizin fəaliyyətinə xas olmuşdur.



XX əsrin 70-ci illərinin ortalarından başlayaraq Türkiyəyə ilk turist dəstələri göndərilməyə başlandı. Bu sətrlərin müəllifi, 24 nəfər azərbaycanlı ilə birlikdə 1975-ci ilin sentyabrında Türkiyədə turizm xətti ilə təşkil edilmiş ilk səfərdə olmuşdur. Belə milli kollektivdən ibarət Türkiyəyə səfər ilk dəfə idi ki, təşkil edilmişdi və sanki gələcəkdə belə əlaqələrin genişlənəcəyindən xəbər verirdi.

1972-ci ildə «Sovetlər İttifaqı ilə Türkiyə arasında mehriban qonşuluq əlaqələri yaradılması haqqında bəyanat» imzalandı. SSRİ-nin köməyi ilə İskəndərun şəhərində güclü metallurgiya zavodunun inşasına başlandı. Əliağada (İzmir şəhəri yaxınlığında) neftayırma zavodu, Seydişəhərdə alüminium kompleksi inşa edilməsi əsasında Azərbaycandan da Türkiyəyə mütəxəssislər göndərilməsi üçün yollar açıldı.Belə bir şəraitdə Türkiyədə Nazim Hikmət, Əziz Nesin və digər tərəqqipərvər şair və yazıçıların əsərlərinin azad nəşrinə icazə verildi. Məşhur xanəndə Emel Sayin Azərbaycana gələrək Bakıda geniş proqramlarda çıxışlar etdi.

XX əsrin 70-ci illərindən başlayaraq həmin əsrin əvvəllərində Türkiyənin Ankara, İstanbul və digər şəhərlərində fəaliyyət göstərmiş «Azərbaycan mədəniyyəti cəmiyyətləri»nə oxşar cəmiyyətlərin bərpasına başlandı.

Azərbaycan-Türkiyə mədəni əlaqələrinin genişlənməsində Türkiyədə yaşamış mühacir azəri türklərinin, xüsusilə mədəniyyət xadimlərinin fəaliyyəti müstəsna rol oynamışdır və bu haqda aşağıda ayrıca deyiləcəkdir.

## §1. MƏDƏNİYYƏTİN İNCƏSƏNƏT SAHƏSİNDƏ AZƏRBAYCAN- TÜRKİYƏ XALQLARININ ƏLAQƏLƏRİ

*«Bir millətin yeniləşməsində ölçü, onun musiqidə dəyişiklik edə bilməsindədir....».*

**M.ATATÜRK**

Sovet siyasi sisteminin 70 ili ərzində Azərbaycan-Türkiyə mədəni əlaqələrinin sanki yasak edilməsi şəraitində, əvvəllər radio və kino, sonralar isə həm də televiziya vasitəsilə eşidilən və görünən mədəni nailiyyətlər əsas kütləvi mədəni əlaqə vasitəsi olmuşdur.

XX əsrin əvvəllərinə doğru mədəniyyətin incəsənət qolları xalq yaradıcılığı əsasında Türkiyədə və Azərbaycanda kifayət qədər inkişaf etmişdi. Bununla belə mədəniyyətin bu sahəsi üzrə təhsil müəssisələri yox dərəcəsində idi. Azərbaycanda bu sahədə böyük nailiyyətlər dahi bəstəkar Üzeyir Hacıbəyovun adı ilə bağlıdır.

Azərbaycanda milli bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəyov (1885-1948) Zaqafqaziya (Qori) müəllimlər seminariyasını bitirdikdən (1899-1904) sonra 1907-ci ildə «Leyli və Məcnun» operasını yazmaqla Şərqdə ilk opera müəllifi olaraq Azərbaycanda musiqi sənətinin elmi inkişafına böyük təkan verdi. O, Azərbaycanın ilk musiqi məktəbinin 1921-1925-ci illərdə direktoru, Dövlət Konservatoriyasının 1939-1948-ci illərdə ilk rektoru olmuşdur.

Azərbaycanda ilk incəsənət institutu 1945-ci ildə yaradılmışdır (1968-ci ilə qədər teatr institutu adlanırdı). 1923-45-ci illərdə isə Bakı teatr texnikumu fəaliyyət göstərmişdir.

1976-cı ildə institutda 1200 tələbə təhsil alırdı və 22 nəfər professor, dosent işləyirdi: professor-müəllim heyəti içərisində SSRİ Xalq artisti Adil İskəndərov, SSRİ Xalq rəssamı



Mikayıl Abdullayev, Azərbaycan SSR Xalq artistləri Rza Təhmasib, Tofiq Kazımov və Həsənağa Salayev kimi görkəmli şəxsiyyətlər fəaliyyət göstərirdilər.

Azərbaycanda Dövlət muzeyinin incəsənət şöbəsi 1920-ci ildə təşkil edilmişdir və 1936-cı ildə onun əsasında Dövlət İncəsənət muzeyi yaradıldı. Muzeydə 9000-ə yaxın incəsənət əsəri toplanmışdır (1976). Burada milli təsviri sənətin görkəmli nümayəndələri olan M.Nəvvab, B.Kəngərli, Ə.Əzimzadə, M.Abdullayev, S.Bəhlulzadə, M.Rəhmanzadə, T.Salahov, V.Səmədova, F.Abdurrahmanov, Ö.Eldarov və digərlərinin əsərləri saxlanılır. Muzeyin Şərq incəsənəti şöbəsində qardaş Türkiyə və digər Şərq ölkələri miniatür və dekorativ-tətbiqi sənət nümunələri toplanmışdır.

Türkiyə də, qədim Azərbaycan kimi, incəsənət üzrə tarixi abidələrlə zəngindir. Side şəhərində antik dövrlərdə teatr olmuşdur. XIX əsrdə isə İstanbulda məşhur Dolmabağça sarayı yüksəlmişdir.

XX əsrin əvvəlində Türkiyədə « Müstəqil Rəssamlar və Heykəltaraşlar birliyi» (1929) yaradıldı.

Bu əsrdə Türkiyədə Aydın Adnan, Devrim Erbil, Eren Eyyuboğlu, Erkin İnan, Zekan Ormançı, Zəki Faiq, İbrahim Balaban, Kayxan Kesğinok, Neşet Kunal, Nuri İyem, Orxan Peker, Turan Ərol, Turqut Zaim, Cihad Aral kimi görkəmli fırça ustaları yetişdilər.

Türkiyə xalqının musiqi mədəniyyəti də qədim tarixə malikdir: musiqi folklorunda xalq mahnıları – türkülər zəngin məzmun daşıyır. Türk xalqının incəsənətində aşıq yaradıcılığı da (Azərbaycanda olduğu kimi) geniş yer tutur.

Türkiyədə musiqi təhsili, ölkə Respublika elan edildikdən sonra geniş inkişafa başladı: İstanbulda konservatoriya (1923), Ankarada musiqi məktəbi (1924) və konservatoriya (1936) yaradıldı. Opera teatrları Ankarada (1949) və İstanbulda (1960) təşkil edildi. Ə.Sayqun, C.Erkin, N.Akses, H.Alnar və digərləri böyük uğurlar qazandılar. Türkiyə musiqiçilərindən A.Erduran,

İ.Biret, S.Kan, M.Uğur, K.Aykal və digərləri Azərbaycanda qastrol səfərində oldular.

Azərbaycanın görkəmli musiqi ifaçılarından Rəşid Behbudov, Şövkət Ələkbərova, Sara Qədimova, Lütviyar İmanov, Zeynəb Xanlarova və digərləri Türkiyədə qastrol səfərində oldular.

Türkiyədə müasir opera musiqisinin inkişafında Azərbaycan bəstəkarı və dirijoru Niyazi Hacıbəyovun xidmətləri ayrıca qeyd edilməlidir. O, Ə.Sayqunun «Koroğlu» operasına və «Yunis Emrə» oratoriyasına İstanbul opera teatrında dirijorluq etmişdir. Eyni sözləri böyük bəstəkar Ü.Hacıbəyovun «Arşın mal alan» operettası və bəstəkar A.Məlikovun «Məhəbbət əfsanəsi», F.Əmirovun «Min bir gecə» baletləri haqqında da demək olar.

Dahi bəstəkar Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettasının bütün dünyada şöhrət qazanmasından istifadə edən xain ermənilər bu dəfə də öz alçaqlıqlarından əl çəkmədilər.

Amerikada yaşayan erməni musiqiçisi Mamulyan dahi Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettası əsasında film çəkərək, onu XX əsrin 40-cı illərində Amerikada öz adına təbliğ etməyə başladı. Bu oğruluq II dünya müharibəsi illərində aşkar edildi və Mir Cəfər Bağırovun, İ.V.Stalinə bu haqda xəbər verməsindən və xahişindən sonra, onun göstərişi ilə Bakıda qısa müddətdə «Arşın mal alan» filmi Rəşid Behbudovun ifaçılıq iştirakı ilə çəkildi və onun geniş təbliğinə başlanıldı.

Azərbaycan xalqının məşhur «Sarı gəlin» mahnısını erməni ifaçıları kobud şəkildə ifa edərək, erməniləşdirməkdən indi də çəkinmirlər.

Fransada yaşayan ermənilər 1994-cü ildə səsyazma studiyasında «Erməni qaynaqları...» adlı musiqi diski hazırlayaraq satışa buraxmışdılar. Həmin diskdə Azərbaycan muğamının məşhur nümunələri olan «Humayun», «Çahargah», «Bayatı şiraz», «Bayatı kürd», «Segah» muğamları və «Uzundərə» oyun havası erməni musiqisi nümunələri kimi təbliğ edilir.



Ermənilər 2002-ci ildə Parisdə açdıqları antikvar «Erməni xalçaları» adlı mağazaya 1988-1994-cü illərdə Qarabağ müharibəsi zamanı Azərbaycan muzeylərindən apardıqları və qarət etdikləri evlərdən daşıdıqları cürbəcür xalçalarımızı toplayaraq erməni xalçaları adı ilə satırlar: həm pul qazanır, həm də «özlərinin» mədəniyyətlərini təbliğ edirlər. Ermənilər bu xalçaların erməni xalçaları olduğu haqqında ədəbiyyat da çap edərək yayırlar.

Yaponiyanın paytaxtı Tokioda nəşr edilmiş «Musiqi alətlərinin kolleksiyası» adlı kitabda erməni müəllif kamançanı ermənilərə məxsus musiqi aləti kimi təqdim etmişdir. Halbuki, «Kaman» sözünün özü də türk sözüdür.

Professor Satur Ağayan «Erməni xalqının taleyində Rusiyanın rolu» adlı kitabında (İrəvan, 1978), XIX əsrin ortalarında çar Rusiyası ordusunda xidmət etmiş Azərbaycanın Qazax bölməsində doğulmuş Mənsur ağa Vəkilovu Martiros Vəkilov kimi qələmə verərək erməniləşdirmişdir (bax, kitabın 210-211-ci səhifələri).

Azərbaycan mətbəxinin gözəl nümunələri olan «dolma», şaşlıq (şişlik) və digər xörək növləri ermənilər tərəfindən həyasızcasına erməni xörəkləri kimi geniş təbliğ edilir.

Tərcüməçi - publisist İ.Peçenov 2002-ci ildə «Qarabağın səsi» adlı qəzetədə bizim üçün ibrət dərsi olmalı bir fikri belə şərh edir: «**Azərbaycan-Ermənistan konfliktində Azərbaycan xalqının günahı böyükdür. Siz ocağınızın başında düşmən bəsləmisiniz. Tarix boyu heç kimin xoş üz göstərmədiyi, hamının qapıdan qovduğu, heç kimin inanmadığı ermənilərə üz göstərmisiniz**».[1]

Ermənilərin özləri isə türklərə qarşı öz düşmənçiliklərini heç bir zaman gizlətməmişlər. 1918-1919-cu illərdə Karsda yerləşmiş rus ordusu zabiti Ovanes Apresyan etiraf etmişdir: «Biz ermənilər bacardığımız qədər türkləri qırdıq. Ancaq bu elə

---

[1] «Qarabağın səsi» qəzeti, 22 noyabr 2002.

bir sonsuz kin və intiqam zənciridir ki, get-gedə daha dərin şəkildə insanın varlığına hakim kəsilir».[1]

Həqiqətdə isə, türklər tərəfindən ermənilərə qarşı heç bir vaxt təcavüz əməliyyatı başlanmamışdır. Türklər həmişə müdafiə mövqeyində olmuşlar.[2]

Erməni qaniçənlərinin Azərbaycan-türk xalqına qarşı faşist hərəkətləri SSRİ-nin dağılması ərəfəsində ermənilərə də satılmış şovinist Mixayıl Qorbaçovun bilavasitə köməyi ilə başlandı. Yalnız 1988-89-cu illərdə Ermənistan ərazisində əhalisinin hamısı azərbaycanlı olan 171 kənddən və ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları 87 kənddən bütün azərbaycanlı türklər vəhşicəsinə qovuldular.

Azərbaycan Respublikası Milli Təhlükəsizlik nazirliyinin Dövlət Komissiyası ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi və Beynəlxalq Axtarış Qrupunun işbirliyi tərəfindən açıqlanmış məlumata görə 1988-1994-cü illəri əhatə edən «Qarabağ uğrunda müharibə» deyilən hərbi əməliyyatlar dövrü 4928 nəfər azərbaycanlı itgin düşmüşdür ki, bunlar da əsirlikdə olan şəxslər hesab edilirlər. Bunlardan hələlik məlum olan rəsmi xəbərə görə 410 nəfər əsir ermənilər tərəfindən öldürülmüşdür.

Azərbaycan türklərinin erməni vəhşiliyinə qarşı müqavimətsizliyi və *zəifliyi üçün tarixi bəraət axtarmaq* və tapmaq cəhdi əbəsdir. Ermənistanda yaşayan ermənilər Azərbaycan (Şimali Azərbaycan) xalqı kimi 70 il Sovet üsul-idarəsində yaşamışlar və öz qatı şovinist milli siyasətlərini həyata keçirdilər. 1930-cu ildən bəri Ermənistan ərazisində 15 mindən çox Azərbaycana aid coğrafi adlar dəyişdirilmişdir. Görünür, bütün bu vəhşiliklərin səbəbini erməni mentalitetində və məkrliyində axtarmaq lazımdır.

---

[1] Bax: «Xalq» qəzeti, 29 aprel, 1997.

[2] Bu halda daha geniş, bax: İsrafil İsmayılov. Azərbaycan vətənpərvərliyi XX əsrdə. B., 2003, s.101-118.



## VIII Fəsil. TÜRKİYƏDƏKİ AZƏRİ MÜHACİRLƏRİNİN MƏDƏNİ ƏLAQƏLƏRİN DAVAM ETDİRİLMƏSİNDƏ FƏALİYYƏTLƏRİ

XX əsrin əvvəllərindən başlayaraq, xüsusilə 1917-20-ci illərdə və sonrakı 30-cu illərin ikinci yarısında Azərbaycandan Türkiyəyə siyasi mühacirət etmiş ziyalılarımız və digər peşə sahibləri bu ölkədə xalqımızın mədəniyyətinin təbliğatçıları və təmsilçiləri oldular. Bu mühacirlərin sayı yüzminlərlə olmuşdur.[1]

Azərbaycan mühacirətinin görkəmli nümayəndələri olan Məhəmməd Əmin Rəsulzadənin, Əlibəy Hüseynzadənin, Mirzə Bala Məmmədzadənin, Hüseyn Baykaranın, Almaz İldırımın, Əhməd Cəfər oğlunun, Əhməd bəy Ağayevin, Əhməd Cavadın və digərlərinin Türkiyədə uzun illər yaşamaları Türkiyə xalqının qardaş Azərbaycan – türk xalqına qayğısının və sevgisinin gözəl təzahürüdür.

Sovet hakimiyyəti illərində yaranmış bütün süni maneələrə baxmayaraq, Azərbaycan və Türkiyə xalqları həmişə qəlbən bir-birinə çox yaxın olmuşlar.

Azərbaycanın məşhur şairlərindən Hüseyn Cavid, Məhəmməd Hadi, ictimai xadimlərindən Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə Türkiyə yazarları Tofiq Fikrət, Əbdülhəq Hamid və digər şairlər ilə geniş yaradıcılıq əlaqələrində olmuşlar.

Yuxarıda göstərilən mühacirətin iki ölkənin bir kökdən olan xalqlarının mədəni əlaqələrdə xidmətlərini müəyyən etmək üçün onların mədəniyyət sahəsində fəaliyyətlərinə ötəri nəzər salaq:

---

[1] Bu haqda daha geniş, bax: İsrafil İsmayılov. Dünya azərbaycanlıları XX əsrdə. B., 1997, s.210-214.

1) **MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ (1884-1955).**

Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu 1884-cü ilin 31 yanvarında Bakının Novxanı kəndində dünyaya göz açmışdır.

1908-1910-cu illərdə İranda (Cənubi Azərbaycanda) fəaliyyət göstərmiş və oradan Türkiyəyə gedərək 1911-13-cü illərdə bu ölkədə yaşamış və burada «Türk yurdu» jurnalının əsasını qoymuşdur.

M.Ə.Rəsulzadə Azərbaycanda Xalq Cümhuriyyəti yaradılmasının ərəfəsi dövrü (1913-cü ildən başlayaraq) Bakıda siyasi fəaliyyətdə olmuş və Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti Rusiyanın XI ordusu tərəfindən devrildikdən (28 aprel 1920) az sonra həbs edilmişdir.

M.Ə.Rəsulzadənin Türkiyəyə ikinci mühacirəti İ.V.Stalinin köməyi ilə[1] 1922-ci ildə olmuşdur və o, qısa müddətlərdə Polşa, Almaniya və Rumıniyada olması nəzərə alınmaqla ömrünün sonunadək Türkiyədə yaşamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması uğrunda mübarizə dövrünü və Cümhuriyyətin fəaliyyəti dövrünü işıqlandıran «Əsrimizin Səyavuşu» əsərini M.Ə.Rəsulzadə 1920-21-ci illərdə yazmış və 1923-cü ildə Türkiyədə nəşr etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının tarixi, fəaliyyəti və işğal edilməsi M.Ə.Rəsulzadənin «Azərbaycan Cümhuriyyəti» əsərində (1923) daha geniş işıqlandırılmışdır və bu əsərə görə ona 1923-ci ildə Atatürk mükafatı verilmişdir.[2]

Sovet hökumətinin tələbi ilə Azərbaycan mühacirləri 1932-ci ildə Türkiyədən çıxarıldıqda, həmin mühacirlər Polşaya (Varşavaya) köçməli oldular. Polşanın Almaniya tərəfindən işğal edilməsi (1939) ilə əlaqədar olaraq, onlar əvvəlcə Almaniyaya, sonra isə oradan da Türkiyəyə köçdülər.

---

[1] Bu haqda daha geniş bax: İsrafil İsmayılov. Dünya azərbaycanlıları XX əsrdə. B., 1997, s.217-218.

[2] Beynəlxalq Atatürk sülh mükafatı isə 1986-cı ildə təsis edilmişdir.



M.Ə.Rəsulzadə Türkiyədə bir-birinin ardınca «Qafqaziya türkləri» (1928), «Çağdaş Azərbaycan ədəbiyyatı» (1936), iki «Leyli və Məcnun» (1941), «Azərbaycan şairi Nizami» (1949), «Çağdaş Azərbaycan tarixi» (1951) əsərlərini çap etdirmişdir.

M.Ə.Rəsulzadənin rəhbərliyi altında 1923-cü ildə Türkiyədə «Yeni Qafqazya» jurnalı nəşrə başladı. 1928-ci ildə bağlanan həmin jurnal əvəzinə həmin il «Azəri-Türk» jurnalı nəşrə başladı.

M.Ə.Rəsulzadənin siyasi fəaliyyətində ziddiyyətli məqamlar da olmuşdur. II dünya müharibəsi illərində azərbaycanlılar və Azərbaycan haqqında bəzi məsələlər üzrə faşistlərlə əməkdaşlıq etməsi, əlbəttə, mənfi haldır. Onun bəzi yazılarda bu addımın Türkiyəyə toplaşan azərbaycanlı hərbi əsrlərin gələcək müqəddəratı naminə edilməsi haqqında fikirlər də səslənir. Bu məsələnin özü də konkret faktlar əsasında öyrənilməlidir və sonra nəticə çıxarılmalıdır.

1947-ci ildə Türkiyəyə qayıdan M.Ə.Rəsulzadə 1949-cu ildə Ankarada «Azərbaycan Kultur Dərnəyi»ni yaratmış və orada «Azərbaycan mədəniyyəti ənənələri» mövzusunda məruzələr etmişdir.

1951-ci ildə yazdığı «Çağdaş Azərbaycan tarixi» kitabında M.Ə.Rəsulzadə uzaqgörənliklə qeyd etmişdir ki, «mübarizə hələ bitməmişdir».

M.Ə.Rəsulzadə dünyasını Türkiyədə dəyişmiş və Ankarada dəfn edilmişdir.

2) **ƏHMƏD BƏY AĞAYEV (1869-1939).**

Azərbaycanın dilbər guşəsi Şuşada dünyaya göz açmış Əhməd Ağaoğlu orada gimnaziyanı rus dilində qurtardıqdan sonra təhsilini Sankt-Peterburq texnoloji institutunda və Sarbonna universitetinin (Fransa) hüquq fakültəsində başa vurmuşdur.

1908-ci ildə Türkiyəyə köçmüşdür.

1918-ci ildə Qafqaz İslam ordusu Komandanı Nuru paşanın müşaviri sifətilə Bakıya gəlmiş və Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə İslam ordusu komandanlığı arasında əlaqələrin yaradılmasına kömək etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövrü (1918-1920) parlamanın və Musavat partiyasının üzvü olmuşdur.

1919-cu ildə Parisdə keçirilən Beynəlxalq Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin tərkibində olmuş Əhməd bəy Ağayev nümayəndə heyəti İstanbuldan keçərkən İngiltərə işğalçı ordusu komandanlığı tərəfindən həbs edilərək Malta adasına (İtaliya) göndərilmiş və orada 26 ay həbsxanada saxlanılmışdır. 1921-ci ilin mayında Əhməd bəy Maltadan Azərbaycan hökuməti başçısı Nəriman Nərimanova məktubla müraciət edərək, vətənə qayıtmaq istəyini bildirmişdi və N.Nərimanov onun bu xahişinə müsbət cavab vermişdi.

Əhməd bəy Ağayev Nəriman Nərimanova göndərdiyi həmin məktubunda yazmışdı: «Sizin kimi doğru və səmimi bir şəxsin bütün türk aləminin və xüsusən türk mühitinin keçirməkdə olduğu fərqi böhran zamanı Azərbaycanın başında olması bütün türk aləmi üçün xeyirli bir əlamətdir».

Maltada sürgündə saxlanılan Əhməd bəy Ağayev və Türkiyənin «İttihad və Tərəqqi» partiyasının digər üzvləri M.Atatürkün təşəbbüsü ilə ingilis hərbi əsirləri ilə dəyişdirilmiş və Əhməd bəy Ağayev M.Atatürkün dəvəti ilə Ankaraya getmişdi. Bundan sonra Əhməd bəy Ağayev N.Nərimanova cavab məktubunda Türkiyədə qaldığının səbəbini ona bildirmişdi.

Türkiyədə Əhməd bəy Ağayev M.Atatürk ilə şəxsən yaxşı münasibətlərdə olmuş və Kars vilayətindən Böyük Millət Məclisinə iki dəfə elçi seçilmişdi. M.Atatürkün tapşırığı ilə o, Anadolu mətbuat və xəbərlər agentliyini yaradaraq, həmin agentliyə mətbuat baş redaktoru səviyyəsində rəhbərlik etmişdir.

Əhməd bəy Ağayevin həyat yoldaşı Sürəyya xanım Türkiyədə ilk hüquqşünas qadın və ilk qadın-vəkil olmaqla yanaşı Ümumdünya hüquqşünas qadınlar cəmiyyətinin vitse-prezidenti seçilmişdir. M.Atatürk dəfələrlə demişdi ki, Türkiyə Sürəyya xanımla fəxr edir.[1]



Əhməd bəy Ağayev ömrünün son illərinə qədər Ankara və İstanbul universitetlərində professor vəzifəsində işləmişdir. Bu illərdə o, «Türk mədəniyyəti tarixi», «Türk hüquqi tarixi», «Dövlət və fərd», «Üç mədəniyyət», «İngiltərə və Hindistan», «İran və İnqilab», «Çevriliş, yoxsa inqilab», «Azad partiya haqqında xatirələr» və digər kitabları yazaraq, nəşr etdirmişdir.

Professor Əhməd bəy Ağayev Azərbaycan və Türkiyə türkləri arasında dostluq körpüsü yaradanlardan biri olmuşdur.

### 3) ƏDİL XAN ZİYATXANOV (1869-1954).

Gəncədə dünyaya göz açmış, Tiflis klassik gimnaziyasını və Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Fransız, ingilis, alman və fars dillərini bilirdi.

Azərbaycan Demokratik Cümhuriyyəti hökumətində Xarici İşlər nazirinin müavini (1918), 1920-ci ilin yanvarından isə Azərbaycan Cümhuriyyətinin İranda fövqəladə və səlahiyyətli səfiri işləmişdir.

1920-ci ilin mayından Ə.Ziyatxanovun mühacirlik dövrü (əvvəlcə İranda) başlayır və 1934-cü ildə o, İstanbula mühacirət edir və 22 il İstanbul universitetində müəllimlik etmişdir.

Əvvəllər Avropaya səyahət etdiyi üçün üç aylıq bu səyahətini «Səyahətnamə» (Gəncə, 1909) əsərində yazmış, Versal sülh konfransında iştirakı haqqında təəssüratlarını isə 1919-cu ildə «Azərbaycan» adlı əsərində (azərbaycan və fransız dillərində) oxuculara təqdim etmişdir.

Azərbaycan mühacirət ədəbiyyatının öyrənilməsinə həsr olunmuş ilk simpozium 1991-ci ilin aprelində Bakıda keçiril-

---

[1] M.Atatürkün yaxın silahdaşlarından biri də Səməd bəy Məşədi bəy oğlu Rəfibəyov (1892, Gəncə-1980, İstanbul) olmuşdur. Ona Türkiyədə 1948-ci ildə general-mayor rütbəsi verilmişdir.

mişdir. Simpoziumda qeyd edilmişdir ki, Azərbaycan mühacirət ədəbiyyatı uzun illərdir ki, öyrənilməmişdir və bu məsələyə diqqət artırılmalıdır.

### 4) MİRZƏ BALA MƏMMƏDZADƏ (1898-1959).

Bakının ətrafında olan Zirə kəndində dünyaya göz açmış və 1918-20-ci illərdə milli-azadlıq hərəkatında fəal iştirak etmiş Mirzə bala Məmmədzadə 1924-cü ilin mayında İrana, oradan da 1927-ci ildə Türkiyəyə mühacirət etmişdir.

O, İstanbulda yaşamış və «Yeni Qafqaziya» (1923-27), «Azəri-türk» (1928-1931), «Odlu yurd» (1929-1930) jurnallarında Azərbaycandakı siyasi hadisələrə dair məqalələrini çap etdirmişdir.

1932-ci ildə Mirzə bala Məmmədzadə mühacir kimi Türkiyədən çıxarılmış və Polşada yaşamışdır. Polşa Almaniya tərəfindən işğal edildikdə (1939) o, əvvəlcə Almaniyaya köçmüş, oradan da Türkiyəyə qayıtmışdır.

Mirzə bala Məmmədzadənin fəal iştirakı ilə 1949-cu ildə Ankarada «Azərbaycan Kultur Dərnəyi» işə başlamış və 1952-ci ildə həmin dərnəyin mətbu orqanı olan «Azərbaycan» jurnalı nəşrə başlamışdır.

Azərbaycan Milli hərəkatının rəhbəri M.Ə.Rəsulzadə Türkiyədə dünyasını dəyişdikdə (1955), bu vəzifəyə M.Məmmədzadə seçilmişdi.

M.Məmmədzadə «Milli Azərbaycan hərəkatı» (1938) «Bakı uğrunda mübarizə» (dram əsəri), «Ənvər bəy, yaxud Kamil paşa kabinəsi» əsərlərinin, çoxsaylı məqalələrin müəllifidir.

### 5) ƏHMƏD CƏFƏR oğlu (1899-1975)

Gəncədə dünyaya göz açmış Əhməd Cəfər oğlu 1920-cildə Türkiyəyə mühacirət etmiş və 1924-cü ildə İstanbul universitetinin ədəbiyyat fakültəsini bitirmiş və həmin universitetdə müəllimliyə saxlanmışdır. O, 1926-29-cu illərdə Berlin universitetində işləmiş və elmlər doktoru dərəcəsinə layiq görülmüşdür. Yenidən Türkiyədə işə qayıdan Əhməd Cəfər oğluna 1938-ci ildə professor rütbəsi verilmiş və kafedra müdiri vəzifəsinə təyin edilmişdir.



Əhməd Cəfər oğlunun 400-dən çox elmi işindən 100-dən çoxu Azərbaycan türkçülüyünə həsr edilmişdir. Görkəmli türkoloq Əhməd Cəfər oğlu «Azərbaycan» (1940), «Tarixdə türklük»... (iki cildlik əsər) «Türk dili tarixi», «Azəri türklüyü» (1958-1964) və digər əsərlərin müəllifidir.

Türkiyədə uzun müddət «Türk dili və ədəbiyyatı» dərgisinə (jurnalına) redaktorluq etmişdir.

Polşa, Macarıstan və Ukrayna Elmlər Akademiyalarına müxbir üzvü seçilmiş, Ukrayna Dövlət Universitetinin fəxri professoru (1953) adına layiq görülmüşdür. Professor Əhməd Cəfər oğlu İstanbulda vəfat etmişdir.

### 6) ƏHMƏD CAVAD (1875-1937).

Gəncədə dünyaya göz açmış Əhməd Cavad 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətini məsləki ilə müdafiə edən görkəmli şair olmuşdur. Üzeyir bəy Hacıbəyovla yaxın dost olmuş Əhməd Cavad indi də möhtəşəm səslənən Azərbaycan dövlət himnimizin sözlərinin müəllifidir. Onun «Dalğa» adlı ilk kitabı 1919-cu ildə nəşr edilmişdir.

Üçrəngli bayrağımıza yazılmış ilk şerin də müəllifi istiqlal şairi Əhməd Cavaddır.

Azərbaycan Rusiyanın XI ordusu tərəfindən işğal edildikdən (1920) sonra Əhməd Cavad Türkiyəyə mühacirət etdi və orada nəşr etdirdiyi «Dalğa» adlı şerlər kitabındakı «Can Azərbaycan» şerində xalqı gələcək qələbələrə çağırdı. «Türk ordusuna » xitabən yazdığı digər şerində isə o, Azərbaycan türklərinin xilaskarı türk ordusuna böyük minnətdarlıq hisslərini tərənnüm etmişdir.

Əhməd Cavad Türkiyədə nəşr edilən «yeni məcmuə»də nəşr etdiyi şerində yazmışdı:

Çoxdan ayrı düşdük biz yar elindən
Əcib o yerlərdə biz deyən varmı?
Biz anmaqdan, söyləməkdən yorulduq,
Bir düşünən bizi, söyləyən varmı?

Qürbətdə həmişə vətən həsrətini çəkən şair dünyanın tərəqqipərvər insanlarını türkün haqq işinə köməyə çağırmışdır.

7) **HÜSEYN BAYKARA (1904-1984)**.

Hüseyn Baykara (Qara Hüseynov) Bakıda Dövlət Universitetində oxuduğu dövrdə (1923-27-ci illər) Azərbaycanın müstəqilliyi ideyasını təbliğ etdiyinə görə təqib edildiyini hiss edərək, əvvəlcə İrana, oradan da Türkiyəyə mühacirət etmiş və İstanbul universitetinin hüquq fakültəsində ali təhsilini başa vurmuşdu.

İlk böyük əsəri olan «XIX əsrdə Azərbaycanda yeniləşmə hərəkatları» kitabını Türkiyədə 1966-cı ildə nəşr etdirmişdir. Bundan sonra o, yenə də Türkiyədə «Azərbaycan mədəniyyət tarixi» və «Azərbaycan istiqlal mübarizəsi tarixi» (1975) əsərlərini yazmışdır. Bu sonuncu əsərində o, Azərbaycanın azadlığının olacağını böyük inamla yazırdı və onun bu ümidi müəllif dünyasını dəyişəndən yeddi il sonra həqiqətə çevrildi.

8) **ALMAS İLDIRIM (1907-1952).**

İldırım Əbdül oğlu Almaszadə Bakının ətrafındakı Qala kəndində dünyaya göz açmış və Bakıda Dövlət Universitetinin Şərq ədəbiyyatı fakültəsində oxuduğu 1930-cu ildə, qondarma siyasi səbəbə görə universitetdən çıxarıldığı üçün Şimali Qafqaza getməli olmuşdu. Siyasi izləmələr davam etdiyi üçün o, İrana, oradan da Türkiyəyə mühacirət etməli oldu.

Vətənpərvər şair Türkiyədə müəllimlik etmiş və öz şerlərini «Boğulmayan bir səs» adı altında 1934-cü ildən başlayaraq



məcmuələr şəklində nəşr etdirmişdir. Burada yazdığı «Əsir Azərbaycan» şerində şair yazmışdı:

Xəbər alsan Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan elimdən
Kim demiş ki, düşmüş adın dilimdən
Azərbaycan, mənim dostsuz yurdum, oy
Ölməz eşqim, içimdəki dərdim, oy.

Almas İldırım «Qara dastan» kitabının müəllifidir. Odlu vətənpərvər şairin «Seçilmiş şerlər» kitabı ölümündən bir il sonra Türkiyədə nəşr edilmişdir.

# III Hissə.
# AZƏRBAYCAN-TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİ 1991-2000-ci İLLƏRDƏ

## IX Fəsil. AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUĞUNUN MÖHKƏMLƏNMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA XİDMƏTLƏRİ

*«Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir».*
HEYDƏR ƏLİYEV.

XX əsrdə türk dünyası iki görkəmli lider yetişdirmişdir. Əsrin I yarısında Mustafa Kamal paşa Atatürk, II yarısında isə Heydər Əliyev siyasi xadimlər kimi beynəlxalq aləmdə parladılar. Türk dünyası üçün burada rəmzi mənada bir varislik də mövcuddur.

Mustafa Kamal Atatürk liderlik haqqında demişdir: «**Lider yalnız millətinə güvənməli və təşkilatçı olmalıdır. Əlxüsus müstəqillik və keçid dövrlərində liderin güvəndiyi yeganə qüvvət qaynağı millət olmalıdır**».

Heydər Əliyev 1992-ci ildə Naxçıvanda Türkiyə jurnalisti İrfan Ülküyə verdiyi müsahibəsində demişdi: «DTK-da şərəf və namusla işləmişəm. **İşlədiyim müddətdə öz millətimə, bir dəfə də olsun, xəyanət etməmişəm. Bu mənada vicdanım rahatdır**».[1]

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 2001-ci ildəki çıxışlarının birində milli mənlik mənsubiyyəti haqqında belə demişdir: «**Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam**».[1]

[1] İrfan Ülkü. Qızıl ulduzdan hilala doğru (Heydər Əliyevin fırtınalı həyatı). Türkcədən tərcümə. B., 1994, s.18.



ABŞ tədqiqatçısı Odri Armstad 1992-ci ildə nəşr etdirdiyi «Azərbaycan türkləri: dövlət və fərd rus hakimiyyəti altında» adlı kitabında Heydər Əliyevin fəaliyyəti haqqında belə yazmışdır: «Bütün güclü şəxsiyyətlər kimi, Heydər Əliyev də hamını öz arxasınca apara bilirdi. O, son dərəcə işgüzar və ziyalı rəhbər kimi, zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu. Heydər Əliyev Siyasi Büronun tərkibinə daxil olan ilk azərbaycanlı lider idi. Bu, respublikanın siyasi gücünün çoxalması baxımından son dərəcə əhəmiyyətli amilə çevrildi».

Moskvada SSRİ Nazirlər Soveti sədrinin I müavini olduğu dövrdə Kommunist Partiyası Siyasi Bürosunun üzvü Heydər Əliyev Qazaxstan Partiya təşkilatının rəhbəri mərhum Dinmühəmməd Kunayevin yerinə rus Kolbinin göndərilməsini siyasi səhv hesab edərək, öz narazılığını Mixayıl Qorbaçova bildirməyi özünə borc bilmişdi. Həmin dövrdə Siyasi Büronun üzvü, SSRİ Xarici İşlər Naziri A.Qromıko Heydər Əliyev haqqında belə demişdir: «O, Mərkəzi Komitə üzvlərinin əksəriyyətinə xas olan tərbiyəsizlik, həyasızlıq, yüngülxasiyyətlik kimi keyfiyyətlərdən uzaq idi... Öz-özümə düşündüm: Sovet İttifaqını idarə etmək üçün məhz belə cavan və enerjili rəhbər gərəkdir. Bu keyfiyyətlər Heydər Əliyevdə vardır».

Mixayıl Qorbaçovun SSRİ-ni dağılmaqdan xilas etmək üçün ortaya atdığı «yenidənqurma» siyasəti bu çoxmillətli dövlətin dağılması prosesinin qarşısını ala bilməzdi və ala bilmədi.

Heydər Əliyev 1991-ci ilin 19 iyununda SSRİ Nazirlər Sovetinin partiya təşkilatına kommunist partiyası sıralarından çıxmaq haqqında yazdığı ərizəsində göstərmişdir ki, SSRİ-də kommunist eksperimenti, sosialist seçimi özünü doğrultmadı.

SSRİ-nin dağılması prosesini M.Qorbaçovun gizli razılığı ilə ermənilər tərəfindən başlanmış Qarabağ fitnə-fəsadı daha da

[1] «Xalq» qəzeti, 10 noyabr, 2001.

sürətləndirdi. Azərbaycan xalqının milli müstəqillik uğrunda mübarizədə mütəşəkkil mübarizə əzmini qırmaq üçün M.Qorbaçov 1990-cı ilin 20 yanvarında Bakıya divan tutmaq üçün Sovet ordusu hissələrinin böyük bir dəstəsini qəflətən buraya göndərdi. Bu ordu hissələri içərisində Şimali Qafqazda təcili olaraq səfərbərliyə cəlb edilmiş və Bakıya göndərilən saqqallı ermənilər daha çox idilər. Bakı faciəsində yüzlərlə azərbaycanlı məhv edildi və ağır yaralandı.

Moskvada faktiki olaraq göz dustağı vəziyyətində yaşayan Heydər Əliyev səhəri günü, 21 yanvarda Azərbaycan Respublikasının daimi nümayəndəliyinə gələrək, orada mitinqə yığışmış azərbaycanlılar qarşısında bəyan etdi ki, M.Qorbaçov tərəfindən Azərbaycan xalqına qarşı heç bir əsas olmadan qanlı təcavüz edilmişdir.

Az sonra Moskvadan Azərbaycana qayıtmış Heydər Əliyev 1990-cı ilin iyunundan 1993-cü ilin iyununa qədər blokada vəziyyətində olan Naxçıvanda yaşadı və 1990-cı ildə Azərbaycan Respublikası Ali Sovetinə deputat seçildi və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsində işlədi.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın göstərilən ağır illərdə Ermənistan hərbi hücumlarından müdafiə edilməsi və çox ağır iqtisadi vəziyyətdə olan Naxçıvana Türkiyə və İranın köməyini təşkil edərək, xalqı ağır vəziyyətdən xilas etməsi Heydər Əliyevin öz xalqı qarşısında tarixi xidmətidir.

***

XX əsr türk gəncliyinin mənəvi atası sayılan Alparslan Türkeş (1917-1997) dünyanın türkdilli xalqlarını bir-birinə həyan olmağa və birləşməyə çağıran böyük türklərdən biridir.

1991-ci ilin sonunda SSRİ-nin dağılması zəminində bu ölkənin türkdilli xalqlarından beşinin (azərbaycanlılar, qazaxlar, qırğızlar, özbəklər, türkmənlər) öz milli adları ilə müstəqil dövlətlərini yaratdıqlarını bəyan etdikdə, Türkiyədə də bu böyük tarixi hadisəyə bəlkə də ən çox sevinən Alparslan Türkeş oldu.



Həmin ölkələri 1992-ci ildə gəzərkən A.Türkeş demişdi: «Şükürlər olsun ki, bunu da gördüm». Halbuki, Sovetlər ölkəsinin hakim dairələri bu böyük türk mücahidinə «Türkiyə neonasisti», «müharibə carçısı» damğası vurmuşdu.

SSRİ-nin dağılması və bu zəmində beş müstəqil türk dövlətinin yaranması dahi öndər Mustafa Kamal paşa Atatürkün böyük uzaqgörənliyinin təsdiqi oldu. 1933-cü ildə M.Atatürk demişdi: «Ola bilər ki, Sovetlər Birliyi də bir vaxtlar Osmanlı imperiyası və Avstriya-Macarıstan kimi dağılsın və ovcunda saxladığı ölkələr qaça bilərlər. Nəticədə dünya yeni bir dilemma qarşısında qalar. O zaman Türkiyə nə edəcəyini indidən bilməlidi. Çünki Sovetlər Birliyində bizim dil bir, inancı bir, özü bir qardaşlarımız var. Onlara sahib çıxmağa hər zaman hazır olmalıyıq. Xüsusilə də Azərbaycanın tam bir müstəqil dövlət halına gəlməsinə tərəfdarıq».[1]

Bakıda 1990-cı ilin yanvar faciəsi zamanı və ümumiyyətlə erməni faşistlərinin Azərbaycan xalqına qarşı törətdikləri qanlı təcavüzlər dövrü Azərbaycan dünyada təklənmişdi, xaricdən yalnız türk qardaşlarımızın səsini eşidirdik.

Bakıda 1990-cı il yanvar faciəsi və 1992-ci ilin fevralında Xocalı soyqırımı günlərində Türkiyə mətbuatı və Türkiyədən Bakıya gəlmiş jurnalistlər öz verilişlərində və yazılarında Azərbaycandakı vəziyyəti daha dürüst şərh edirdilər. Türkiyənin «Milliyyət» qəzetinin Azərbaycan üzrə müxbiri Rəhbər Bəşiroğlu Bakıda nəşr olunan «Səhər» qəzetinin 1992-ci il 3 mart tarixli sayındakı yazısını bu sözlərlə başlamışdı: «Bu gün Qarabağ qan içindədir».

1990-cı ilin sonlarından başlayaraq Türkiyədə «Azərbaycan türkləri» və «Xəzər» adlı qəzetlər çap olunmağa başlandı. Həmin dövrdə İstanbulda Azərbaycan mühacir cəmiyyətlərinin I beynəlxalq qurultayı çağrılmışdı. Qurultaya 20-dən çox ölkədən nümayəndə gəlmişdi. Qurultayda Azərbaycan

---

[1] Atatürkün milli xarici siyasəti. 1919-1923-cü illər. Ankara, 1981. s.201.

mühacirlərinin əlaqələndirmə mərkəzinin yaradılması vacib hesab edildi və belə bir mərkəz 1991-ci ildə Bakıda yaradıldı və «Yurddaş» adlı qəzet nəşrə başladı.

Türkiyədəki Azərbaycan mühacirlərinin rəhbəri professor Yəhya Taşdələn 1996-cı ildə Azərbaycana səfər etdi, Bakıda və Sumqayıtda oldu, Füzulinin 500 illik yubileyi tədbirlərində iştirak etdi.

Azərbaycan üçün son dərəcə ağrılı olan XX əsrin 90-cı illərinin əvvəllərində Türkiyə-Azərbaycan mədəni əlaqələrini geniş işıqlandıran Azərbaycanın mədəniyyət xadimlərindən biri də Rəfiq Zəka Xəndan[1] (1939-1999) olmuşdur. Professor Rəfiq Zəka Xəndan 100-dən artıq şer kitabının, 500-ə qədər elmi məqalənin müəllifidir. Azərbaycan ədəbiyyatı xadimlərindən Hüseyn Cavidin, Məhəmməd Hadinin və Mikayıl Müşfiqin Türkiyə oxucularına geniş tanıdılmasında onun xidmətləri böyükdür. Azərbaycanda nəşr edilən «Ulduz» jurnalının 1988-ci il №3 sayında o, «Türkiyə mətbuatı Azərbaycan haqqında» adlı geniş məqalə ilə çıxış etmişdir.

XX əsrin son 10-20 ilində Azərbaycan-Türkiyə mədəni əlaqələrinin genişlənməsinə aşağıda adları çəkilən yubiley və digər mədəni tədbirlərin müsbət təsiri olmuşdur:

- 1981-ci ildə Nizami Gəncəvinin (1141-1209) 840 illik yubileyi;
- 1985-ci ilin iyununda Azərbaycanın görkəmli bəstəkarı Arif Məlikovun «Min bir gecə» əsərinin Türkiyə səhnəsində böyük uğurla tamaşaya qoyulması;
- 1990-cı ildə Ankarada Nəsrəddin Hoca simpoziumunun keçirilməsi;
- 1991-ci ildə Yunis Emrənin (1241-1320) 750 illik yubileyi;
- 1992-ci ildə Hüseyn Cavidin (1882-1941) 110 illik yubileyi;
- 1994-cü ildə Məhəmməd Füzulinin (1494-1556) 500 illik yubileyi;
- 1996-cı ilin martında İstanbulda Azərbaycan incəsənət günləri.

[1] Rəfiq Zəka Xəndan Türkiyənin milli şairi adına, Atatürk mükafatına, İstanbulun fəxri vətəndaşı adına layiq görülmüşdür.



Həmin yubileylər Azərbaycanda və Türkiyədə geniş qeyd edildi: hər iki xalqın çoxsaylı ədəbiyyat və incəsənət nümayəndələri hər iki ölkənin bir sıra şəhərlərində geniş tədbirlər keçirdilər. Məsələn, Yunis Emrənin yubileyində Bakıya Türkiyədən gəlmiş heyətin tərkibinə 160 nəfər daxil idi.

1992-ci ilin yazında Türkiyənin Antaliya şəhərində türkdilli ölkələrin rəsmi nümayəndələrinin I qurultayı keçirildi. Qurultayda min nəfərdən çox nümayəndə iştirak etmişdi. Həmin qurultayda Türkiyədən Turqut Özal (prezident), Süleyman Dəmirəl (baş nazir), Alparslan Türkeş (Millətçi hərəkat partiyasının lideri) və digərləri iştirak etmişdilər. Qurultay qərara gəlmişdi ki, sonrakı qurultaylar hər ildə bir dəfə mart ayının 21-də (Novruz bayramı günü) keçirilsin.

2001-ci ildə Ankarada keçirilmiş növbəti 9-cu qurultay öz işini qurtardıqdan sonra burada Dünya Azərbaycanlılarının həmrəylik günü keçirilmişdi.

XX əsrin sonuncu onilliyi dövründə Azərbaycan ədəbiyyatı və incəsənəti xadimlərindən Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Elçin Əfəndiyev, Arif Məlikov, Sabir Rüstəmxanlı və digərləri dəfələrlə Türkiyədə olmuş və bu gedişlər mədəni əlaqələrin genişlənməsinə imkanlar yaratmışdır. Yazıçı və ictimai xadim Elçin Əfəndiyevin son 5 ildə Türkiyədə 15 kitabı nəşr olunmuş və geniş yayılmışdır.

Türkiyənin müasir şairlərindən Orxan Pamuk , Yaşar Kamal, Oktay Rüfət, Kamal Tahir, Orxan Kamal, Əhməd Biçan, Mehmet Kaplan, Əli Yavuc və digərləri Azərbaycanda tanınır və oxunurlar.

XX əsrin ikinci yarısında türk dünyasının Atatürkü adına

layiq görülmüş Heydər Əliyev Mustafa Kamal paşa Atatürk irsinə həmişə böyük ehtiramla yanaşmışdır. 2001-ci ilin 13 martında Türkiyənin Böyük Millət Məclisində etdiyi çıxışında Heydər Əliyev demişdir: «**... böyük Atatürkün türk xalqına qoyub getdiyi ... ən böyük irs onun yaratdığı, qurduğu, yaşatdığı və bu gün uğurla yaşayan Türkiyə Cümhuriyyətidir**».[1]

1997-ci ilin 16 iyununda bir qrup telejurnalist ilə görüşündə Heydər Əliyev demişdir: «Özünün Sovetlər İttifaqı kimi böyük bir super dövlətdə yüksək partiya və hökumət vəzifəsində işləməsi Azərbaycan xalqı üçün, bütün dünya müsəlmanları, bütün dünya türkləri üçün də böyük bir hadisə idi».

Türklük soykökümüzlə bilavasitə əlaqədar olan məsələlərdən biri də Azərbaycan dilinin dövlət dili olması məsələsinə Heydər Əliyevin münasibəti məsələsi diqqətəlayiqdir.

Məlumdur ki, böyük yazıçımız Cəlil Məmmədquluzadənin «Anamın kitabı» əsərində təsvir edilir ki, azərbaycanlı üç qardaş digər üç dildə (rus, türk, fars dillərində) təhsil almaları nəticəsində nəinki anaları ilə sərbəst ünsiyyətdə ola bilmirlər, hətta bir-birlərini də başa düşə bilmirlər.

Cəlil Məmmədquluzadənin 1994-cü ildə keçirilmiş 100 illik yubileyindəki çıxışında Heydər Əliyev bu əhvalatı yada salaraq, Azərbaycan dilinin indi dövlət dili olduğu bir şəraitdə hamı tərəfindən öyrənilməsinin vacibliyini qətiyyətlə qeyd etdi və ana dilini rəvan bilməyən şəxsləri «şikəst insanlar» adlandırdı. Burada onu da demək yerinə düşər ki, 1969-cu ildə Azərbaycana ilk dəfə rəhbərliyə seçiləndən sonra Heydər Əliyevin özü çox qısa bir müddətdə Azərbaycan dilini çox yüksək səviyyədə öyrənə bildi və çıxışlarını Azərbaycan dilində mətnsiz etməyə başladı.

Azərbaycan dilinin dövlət dili səviyyəsində işlənməsinə qayğı Heydər Əliyevin fəaliyyətində Azərbaycana təkcə ilk də-

[1] Dirçəliş. XXI əsr, aprel 2001, №4 (438), s.5.



fə rəhbərliyə başladığı illərdə deyil, SSRİ-də mərkəzləşmənin ifrat dərəcədə tüğyan etdiyi sonrakı dövrdə də açıq şəkildə özünü göstərmişdi. 1978-ci ildə qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasında Moskvanın çox ciddi narazılığına baxmayaraq, Azərbaycan dilinin respublikada dövlət dili olması müddəası yazılmışdı və bunun nəticəsində əhali içərisində ana dilini öyrənməyə meyl və maraq xeyli artmışdı.

Heydər Əliyevin dövlətçilik fəaliyyəti geniş və çoxşaxəlidir. Oxucuya təqdim edilən Türkiyə-Azərbaycan mədəni əlaqələri mövzusu dairəsində bu fəaliyyət haqqında yuxarıdakı bölmələrdə də müfəssəl şərh verilmişdir və bu mövzuda müəllifin ayrıca bir yazısı da vardır.[1]

Azərbaycana rəhbərliyə qayıtdıqdan (iyun 1993) sonrakı ilk günlərdən başlayaraq Heydər Əliyev qardaş Türkiyə ilə əlaqələrin möhkəmlənməsinə xüsusi diqqətlə yanaşırdı. O, böyük fəxr hissi ilə deyirdi: «**Türkiyə Azərbaycanın ən yaxın dostu, qardaşıdır. Bizim üçün Türkiyədən yaxın bir ölkə yoxdur**».

Heydər Əliyev 1993-2003-cü illərdə Türkiyəyə 20 dəfə rəsmi dövlət səfəri etmişdir. Bununla birlikdə o, Türkiyə Cümhuriyyətinin 75 illiyi yubileyində (oktyabr, 1998), türkdilli ölkələrin dövlət başçılarının ikinci zirvə görüşündən (oktyabr, 1994) başlayaraq bu görüşlərin hamısında iştirak etmişdir. Bu səfərlərdə o, türkdilli xalqların ölkələrinin dostluq və qardaşlığının möhkəmlənməsi istiqamətində dəyərli məsləhətlər vermişdir.

Türkiyənin «Mərmərə Qrupu Vəqfi»nin yekdil qərarı ilə Heydər Əliyev «XX əsrin dövlət adamı» və «Günümüzün ən tolerantlı adamı» fəxri adına layiq görülmüşdür.

Mərmərə Qrupunun Baş katibi Alkan Suver demişdir: «**Heydər Əliyev bütün türk dünyasının nadir dövlət adamı və ağsaqqalı, zəmanəmizin ən təcrübəli siyasətçisidir... Cə-**

[1] İsrafil İsmayılov. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B., 1996, s.103-126.

**nab Əliyev bütün türk dünyasının əmanətidir, böyük türklüyün əmanətidir»**.

Türkiyənin nüfuzlu «Ortadoğu» qəzetinin köşəyazarı İrfan Ülkün həmin qəzetin 2003-cü il 23 aprel nömrəsində «**Heydər Əliyev bizim dövrümüzdə Atatürkün siyasi mirasını təmsil edən, yaşayan türk lideridir»** sözlərini yazmışdır.

Heydər Əliyev Mustafa Kamal paşa Atatürk qədər qüdrətli, qürurlu və hazırcavab şəxsiyyətdir. Görkəmli ictimai xadim Rəfiq Zəka Xəndan «Azərbaycan» qəzetində çap etdirdiyi «Həyatda Atatürk» adlı yazısında Heydər Əliyevin yüksək vəzifədə olmadığı dövrdə Bakıda keçirilmiş yazıçılar qurultayına dəvətlə gələrək zalda əyləşdiyini və nümayəndələrin təkidli təklifi ilə rəyasət heyətinə dəvət edilməsi əhvalatını şərh edərək, Heydər Əliyevin bu təklifə verdiyi cavabını yada salmışdı: «Mən belə məclislərə yuxarıdan çox tamaşa etmişəm. İndi də aşağıdan yuxarıya baxmaq istəyirəm».[1]

Heydər Əliyev demişdir: «Mənim həyatım ən gənc vaxtlarından Azərbaycan xalqının talei ilə bağlıdır, Azərbaycana həsr olunubdur».[2] Eyni zamanda o, öyrədir ki, «**həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü seçir**».

1993-cü ilin yayında Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıtması Azərbaycan üçün həmin ağır illərdə tarixi bir addım, qurtuluş addımı oldu.

SSRİ-nin dağılmasından istifadə edən Ermənistanın separatçı daşnak rəhbərləri Rusiya ordu hissələrinin köməyi ilə Azərbaycana qarşı hərbi əməliyyatları gücləndirdi və Azərbaycan ərazisinin 20%-ni işğal etdi. Həmin dövrdə beynəlxalq aləmdə Azərbaycan tamamilə təklənmişdi və onun çətin problemlərini yalnız qardaş Türkiyə xalqı başa düşürdü. Lakin Azərbaycanda rəhbərliyə gəlmiş Xalq Cəbhəsi – Musavat blo-

[1] «Azərbaycan» 23 fevral 1994.
[2] «Xalq» qəzeti, 19 noyabr 1997.



kunun siyasətdə kəmsavadlığı nəticəsində hətta qardaş Türkiyə dövləti ilə Azərbaycanın müqəddəratının tələb etdiyi hüququ sənədlər imzalanmadı. Bu məqsəd üçün Türkiyə Respublikasının prezidenti Turqut Özalın Azərbaycana etdiyi səfərindən istifadə edilmədi.

Prezident Turqut Özal 1993-cü ilin 14-15 aprelində Azərbaycanda olmuşdu və səfərin yekunlarına həsr olunmuş mətbuat konfransında Türkiyə jurnalisti ona sual vermişdi ki, çoxları bu görüş zamanı Türkiyə ilə Azərbaycan arasında müştərək müdafiə müqaviləsi imzalanacağını gözləyirdilər. Cavab üçün Türkiyə prezidentinə macal vermədən Əbülfəz Elçibəy belə cavab vermişdi: «Hərbi ittifaq bağlamaq o qədər də asan məsələ deyil. Hələ ki, bu sahədə bir addım atmamışıq»[1].

Bu cavab Ə.Elçibəyin dövlətçilik siyasətindən çox uzaq olan, bəsirətsiz bir şəxsiyyət olduğunu bir daha sübut etdi.

Heydər Əliyev üçün Azərbaycan-Türkiyə münasibətlərini qısa bir müddətdə dövrün tələbi siyasətinə qaldırmaq çox çətin idi. Nəzərə almaq lazımdır ki, Ə.Elçibəyin «türkün türkdən başqa dostu yoxdur» bəsit və siyasi cəhətdən səhv kəlamı Türkiyə ictimaiyyətinin müəyyən dairələri içərisində cazibədar olduğuna görə bir qədər rəğbətlə qarşılanmışdı.

Heydər Əliyevin böyük fəailiyyətini kifayət qədər qiymətləndirən Türkiyə ictimaiyyəti «Beynəlxalq Atatürk Sülh Mükafatı»nı 1999-cu ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə verilməsi haqqında qərar çıxardı (bu mükafat 1986-cı ildə təsis edilmişdir). Həmin ilin noyabrında bu mükafatın təqdim edilməsi münasibətilə Türkiyəyə səfərə getmiş Heydər Əliyev özü ilə apardığı bir parça Azərbaycan torpağını M.Atatürkün məzarının yanına qoyduğu anlarda demişdi: «**Türkiyənin bütün torpaqları kimi, bütün vilayətləri kimi, Azərbaycan Türkiyə ilə bağlıdır və Mustafa Kamal paşa Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün**

[1] «Xalq» qəzeti, 15 aprel 1993.

**müdrik şəxsiyyəti hesab edir».**

Türkiyə Böyük Millət Məclisində 2000-ci ilin iyununda etdiyi geniş və parlaq çıxışında Heydər Əliyev demişdir: «**Biz Azərbaycanda çox məmnunuq ki, türk xalqı, Türkiyə Cümhuriyyəti yaranandan Mustafa Kamal paşa Atatürkün qoyduğu yolla gedib və bu yol da ona uğurlar gətiribdir**».[1]

SSRİ-nin dağılması zəminində türk dünyası xeyli güclənmək üçün imkan əldə etdi. İslam – müsəlman dünyasının güclü dayağı və tərkib hissəsi olan türkdilli xalqlar ailəsinin beş xalqı (Azərbaycan, qazax, özbək, qırğız və türkmən xalqları) öz müstəqil dövlətlərini yarada bildilər[2] və özlərinin mənəvi-əxlaqi qidası olan islam dininə qayıtdılar.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1994-cü ilin martın ortalarında Mərakeşdə çağrılmış İslam Konfransı Təşkilatının üzvü olan ölkə başçıları ilə görüşündə etdiyi çıxışında demişdir: «Biz haqlı olaraq fəxr edə bilərik ki, islam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrlərdir ki, onun mənəvi inkişafına və təkmilləşməsinə kömək edir». Məlumdur ki, həmin toplantıda yekun sözü demək şərəfinə də Heydər Əliyev layiq görülmüşdü.

1995-ci ilin mayında Məkkə və Mədinəyə həcc ziyarətindən qayıtmış 500 nəfər zəvvarla görüş münasibətilə etdiyi nitqində Azərbaycan prezidenti Heydər Əliyev demişdir «Azərbaycan dövlətinin həyatında çox əlamətdar haldır ki, xalqımız dininə öz münasibətini sərbəst ifadə edir...». Sözünə davam edərək Heydər Əliyev xüsusi olaraq qeyd etdi ki, «İslam bu dinə itaət edənləri həmişə mənəvi saflığa, ədalətə, düzlüyə, bütün müsbət keyfiyyətləri özündə toplamağa dəvət edir».[3]

1998-ci ilin sentyabrında Bakıda «Müasirlik və dini-

[1] Dirçəliş XXI əsr, 2001, №4, s.5.

[2] Bu haqda daha geniş, bax: İsrafil İsmayılov. Türk dünyası XX əsrin 90-cı illərində. B., 2001.

[3] «Azərbaycan», 23 may 1995.



mədəni dəyərlər» mövzusunda keçirilmiş Beynəlxalq konfransdan az sonra buradaca keçirilmiş Qafqaz müsəlmanlarının X qurultayındakı nitqində Heydər Əliyev demişdir: «Kommunist ideologiyasının bəşəriyyətə vurduğu zərbələrdən ən böyüyü 70 il müddətində dinə qarşı aparılmış təbliğat və xüsusən dinin qadağan olunması və dinin təhrif edilməsi olmuşdur».[1]

Dünya dinləri arasında ən demokratik və humanist olan İslam dini öz əxlaqi dəyərləri, sosial ədalətliliyi, insan ləyaqətinə hörmət və xeyirxahlığı ilə seçilir və buna görə də digər dinlərə sitayiş edənlərin də rəğbətini qazanmışdır.

İslamda mədəniyyət tərkidünyalılığın tam əksinədir. İslamın mənəvi dəyərləri həyatın bütün sahələrində fəal həyat tərzi təbliğ edir. Bu mənəviyyat ədalət, əməlisalehlik, əlitəmizlik tələb edir. Rus yazıçısı Yuriy Nikitinin «Qəzəb» («Ярость») romanında əsərin qəhrəmanı özünün islamı qəbul etməsinin səbəblərini izah edərək, deyir ki, o, islamı qəbul etməsinin səbəblərini belə izah edir: islamı ona görə qəbul etmişdir ki, islam dünyası namus, dostluğa sədaqət, Vətən yolunda qəhrəmanlığa hazır olmaq kimi əxlaqi dəyərləri daha çox saxlamışdır.

Bütün bunlar göstərir ki, qərb təbliğatının vaxtaşırı şişirdərək təbliğ etdiyi «İslam ekstremizmi» haqqında iftiralar əsası olmayan cəfəngiyyatdan başqa bir şey deyildir.

Azərbaycan prezidenti Heydər Əliyevin 1998-ci ilin 22 yanvarında Azərbaycanda ölüm hökmünün ləğv olunması haqqındakı bəyanatı yuxarıda adı çəkilən təbliğata öldürücü zərbə vurdu. Eyni zamanda həmin tədbir müsəlman Şərqində bu sahədə ilk addım olduğuna görə diqqətəlayiqdir.

***

[1] «Xalq» qəzeti, 1 oktyabr 1998.

## §1. Bakıda M.Atatürk mərkəzinin açılması Heydər Əliyevin xidmətidir

Azərbaycanda Mustafa Kamal Atatürk mərkəzinin açılması haqqında Sərəncam 2001-ci ilin 9 martında Heydər Əliyev tərəfindən imzalanmışdır. Bu mərkəzin ilk fəxri sədri Dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev olmuşdur. Sərəncamda deyilir ki, bu mərkəzin əsas vəzifəsi böyük öndər M.Atatürkün dövlətçilik təcrübəsinin Azərbaycanda geniş öyrənilməsini təşkil etməkdən ibarətdir.

Bununla əlaqədar xüsusi olaraq qeyd etmək yerinə düşər ki, Türkiyədən kənarda Mustafa Kamal Atatürkü dünyada geniş təbliğ edən ilk dövlət xadimi Heydər Əliyev olmuşdur.

Bakıda M.Atatürk mərkəzinin rəsmi açılışı 2004-cü ilin 10 aprelində olmuşdur. Rəsmi açılışda Azərbaycan dövlətinin prezidenti İlham Əliyev, Türkiyə Cümhuriyyətinin Dövlət Naziri Bəşir Atalay, Türkiyədə Atatürk yüksək Qurumunun başqanı, professor Sadıq Tural, Azərbaycan Atatürk Mərkəzinin müdiri millət vəkili Azərbaycan Milli Akademiyasının müxbir üzvü professor Nizami Cəfərov, türkdilli ölkələrin Bakıdakı səfirləri iştirak etdilər.

Azərbaycan dövlətinin prezidenti İlham Əliyev Mərkəzin açılış mərasimindəki nitqində demişdir: «...**əminəm ki, burada Azərbaycanda fəaliyyət göstərən Atatürk mərkəzində Atatürkün tarixi irsi öyrəniləcək və təbliğ ediləcəkdir**».

Mustafa Kamal Atatürk Mərkəzi 2004-cü ilin əvvəlində Bakıda tarixi bir binada açıldı və uğurlu fəaliyyət üçün bütün imkanlara malikdir. Az sonra isə 2004-cü ilin 23 aprelində burada M.Atatürk irsinə həsr olunmuş əsərlərin təqdimatı keçirilmişdir. Hər il mayın 19-da Bakıda Mustafa Kamal Atatürkün anma günü bayram kimi qeyd olunur.



## İKİ ATATÜRK

Azəri, Osmanlı türk ellərində
Tarix yetişdirdi iki nər oğlu
İyirminci əsrin gur sellərində
İki türk oldu dahi, bəşər oğlu.

***

Əsrin yarısı Mustafa qisməti
Digər yarısı Heydər ünsiyyəti
Hər ikisi ucaldı dahiliyə
Əməlləri nümunə müdrikliyə.

***

Mustafa Atatürk türkü ucaltdı
Türkiyəni örnək ölkəsi etdi.
Heydər Atatürk Azərbaycanın
Müstəqilliyini əbədi etdi.

***

Bir güclü millət, iki qardaş dövlət
Türkün dünyasında qazandı hörmət.
Türk birliyi sabahı uğurludur,
İki Atatürk bayrağı nurludur.

***

# X Fəsil. TÜRK DÜNYASININ İFTİXAR ÖLKƏSİ
## (Türkiyə Cümhuriyyətinin 80 illiyi münasibətilə)

*Azərbaycan və Türkiyə arasında mövcud olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliyi özü-özlüyündə qiymətli olmaqla yanaşı, həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər dost ölkələrlə əlaqələrimizi həyata keçiririk.*

M.ATATÜRK

2003-cü ilin 29 oktyabrında qardaş Türkiyənin Cümhuriyyət elan olunmasının 80 illiyi, həmin ilin 10 noyabrında isə bu Cümhuriyyətin ilk prezidenti Mustafa Kamal paşanın vəfatının 65 ili tamam olur.

Mustafa Kamal paşa (Atatürk) dünya tarixində dörd dəfə dalbadal ölkə prezidenti seçilmiş ilk dövlət xadimidir (ondan sonra belə bir şərəfə Amerika Birləşmiş Ştatlarında Franklin Ruzvelt layiq görülmüşdür).

Xoşbəxt təsadüfdür ki, rəmzi varislik əlaməti olaraq Azərbaycan prezidenti Heydər Əliyev Mustafa Kamal paşanın Türkiyənin Cümhur Başqanı (prezidenti) elan edildiyi 1923-cü ildə dünyaya göz açmışdır.

1923-cü ilin 29 oktyabrında Cümhuriyyət Türkiyədə dövlət forması elan edildi və böyük öndər Mustafa Kamal paşanın başçılığı altında yeni dövlətin quruculuğuna başlandı. Həmin günlərdə Atatürk demişdi: «...**Türkiyənin yeni və modern bir dövlətə ehtiyacı var. Bu məmləkət yuxarıdan aşağıya dəyişdirilməlidir. Ordu biliksiz, ləyaqətsiz zabitlərdən təmizlənməlidir. Köhnə qanunlar ləğv edilməlidir. Fəs atılmalı, qadın qəfəsdən çıxarılmalı, onlara azadlıq verilməlidir. Bir kişi bir qadından artıq başqasıyla evlənməməlidir! Kişilər və qadınlar eyni hüquqlara sahib olmalı, avropalılar kimi yaşamalıdırlar.**

**Demokratik bir cəmiyyətdə Türkiyənin bütün sosial məsələlərini həll etmək olar...**».



Qardaş Türkiyə xalqı XX əsrin 20-ci illərinin əvvəllərində öz min illiklər tarixinin ən ağır günlərini yaşayırdı. I dünya müharibəsində məğlub olmuş üçlük ittifaqı tərkibində olmuş Türkiyə ərazilərinin çox hissəsi əcnəbilər tərəfindən zəbt edilmişdi. Türkiyə ordusu öz müstəqilliyi uğrunda 20 cəbhədə döyüşlər aparırdı. Sonralar M.Atatürk Türkiyənin həmin dövrdəki vəziyyətini belə şərh etmişdir: «...Düşmənlərimiz bizim üstümüzə yunan ordusunu tuşlatdılar. O zaman düşmənə müqaviməti yalnız sıravi vətəndaşlar, Vətəni müdafiəyə ürəyi yanan vətənpərvərlər qalxdılar... Buna görə də yunan ordusu öz qarşısında zəif müdafiə xəttinə rast gəldi...».[1]

Lakin Türkiyə xalqı müstəqilliyini qorumaq əzmində idi.

Türkiyə Böyük Millət Məclisi 1921-ci ilin 5 avqustunda Mustafa Kamal paşanı Ali Baş Komandan təsdiq etdi.

1921-ci ilin 23 avqustunda Türkiyə ordusunun başladığı 22 günlük Sakarya meydan müharibəsi tarixi qələbə ilə qurtardı. Bu döyüşlərdə əldə edilmiş böyük qələbələrə görə Türkiyə Böyük Millət Məclisi Mustafa Kamal paşaya «marşal» rütbəsi və «qazı» adını verdi.

1922-ci ilin 26 avqustunda Mustafa Kamal paşanın komandanlığı altında Yunan ordusuna qarşı başlanmış «Böyük hərbi hücum» əməliyyatı avqustun 30-da tam qələbə ilə başa çatdı və Anadolu düşməndən azad edildi. Bütövlükdə isə hərbi əməliyyatlar 1919-cu ilin 19 mayında başlamışdı və 1922-ci ilin 9 sentyabrında İzmirin azad edilməsi ilə başa çatdı. Həmin ildə etdiyi çıxışların birində **Mustafa Kamal paşa demişdi**: «**Amerika, Avropa və bütün sivilizasiya dünyası bilməlidir ki, türk xalqı ... qeyri-şərtsiz azad və müstəqil yaşamağa qəti qərar veribdir**» (bax: Ulkan Qocatürk. Atatürk, Bakı, Elm,

---
[1] Kamal Atatürk. Seçilmiş nitq və çıxışları. M., 1966, s.156.

1991, s.101).

1923-cü ildə etdiyi çıxışlarının birində M.Atatürk demişdi: «***Türkiyə dövlətinin istiqlaliyyəti müqəddəsdir***».

1923-cü ilin 29 oktyabrında Türkiyənin Böyük Millət Məclisi Konstitusiyanın (Ana yasanın) 1-ci maddəsinə dəyişiklik edərək «Türkiyə dövlətinin hökümət formasının Cümhuriyyət» olmasını qərara aldı. Bundan sonra Milli Məclisdə prezident seçildi.

Mustafa Kamal paşa Türkiyə Cümhuriyyətinin Prezidentliyinə Xalq partiyası (az sonra Xalq Respublikaçılar Partiyası adlandırıldı) tərəfindən irəli sürülmüşdü (o, bu partiyanın sədri idi) və onun işləyib hazırladığı 9 maddədən ibarət təkliflər partiyanın proqram tələbi kimi qəbul olunmuşdu.

Türkiyə Cümhuriyyətinin gələcək həyatında xüsusi əhəmiyyəti olan bu proqram xarakterli tələblər aşağıdakılardır:

- hakimiyyət türk millətinə mənsubdur;
- sultanlıq ləğv edilməlidir;
- inqilabın nailiyyətləri və ölkənin təhlükəsizliyi qorunmalıdır;
- xalqa xidmət edən məhkəmə sistemi qurulmalıdır;
- aşar (vergi) sistemi xalqın sosial mənafeinə xidmət etməlidir;
- hərbi xidmətin müddəti azalmalı və hərbçilərin maddi vəziyyəti yaxşılaşdırılmalıdır;
- ehtiyatda olan zabitlərin, müharibə əlillərinin və təqaüdçülərinin həyat səviyyəsi qaldırılmalıdır;
- dövlət məmurlarının fəaliyyəti gücləndirilməli, maddi vəziyyətləri yaxşılaşdırılmalıdır;
- müharibə nəticəsində dağılmış ölkə bərpa edilməlidir.

Göründüyü kimi, prezidentin irəli sürdüyü vəzifələr proqram xarakteri daşıyırdı və sistemli görülmüş tədbirlər nəticəsində Türkiyə Cümhuriyyəti dünyanın güclü dövlətləri sırasına



çıxarıldı.

Müasir Türkiyə dövləti Mustafa Kamal paşanın dövlətçilik üzrə işləyib hazırladığı altı prinsip əsasında yaradılmışdır: respublikaçılıq, millətçilik (milli mənafeyə sədaqət mənasında), xalqçılıq (vahid xalq mənafeinə üstünlük), laisizm (dünyəvilik), etatizm (dövlətçilik), inqilabçılıq.

Atatürkün xalqçılıq prinsipi bütün millət fərdlərinin qanun qarşısında bərabərliyinə əsaslanır.

Dövlətçilik prinsipi haqda isə M.Atatürk demişdir: «Türkiyənin tətbiq etdiyi dövlətçilik sistemi, on doqquzuncu əsrdən bəri sosializm nəzəriyyələrinin irəli sürdükləri fikirlərdən alınaraq tərcümə edilmiş bir sistem deyildir....

Dövlətçiliyin, bizcə mənası budur: fərdlərin xüsusi təşəbbüslərini və fəaliyyətlərini əsas tutmaq... ölkə iqtisadiyyatını dövlətin əlinə almaq ...».

Dünyəvilik prinsipi, din və dövlət işlərinin bir-birindən ayrılmasını nəzərdə tutur.

İnqilabçılıq prinsipi: köhnəliyin ləğv edilməsi, yeniliyə, sivilizasiyaya keçməyi tələb edir.

Beləliklə, Mustafa Kamal paşanın hərbi və siyasi rəhbərliyi altında Türkiyədə Osmanlı sultanlığı əvəzinə müasir mülki dövlət quruluşu yaradıldı.

Azərbaycan hökümətinin başçısı N.Nərimanov Mustafa Kamal paşaya 1921-ci ilin 26 aprelində göndərdiyi teleqramda onu və Türkiyə xalqını Antanta dövlətləri silahlı qüvvələri üzərində tarixi qələbələrə görə təbrik edərək yazmışdı: «**Azərbaycan hökuməti inqilabi ruhlu türk xalqının onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətlərinə qarşı müqəddəs müharibəyə qalxdığı həmin günlərin sevincli anlarını təbrik edir və Sizin sevincinizə şərik olduğunu bildirir...** türk xalqı qəhrəmanlıq mübarizəsinin ikinci ilində onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətləri üzərində böyük qələbələr qazanmışdır...» (Bax, «Azərbaycan» qəzeti, 14/IV.2002).

1921-ci ilin 18 oktyabrında Ankarada Azərbaycan Şura Respublikasının səlahiyyətli nümayəndəliyinin binasının açılışı münasibətilə səfir İbrahim Əbilov Mustafa Kamal paşanı bu açılışa dəvət etmişdi və Azərbaycan bayrağının səfirliyin binası üstündə qaldırılması şərəfini ifa etməyi ondan xahiş etmişdi. Səfirliyin binasının istifadəyə verilməsi münasibətilə keçirilmiş təntənəli tədbirdəki çıxışında Mustafa Kamal paşa demişdi: «Azərbaycan və Türkiyə arasında olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliyi özü-özlüyündə qiymətli olmaqla yanaşı həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər dost ölkələrlə əlaqələrimizi həyata keçiririk».

Müstəqillik yollarında ilk addımlarını atan Azərbaycan xalqı və onun həmin dövrdəki başçısı Nəriman Nərimanov qardaş Türkiyə xalqına müvafiq köməkliklər etmişdir.

Uzun sürən hərbi əməliyyatlar nəticəsində Türkiyə dövləti iqtisadi çətinliklərlə üzləşdiyi üçün Mustafa Kamal paşa 1921-ci ilin martında Nəriman Nərimanova Azərbaycan dövləti tərəfindən Türkiyəyə borc olaraq maliyyə yardımı edilməsi haqqında müraciət etmişdi. Azərbaycan dövlətinə həmin dövrdə başçılıq edən N.Nərimanov bu köməyi təşkil etməklə yanaşı Raşaya göndərdiyi səmimi məktubunda yazmışdı: «**Paşam, qardaş qardaşa borc verməz, əl tutar**».

Türkiyə Böyük Millət Məclisi 1923-cü ilin 29 oktyabrında Türkiyəni Cümhuriyyət elan etdi və Mustafa Kamal paşa Türkiyənin ilk prezidenti seçildi.

Müasir Türkiyənin XX əsrin əvvəlində xilaskarı olmuş lideri Mustafa Kamal paşa «**dünyada sülh, cahanda sülh**» şüarı ilə çıxış etmişdir və qəhrəman türk xalqı bu məfkurəyə həmişə sadiq olmuşdur.

Türkiyənin II dünya müharibəsində iştirak etməməsi bunun bariz sübutudur. Yaddan çıxarmaq olmaz ki, Türkiyənin II dünya müharibəsində iştirakı Qafqaz xalqları və xüsusilə Azərbaycan xalqı üçün əlavə itgilərlə nəticələnə bilərdi.

Türkiyə xalqı özünün 80 illik Cümhuriyyət quruculuğu



dövründə həmişə qardaş Azərbaycan xalqının milli maraqlarına tərəfdar olmuşdur.

Böyük öndər Mustafa Kamal paşa Azərbaycan xalqına müstəqilliyi uğrunda mübarizədə həmişə dayaq olmuş, lazım gəldikdə köməyini əsirgəməmişdir. Türkiyənin xarici siyasət və hərbi xidmət məmurlarına verdiyi göstərişlərin birində o, demişdir: «**Azərbaycanın tamamilə və həqiqətən müstəqil dövlət halına düşməsinin tərəfdarıyıq və bunun üçün ... təşəbbüs göstəriləcəkdir**». (Atatürkin xarici milli siyasəti. 1919-1920-ci illər. Ankara, 1981, s.201).

Türkiyə dövlətinin inadlı təklifləri nəticəsində Türkiyə və Rusiya arasında 1921-ci ildə bağlanmış Kars müqaviləsində Naxçıvanın Azərbaycana mənsubiyyəti haqqında ayrıca bir maddə yazılmışdır və sonrakı hadisələr göstərdi ki, bu təklif Azərbaycanın dövlət müstəqilliyi istiqamətində atılmış dahiyanə uzaqgörənlik rolunu oynadı.

1933-cü ildə etdiyi çıxışların birində **Mustafa Kamal paşa demişdir: «Az zamanda çox və böyük işlər gördük... Bu işlərin ən böyüyü, təməli türk qəhrəmanlığı və yüksək türk mədəniyyəti olan Türkiyə Respublikasıdır»** (Utkan Qocatürk. Atatürk, B., 1991, s.112).

Beynəlxalq siyasətdə Türkiyə dostluq və əminamanlıq prinsipinə həmişə sadiq olmuşdur. 1937-ci ilin martında etdiyi çıxışların birində Mustafa Kamal paşa demişdir: «Bütün bəşəriyyəti bütöv bir bədənə, ayrı-ayrı millətləri isə bu bədənin üzvlərinə bənzətmək olar. Bədəndə barmağın birinin ağrıması bütün vücudda hiss olunur». Təsadüfü deyil ki, Türkiyə dövləti 1934-cü ildə Millətlər Cəmiyyətinə üzv qəbul olunmuşdu.

Dünyanın ən güclü ordularından biri olan Türkiyə ordusunun yaradılmasında Mustafa Kamal paşanın müstəsna xidmətləri olmuşdur. 1937-ci ildə etdiyi çıxışların birində o demişdir: «Türkiyə ordusunun bu şərəfli adı hamımızın ürəklərini iftixar hissi ilə doldurur... **Türkiyə ordusu türklərin polad birliyinin təcəssümüdür**».

1923-38-ci illərdə Türkiyədə həyata keçirilmiş bütün inqilabi dəyişikliklərin memarı və həyata keçirilməsinin təşkilatçısı Mustafa Kamal paşa olmuşdur. Bütün bunları nəzərə alaraq Türkiyənin Böyük Millət Məclisi 1934-cü ildə böyük xilaskar Qazı Mustafa Kamal paşaya «Atatürk» soyadı verdi.

M.Atatürk yeni qurulan Türkiyə Cümhuriyyətini köhnəlmiş osmanlı üsul-idarəsindən azad etdi: qiyafə inqilabı, əlifba inqilabı (latın qrafikasına keçid), yeni təqvimə keçid, ləqəblərdən soy adına keçilməsi, qadın hüququnun tanınması, mədəniyyət-məişət sahəsində aparılmış digər çoxsaylı islahatlar Türkiyəni müasir və güclü dünyəvi dövlətə çevirdi.

Azərbaycan prezidenti Heydər Əliyev 1999-cu ilin 6 aprelində verdiyi müsahibəsində demişdir: «**Mustafa Kamal Atatürkün şəxsiyyəti bir də ona görə qiymətlidir ki, həm Türkiyə xalqı üçün, həm bütün Türk dünyası üçün, həm də bütün dünya üçün o, qurub-yaratdığı Cümhuriyyəti yaşada bilibdir**».

Müasir Türkiyə Cümhuriyyəti türk dünyasının ən böyük və güclü dövlətidir. Hələ 1920-ci ildə M.Atatürk demişdi: «Millətimizin mənəvi keyfiyyəti çox yüksəkdir». 1928-ci ilin avqustunda etdiyi çıxışında isə bu fikrini davam etdirərək o, böyük qürur hissi ilə qeyd etmişdi: «**Bizim millətimiz utanmaq üçün yaranmamışdır. O, fəxr etmək üçün yaranmışdır. Öz tarixində o, dəfələrlə möhtəşəm uğurlar əldə etmişdir**».

1992-ci ildə Türkdilli Dövlətlər Birliyinin yaranmasında Türkiyə dövlətinin rəhbərliyi böyük xidmətlər göstərmişdir.

Türkiyənin onuncu prezidenti Necdət Sezər 2000-ci ilin iyununda Azərbaycana rəsmi səfər etmişdir. Bu, onun xarici ölkəyə ilk rəsmi səfəri idi.



# XI Fəsil. MƏDƏNİ ƏLAQƏLƏRİN GENİŞLƏNMƏSİNDƏ ORTAQ TÜRK DİLİNİN ƏHƏMİYYƏTİ

Türk dili eyni kökdən olan Azərbaycan və Türkiyə xalqlarının mədəni əlaqələrinin birbaşa genişlənməsi üçün həmişə təkan vermişdir.

Böyük Füzuli ana dilinin mədəni inkişafda rolu haqqında belə demişdir:

Dünyada insandan qiymətli inci görmədim
İnsan vücudunda sözdən dəyərli inci tapmadım.

Məşhur ədəbiyyatşünas Firudin bəy Köçərli (1863-1920) 1908-ci ildə Füzulinin «Leyli və Məcnun» əsəri və onun dili haqqında belə yazmışdır: «... bu nəsrdə Füzuli o qədər məharət və fəsahət göstərmiş ki, və əhvali-keyfiyyəti-şühədanı elə bir gözəl və şirin dil ilə yazmış ki, əhli-zövq və ərbabi-mərifətində onun dərəcə və mənziləti çox nəzmlərdən artıqraqdır. Bu vaxta kimi füşəhayi-türk və əcəmdən bir kəs belə bir xoş ibarəli və şirin ləhcəli və gözəl işvəli əsər vücuda gətirməyibdir, desək, səhv etməmiş olarıq».[1]

Böyük özbək şairi Əlişir Nəvai (1441-1501) «Mühakimətül Lüğəteyin» əsərində türk dilinin fars dilindən zəngin olduğunu sübut etmişdir. Bu fikri məşhur türk mütəfəkkiri Mahmud Kaşğarı (XI əsr) də özünün «Divani Lüğət-it-Türk» (1072-1074) əsərində əsaslandıraraq, yazmışdır ki, «Türk dilləri fars dilindən daha zəngin, incə və gözəldir».

Görkəmli şair Əhməd Cavad 1913-cü ildə yazdığı «Dilimiz» şerində Azərbaycan dilinin yad sözlərindən gəlmə ifadələrdən təmizlənməsi qayğısını güclü müdafiə etmişdir. O, eyni zamanda ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsinin qızğın tərəfdarlarından biri olmuşdur.

[1] Firudin bəy Köçərli. Azərbaycan ədəbiyyatı. Bakı, 1978, 1 cild, s.89-90.

Tanınmış dilçi alim professor Bəkir Çobanzadə «Doğma dil» şerində yazmışdı:

Türkdə, tatarda sənin sözlərin
İkisi iki cüt qəmli gözlərin.

Türk-tatar dilinin zənginliyini və gözəlliyini nəzərdə tutaraq B.Çobanzadə həmin şerində xüsusi olaraq qeyd edir: «Bir böyük sirrimsən, düşmənlər bilməz».

XIX əsrin sonlarına doğru Türkiyə türklərinin dili tənzimat islahatı dövrü (1869-1878) ərəb-fars sözlərindən azad edilmişdisə də, Avropa dillərindən olan sözlərin (xüsusilə fransız dilindən) daxil edilməsi halları çoxalmışdı. Təkcə onu demək kifayətdir ki, M.Atatürkün 6 dövlətçilik prinsipindən ikisinin adı firəng dilindən götürülmüşdür: etatizm (etat – dövlət), laisizm (laisite – dünyəvi).

Gənc türklər inqilabı (1908) dövründə türk dilinin təmizlənməsi istiqamətində də müəyyən tədbirlər görülmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 27 iyun 1918-ci il qərarı ilə «Dövləti-lisan (dövlət dili) türk dili» qəbul olunmuşdur.[1].

Məhəmməd Əmin Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» əsərində (1932) yazmışdı: «Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər. Kəndi ləhceyi-məxsusilə Anadolu türkcəsinə yaxın bir şivə ilə danışan Azərbaycan türkü müxtəlif şivələrə malik və olduğu yerlərə nisbətlə müxtəlif isimlər böyük türk ağacının dilidır».[2]

Böyük mədəniyyət xadimi Cəlil Məmmədquluzadənin əsərlərində «türk-azərbaycan dili», «türkcə» üslubları vardır.

---

[1] Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcmuəyi. №1, 1919, s.18.

[2] M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti, B., 1990, s.12.



1921-ci ilin 27 aprelində Nəriman Nərimanovun dövlət dili haqqında imzaladığı fərmanda da dilimizin adının «türk dili» olması göstərilmişdir.

Sovet üsul-idarəçiliyinin ilk illərində (1921-1931-ci illər) rəsmi sənədlərdə dilimiz «türk dili» adlanmışdır. Lakin 1936-ci ildə qəbul edilmiş SSRİ Konstitutsiyasında «türk» etnonimi «azərbaycanlı», «türk dili» isə «Azərbaycan dili» üslubu ilə əvəz olundu.

SSRİ-də yaşayan türkdilli xalqların yazı dilində savad almalarını asanlaşdırmaq üçün 1922-ci ilin 22 iyununda Bakıda «**Yeni türk əlifbası komitəsi**» yaradılmışdı və bu komitə böyük uğurlarla fəaliyyət göstərdi.

Azərbaycan respublikasında latın qrafikası əsasında yeni əlifba ilə məktəblərdə tədrisə 1927-ci ilin sonunda keçildi. SSRİ-nin bütün türkdilli və müsəlman respublikalarında (taciklər farsdilli xalqlar qrupuna daxildir) yeni əlifbaya keçid 1928-ci ildə başa çatdırıldı. Bu sahədə görülən tədbirlərə ümumi rəhbərlik üçün 1926-cı **ildə Yeni türk əlifbasının Ümumittifaq mərkəzi komitəsi** (mərkəz – Bakıda olmaq şərti ilə) yaradılmışdı.

1926-cı ilin 1-6 fevralında Bakıda keçirilmiş I Türkoloji qurultay yeni əlifbanın qəbulu və tətbiqi sahəsində görülmüş işlərə yekun vurdu.

Türkiyə Cümhuriyyət elan olunduqdan (1923) sonra dil sahəsində əsaslı islahatlar həyata keçirilməyə başlandı və burada 1928-ci ildə (Azərbaycandan bir il sonra) latın qrafikalı əlifbaya keçildi.

1932-ci ildə Mustafa Kamal Atatürkün təşəbbüsü ilə yaranmış «Türk Dil Qurumu» ana dilinin lüğət tərkibinin yabançı sözlərdən təmizlənməsi işini davam etdirdi.

Ankarada yaradılmış «Türk Dili və Ədəbiyyatı Araşdırmalar İnstitutu» müasir türk dilinin öyrənilməsi mərkəzlərindən biri idi və 1951-ci ildən başlayaraq «Türk dili» adlı məcmuə nəşr edirdi. Həmin dövrdə M.Atatürk demişdir: «Türk millətİ-

nin dili türkcədir. Türk dili türk milləti üçün müqəddəs bir xəzinədir. Çünki türk milləti keçirdiyi fəlakətlər içində əxlaqını, ənənələrini, xatirələrini, mənfəətlərini, qısacası, bu gün öz millətini ayaqda tutan hər şeyinin, dili sayəsində mühafizə olunduğunu görür. Türk dili türk millətinin qəlbidir, zehnidir... türk dili dillərin ən zənginlərindəndir».

Türk dili dünyanın ən zəngin dillərindəndir. Təkcə onu demək kifayətdir ki, rus dilində 2000-ə qədər türkizm (türk dilindən götürülmüş sözlər) vardır. Azərbaycanda tanınan, lakin rusların işlətdiyi 24 soy adı (Axmatov, Bulatov, Timiryazev, Karamzin və s.) türkmənşəlidir.

Azərbaycan dili (türkcəsi) də öz incəliyi, ahəngdarlığı və axarlığına, lüğət tərkibinin zənginliyinə görə bir çox dillərdən əsaslı surətdə seçilir. Ustad şair Şəhriyar «Türkün dili» şerində ana dilimizi belə səciyyələndirmişdir:

Türkün dili tək sevgili, ehtiraslı dil olmaz
Ayrı dilə qatsan, ədəbiyyat əsil olmaz.

İstanbul universitetində italyan dili və ədəbiyyatını tədris edən müəllimə xanım Betul Parlaq belə deyir: «**Azərbaycan dili çağlayan bir bulaqdır. Nə qədər danışırsan-danış, düzümü, şirinliyi, ədəbiliyi öz-özünə süzülüb gəlir. Bu dili başa düşənlər, incəliyini duyanlar ona vurulmaya bilməzlər**».[1]

XX əsrin əvvəllərində Azərbaycan dilinə yad təsirlər mövcud idi. Bu təsir özünü daha çox lüğət tərkibinə ərəb, fars və rus sözlərinin daxil edilməsində göstərirdi. Bu sahədə ikinci bir narahatlıq və ola biləcək səhv tədbir isə yenicə qəbul edilmiş latın qrafikalı əlifbanın dəyişdirilməsi əhvali-ruhiyyəsi ilə əlaqədar idi.

[1] Bax, «Xalq» qəzeti, 21 avqust 1999.



SSRİ-də 30-cu illərin siyasi ideologiyası və abu-havası (repressiyalar) göstərdi ki, mərkəz (Moskva) latın qrafikalı əlifbaya keçmək tədbiri ilə tam razı deyilmiş və 30-cu illərin ikinci yarısında bu haqda açıqcasına deyilirdi: yeni əlifbaya keçilməsi xeyli vəsait tələb etsə də, Mərkəz buna razı idi.

1939-cu ilin sonunda SSRİ-nin bütün müsəlman respublikalarında olduğu kimi Azərbaycanda da kiril əlifbasına keçilməsi haqqında qərar qəbul edildi. Əlbəttə, bu addım Sovet rəhbərliyinin SSRİ-nin müsəlman xalqlarının müsəlman şərqinin və islamın təsirindən çıxarmaq məqsədini güdürdü. Rəsmi sənədlərdə isə bu addım həmin xalqların mütərəqqi rus mədəniyyətinə daha tez yaxınlaşması qayğısı ilə izah edilirdi. Halbuki, gürcülərin və ermənilərin əlifbası dəyişilmədi.

1970-ci ildən başlayaraq Bakıda «Sovet türkşünaslığı» adlı elmi-nəzəri jurnal türk və rus dillərində nəşr olunurdu və dünyanın bütün türkşünasları tərəfindən yüksək qiymətləndirilmişdi (Qeyd edək ki, eyni zamanda Türkiyədə «Türk dili» jurnalı nəşr edilirdi). Bakıda nəşr edilən həmin jurnal 1975-ci ildə 4 min tirajla çap olunaraq ABŞ, Türkiyə, İngiltərə, Yaponiya, Fransa, İraq, İsveçrə, Macarıstana və digər ölkələrə göndərilirdi.

Azərbaycan 1991-ci ilin oktyabrından öz müstəqilliyini bərpa etdikdən sonra ana dilimizin adı da geniş müzakirələrdən sonra «Azərbaycan dili» olaraq qəbul edildi. Görünür, XX əsrin birinci yarısında bəzən işlədilmiş «türk dili» üslubuna qayıtmağa ehtiyac duyulmadı.

Azərbaycan prezidentinin 2001-ci il 18 iyun tarixli «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərmanında deyilir: «**Azərbaycan dilinin dünya dilləri arasında ən kamil dillərdən biri olduğu həqiqətini bir çox xalqların görkəmli nümayəndələri dönə-dönə etiraf etmişlər. Onlar öz əsərlərində bu dili XX əsrdə Avropada geniş yayılmış fran-**

**sız dili ilə müqayisə edərək, onu Avrasiyanın hər tərəfində işlədilən bir dil kimi yüksək qiymətləndirmişlər».**[1]

Azərbaycan dilinin işlədilməsi imkanlarını genişləndirmək məqsədilə 2002-ci ilin 30 sentyabrında ölkə Prezidentinin imzası ilə «Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu» elan edildi və latın qrafikası əsasında yeni yazıya keçildi.

Təəssüf edilməlidir ki, gözəl ana dilimizi bilməməyi özünə qüsur hesab etməyən bəzi «milli» ziyalılar hələ də vardır. Beləlsri bəzən «Sovet dövrünün tələbi» pərdəsi altında özlərinə bəraət qazandırmaq istəyirlər. Lakin bu dəlil də əsassızdır. Sovet dövründə də hər hansı bir ziyalıya (və xüsusilə rəhbər işçiyə) öz ana dilini bilmək tövsiyə edilirdi.

Görkəmli filosof Heydər Hüseynovun redaktorluğu ilə 1941-ci ildə nəşr edilmiş «Azərbaycanca-rusca lüğət» kitabının «Redaksiyadan» adlı ilk məqaləsinin birinci səhifəsinin əvvəlində bu haqda belə yazılmışdı: «Hər bir rəhbər işçi üçün öz respublikasının dilini öyrənmək mühüm bir vəzifədir, çünki anlamaq və yadda saxlamaq lazımdır ki, rəhbər partiya və sovet işçilərinin öz respublikalarının dilini bilməməsi, içərisində işləməli olduqları xalq ilə, kütlələr ilə onların orqanik rabitəsinin pozulmasına səbəb olur» («Pravda» qəzeti).

Göründüyü kimi, hələ 1941-ci ildə hakim partiyanın mərkəzi qəzeti olan «Pravda» qəzeti SSRİ-nin müttəfiq respublikalarında həmin respublikaların adını təmsil edən xalqların ana dillərinin də öyrənilməsini vacib hesab edirdi. Yuxarıdakı iqtibası gətirməkdən məqsədimiz öz ana dilinə nankor münasibət bəsləyənlərə anlatmaqdır ki, Sovet dövründə də Ana dilinin qayğıkeşləri olmuşdur.

Təəssüflə qeyd etmək lazımdır ki, son vaxtlar Azərbaycan dilinin öz kökü üzərində inkişafına qayğı azalmışdır. Televiziya verilişlərində teksun yağının reklamındakı dialoqda biri «okey»

[1] «Xalq» qəzeti, 19 iyun 2001.



deyəndə, o biri (xarici) «müsibət» (?) deyir. Axı, müsibət sözünün **əsas** mənası tamamilə başqadır! Və yaxud da, «**dəstəkləmək**» sözünü götürək. Bu sözü son zamanlar süni olaraq Azərbaycan dilində yerli-yersiz işlədirlər. Görünür, bəzilərinə belə gəlir ki, indi bu sözü işlətməsək türk qardaşlarının xatirinə dəyər. Axı, Azərbaycan dilində əsrlərdən bəri dəstək sözü «ağaca dəstək», «divara dəstək» mənasında işlədilib. Hörmətli yazıçımız Mirzə İbrahimov məşhur romanına «Böyük **dayaq**» adı verib. Hesab edirəm ki, insanlara və cəmiyyətə aid ifadələrdə süni olaraq dəbə düşmüş dəstək əvəzinə dayaq sözünü işlətmək daha uyğundur. Türk qardaşlar bundan inciməzlər.

Ortaq türk dilinin yaradılması, türkdilli xalqların belə bir dil yaradılması yolunda fəaliyyətlərini davam etməyi tələb edir və bu istiqamətdə işlər zəif də olsa aparılır.

Türk dili qurultaylarının keçirilməsinə Türkiyədə 1933-cü ildən başlanmışdır və 1982-ci ildə növbəti XVIII qurultay keçirilmişdi. 1982-ci və 1987-ci illərdə Türkiyədə Millətlərarası (uluslararası) Türk folklor konqresləri (Ankarada) keçirilmişdir.

Ulu M.Atatürk bu sahədə görülən işlərə böyük əhəmiyyət verərək Türkiyə Cüshuriyyətinin 10-cu ildönümündəki çıxışında demişdir: «Bu gün Sovet İttifaqı dostumuzdur. Bu ölkənin idarəsində dili bir, inamı bir, soyu bir qardaşlarımız var; onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq yalnız o günü susub gözləmək deyildir. Hazırlanmaq lazımdır; millətlər buna necə hazırlanır? Mənəvi körpüləri sağlam tutaraq. **Dil bir körpüdür..., inam bir körpüdür... tarix bir körpü...!**».

2004-cü ilin 17-21 martında Bakıda II Uluslararası Folklor konfransı keçirildi. Azərbaycanın Milli Elmlər Akademiyasının, Folklor institutunun keçirldiyi bu konfransda Türkiyə, Kipr, Qazaxıstan, Türkmənistan, İran (Cənubi Azərbaycan), İraq və Dağıstandan türkşünas alimlər iştirak etmişlər.

Türk dünyası ölkələrinin xalqları üçün mühüm əhəmiyyət kəsb edən əsas tədbirlərdən biri də **ortaq dil** və **əlifba** məsələsidir. Ortaq türk dili məxrəcinə gəlmək türkdilli xalqların yazılı

ədəbiyyatının tərcüməsiz olaraq oxunması və anlaşılması kimi böyük bir tədbir üçün şərait yaradardı. Bundan ötrü isə görünür, ortaq əlifbaya nail olmaq üçün yazı islahatından başlamaq lazımdır.

Məşhur dilçi mütəxəssis professor S.Y.Malov türk dillərinin təsnifini ən qədim, yeni və ən yeni qruplar dairəsində şərh etmişdir. Bununla belə, bu dillərin mənşəi və əsas lüğət fondu ümumidir və buna görə də bir dil qrupuna daxildirlər.

Türkdilli xalqların ortaq problemlərinin şərhinə həsr olunmuş ədəbiyyat hələlik məhduddur. 1959-cu ildə professor F.Zeynalovun Azərbaycan Dövlət Universiteti nəşriyyatında «Türk dillərinin müqayisəli qrammatikasına dair oçerklər» (həcmi 110 səh.) kitabı nəşr olunmuşdur. Müəllif həm filologiya, həm də tarix elmləri üzrə ali təhsilə malik olduğu üçün, belə çətin bir mövzu haqqında müəyyən ümumiləşdirmələrə əsaslanan oçerk yaza bilmişdir.

Türkdilli xalqlar üçün ilk ortaq tədbirlərdən biri **ortaq əlifba** ola bilər.

Türkiyədə 1928-ci ildə qəbul edilmiş latın qrafikalı əlifba həmin dövrdən fasiləsiz olaraq işlənir. Azərbaycanda və Mərkəzi (Orta) Asiya respublikalarında (Qırğızıstan, Özbəkistan, Türkmənistan və Qazaxıstan) 30-cu illərin sonunda latın qrafikasından kiril qrafikasına (Sovet rəhbərliyinin şovinist siyasəti nəticəsində) keçilsə də, təxminən 10 il ərzində latın qrafikası, adı çəkilən respublikaların xalqlarının mədəni həyatına müsbət təsir etmişdir və yaşlı nəslin ahıl təbəqəsi hələ də latın qrafikasını unutmamışdır.

Bundan əlavə Sovet hakimiyyəti illərində tədris edilən xarici dillərin əksəriyyəti latın qrafikası (əlifbası) əsasında olan dillər olduğu üçün bu da latın qrafikasına qayıtmağa kömək etdi.

Azərbaycanda latın qrafikası əsasında yazıya keçilməsi (qayıdılması) haqqında qərar 1992-ci ildə verilmişdir və nəzərdə tutulurdu ki, bu keçid qısa bir müddətdə həyata keçirilə bilər.



2000-ci ilə qədərki dövrdə Azərbaycanda gündəlik mətbuatın müəyyən səhifələri latın qrafikasında çap olunurdu. Bundan əlavə «Müstəqilliyimiz əbədidir» kitabının (5000 tirajla) 8 cildi, «Molla Nəsrəddin» məcmuəsinin (12 cildlik) birinci cildi, B.Vahabzadənin «Zaman və mən» kitabı və bir neçə digər (həcm etibarilə xırda), kitablar bu qrafikada buraxılmışdır. Bunlardan əlavə «Dünya türkləri» seriyasından «Qaqauzlar» (müəllifi Güllü Yoloqlu, 1996), «Ahıska türkləri» (Əliapaşa Ənsərov, 1996), «Uyğurlar (Əbülfəz Rəcəbov, 1996) adlı kitablar da latın qrafikasında nəşr edilmişdir. Eyni sözləri «Azərbaycan Ensiklopediyası» nəriyyatı haqqında da demək olar. Məsələn, burada, M.Füzulinin iki cildliyi, «Azərbaycanın tarixi xəritələri» və digər kitablar latın qrafikasında buraxılmışdır.

«Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyi ilə əlaqədar olaraq bu mövzuda buraxılmış kitabların əksəriyyəti də latın qrafikasındadır.

Azərbaycanda nəşr olunan «Ədəbiyyat qəzeti» redaksiya şurası tərkibində Türkiyədə, İraqda, İranda, Özbəkistanda, ABŞ-da, Almaniyada, İngiltərədə, Rusiyada və Fransada yaşayan azərbaycanşünasların (türkşünasların) olması da diqqətəlayiqdir.

Türk xalqları vahid ümumi mənşəyə malik qohum xalqlardır. Buna görə də onların dillərindəki lüğət fondunda güclü yaxınlıq mövcuddur və deməli, vahid lüğət fondu yaradılması haqqında da fikir yürütməyə əsas verir.

Türkiyədə XX əsrin 30-cu illərində milli dil üzrə keçirilmiş islahatlar nəticəsində lüğət tərkibinə əcnəbi dillərdən alınma bir sıra sözlər qəbul edildi: abstre sözündən abstrakt, agent (agentlik), aktualite (aktuallıq), ambulans (poliklinika), anarşi (anarxiya), apartman (ev), abone (əbunə), ajans (agentlik), ajan (agent), departman (idarə), interesan (maraqlı), lokanta (kiçik

yeməkxana), noter (notarius), ofis (idarə), parfum (ətir), petrol (benzin), proje (layihə), serviz (xidmət).

Anadolu türkləri dilində ə, x, j səs və hərflərinin olmaması ilə əlaqədar olaraq mənasına uyğun yaranan sözlər də çoxdur: alfabe (əlifba əvəzinə), alfabesöz (savadsız), acir (icarə), aldati (saxtakarlıq), allahaismarladık (xudahafiz), anlamsız (mənasız), arabulucu (vasitəçi), ahitname (müqavilə), alduti (hiylə), anlam (məna), çeviri (tərcümə), işbirligi (əməkdaşlıq), işlem (əməliyyat), kafalı (ağıllı), kat (mərtəbə), kultur-fizik (bədən tərbiyəsi), okul (məktəb), okulyazar (savadlı), cevırmen (tərcüməçi), çeviri (tərcümə).

Türk dilində olan bəzi söz düzəltmələr azəri türklərinin düşüncə tərzinə tam uyğun gəlmir: dəstəkləmək (arxa olmaq), baltalama (təxribat), çapalama (cəhd etmək), direniş (müqavimət), kilo almaq (kökəlmək), kocasız (ərsiz qadın), kuram (nəzəriyyə).

Digər tərəfdən ərəb sözlərindən imtina edərkən başari (müvəffəqiyyət), beddua (lənət), çağrılıq (dəvətnamə), deyim (ifadə), dilekçe (ərizə), sınırlı (əsəbi), sözlev (nitq) kimi sözlər uğurla tapılmış və qəbul edilmişdir.

Anadolu türkcəsində bir çox sözlərin mənasında (məzmununa görə) Azərbaycan dili ilə müqayisədə fərq çox azdır: bildiri (xəbər: azərbaycancada: bildiriş), bilgili (bilikli), öğrençi (şagird, tələbə), oğretmen (müəllim), öndər (lider), öngoren (uzaqgörən), özel (şəxsi).

Ortaq türk dili yaradılması çətin bir proses olsa da mümkündür. Belə ki, türk dilləri iltisadi dillərdir, yəni yeni sözlər söz kökünə şəkilçi artırılmaqla yaradılır. Bu üsuldan istifadə edərək forma fərqlərini asanlıqla yaxınlaşdırmaq olar.

Hazırda Anadolu türkü azəri türkünə irad tuta bilər ki, Azərbaycan dilində «İnsan maşından **düşür**» və «alma ağacdan **düşür**» deyilir. Azəri türkü üçün Anadolu türkünün papirosun **çəkilməsi** yox, **içilməsi** deyimi çətin qavranılır. Bunlara oxşar iradlar üzrə də ortaq üslub tapmaq olar.



Türkdilli xalqların dillərində belə forma fərqlərinin mövcudluğu, görünür, həmin xalqların qədimdə pərakəndə və biri-digərlərindən uzaqda yaşamaları ilə əlaqədardır. Burada, Dağıstan filosofu professor Əhəd Ağayevin XX əsrin 70-80-cı illərində SSRİ-nin ayrı-ayrı Cümhuriyyətlərində keçirilmiş elmi konfranslarda söylədiyi bir lətifə yada düşür: Ulu Tanrı Həzrət Cəbrayıla bir meşoq danışıq dili verərək, tapşırır ki, harada insan məskəni görərsə, meşoqun ağzını açaraq, bu dillərdən onlara paylasın. Həzrət Cəbrayıl dilləri paylayaraq Qafqaz dağları üstündən uçarkən, Tanrıya müraciət edərək deyir ki, hamıya danışıq dili paylamışdır, lakin meşoqda hələ çox dil qalmışdır. Guya Tanrı Həzrət Cəbrayıla icazə verir ki, həmin meşoqda qalmış bütün dilləri Qafqaz dağları üstündən uçarkən aşağı səpələsin! Buna görə də təkcə Dağıstanda 30-dan çox danışıq dili mövcuddur... Əlbəttə, bu bir lətifədir.

Türk dünyası üçün ortaq türk dili məsələsi həyati məsələdir. Bu, eyni zamanda türk dilinin Birləşmiş Millətlər Təşkilatında işlək dil kimi qəbul edilməsi imkanı məsələsidir. Təəssüflər olsun ki, ortaq türk dili məsələsi türk dünyasında gah yada düşür, gah da unudulur. Halbuki, bu məsələ unudulmamalıdır.

2004-cü ilin 17 iyununda Bakıdakı Atatürk Mərkəzində «Latın əlifbası Azərbaycanda, Türkiyədə və Türk dünyasında» mövzusunda Beynəlxalq konfrans keçirilmişdir. Bu tədbir Azərbaycanda «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» ölkə prezidenti, ümummilli lider Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli fərmanının 3-cü ildönümünə həsr olunsa da, beynəlxalq əhəmiyyətli bir tədbir səviyyəsində keçirildi. Konfransda «Latın əlifbasının Ümumdünya əməkdaşlığına təsiri», «Türk ölkələrinin inkişafında latın əlifbasının əhəmiyyəti» məsələlərinə aid məruzələr dinlənilmiş və müzakirələr edilmişdir.[1]

[1] Bax: «Respublika» qəzeti, 18 iyun 2004.

# XII Fəsil. İSLAM MƏDƏNİYYƏTİNİN TÜRK QOLUNDA ƏXLAQİ DƏYƏRLƏRİN TÜRK BİRLİYİNƏ MÜSBƏT TƏSİRİ

İslam, bu dinə itaət edənləri həmişə mənəvi saflığa, müsəlman əxlaqi dəyərlərinə riayət etməyə dəvət etmişdir. Bütün əxlaqi dəyərlər mədəniyyətin tərkib hissəsinə daxil olduğu üçün onlar millətin və onun dövlətinin möhkəmliyinin əsas meyyarlarından biridir.

Azərbaycan türkləri 1991-ci ildə öz dövlət müstəqilliklərini bərpa etməklə yanaşı tarixən itaət etdikləri islam dininə qayıtdılar.

İslam dininin qəbul etdiyi dövlət quruculuğu prinsipləri içərisində ədalət prinsipi birinci yerdədir. Qurani-Kərimin 4-cü «Ən Nisa» surəsinin 58-ci ayəsində deyilir: «Allah Sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir».

Müsəlman şərqində dövlət anlayışı Qərb (xristian) ölkələrindən daha əvvəl yetişmişdir. Buna uyğun olaraq islam mədəniyyəti də Qərb mədəniyyətindən daha qədimdir. İngiltərə şərqşünası U.M.Uott «İslamın orta əsr Avropasına təsiri» (Edinburq, 1972, Moskva 1976) adlı əsərində yazmışdır ki, Şərqin müsəlman xalqlarının yaratdıqları əzəmətli elmi irs «ən azı XVII əsrə qədər yüksək səviyyədə qalmışdır».

İslam dininin məzmununda iki sahə xüsusi yer tutur: islami inam və islami ayinlər. İslami inam dedikdə buraya daxildir: Allahın vahidliyinə (təkliyinə) inam, Peyğəmbərə inam (Həzrəti Məhəmməd Allahın Rəsuludur); Qurani-Kərimə inam, Mələklərin olmasına inam, Qiyamətə inam, Taleyə inam.

İslami ayinlər (fəaliyyətlər) sırasına daxildir: namaz, zəkat-sədəqə, oruc, həcc (Məkkəyə ziyarət). Birinci üç ayinin icrası haqda belə bir kəlam var: namaz qılmaq müsəlmanın Allaha doğru inam yolunun yarısı, oruc tutmaq bu yolun üçdə ikisi qədərdir; sədəqə vermək isə onu Allaha daha da yaxınlaşdırır.



Məkkəyə ziyarət haqda isə nəzərdə tutulur ki, hər bir müsəlman ömrü boyu bir dəfə Məkkəni ya özü ziyarət etməli, yaxud da bunu etməyi inandığı digər şəxsə tapşırmalıdır.

İslamın böyük təbliğatçısı olan professor Seyid Qutb «İslamda sosial ədalət» kitabında (1950-ci il) bu dəyərləri geniş şərh etmişdir. İslamda ədalət və bərabərliyə əsaslanan təlim çox güclü olduğuna görə bu təlim onun yaradıcısı həzrət Məhəmməd dünyasını dəyişəndən sonra nəinki zəiflədi, əksinə xeyli möhkəmləndi və daha geniş ərazilərə yayıldı.

Fransanın böyük maarifçisi Fransua Volter (1694-1778) demişdir: «Türklər qazandıqları zəfəri ruhlarda və nəsillərdə yaşatmağın üsulunu bilirlər». Məlumdur ki, türklər müharibədə məğlub etdiyi şəxslərlə şəfqətlə davranmışlar.

Dünya ədəbiyyatında «Şərq əxlaqı» üslubu tərkibində türk-müsəlman xalqlarının mənəvi dəyərləri xüsusi yer tutur. Buraya ilk növbədə ailə-kəbin və əxlaq məsələləri, vicdan azadlığı, namus məsələsi daxildir. Görkəmli türk alimi Ziya Göyalp «Türkçülüyün əsasları» adlı əsərində yazmışdır: «Türkün dili necə sadədirsə, din, əxlaq, gözəllik (bədii), siyasət, iqtisadiyyat və ailə həyatları da tamamilə sadə və səmimidir».[1]

Türkdilli xalqların milli adət və ənənələrinin əksəriyyəti islami dəyərlər əsasında yaranmışdır. Lakin türkdilli xalqlarda əxlaqi dəyərlər hələ onların islamı qəbul etməsindən əvvəl də ədalətli olmuşdur.

Qədim türklər islama qədərki dövrdə Göytanrı dininə sitayiş etmişlər və onlarda qadınlar üzü açıq gəzmişlər.

Nizami Gəncəvi «İskəndərnamə» poemasında (XII əsr) yazır ki, fateh İskəndər (Makedoniyalı Aleksandr) öz ordusu ilə qədim türklərin yaşadıqları qıpçaq çöllərinə yetişərkən, el ağsaqqallarını hüzuruna çağıraraq, onlardan qadınlarının nə

[1] Ziya Göyalp. Türkçülüyün əsasları. B., 1991, s.47.

üçün üzü açıq gəzdiklərini soruşduqda, ağsaqqallar İskəndər Fatehin bu sorğusuna cavab olaraq demişlər:

Üz örtmək ayini qoy olsun sənin,
Bizə də göz örtmək olmuşdur ayin.
Baxmamaq gərəkdir naməhrəm üzə
Nə suçu var üzün, cəza ver gözə.
Örtü salmaqdansa xalqın üzünə
Özün bir örtük çək, baxan gözünə.

Nizami Gəncəvinin müasiri, görkəmli Azərbaycan filosofu Şeyx Şihabəddin Yəhya Sührəvərdi (1145-1234), «nur (işıq) fəlsəfəsi» adlı təliminə tərəfdarlar tapmaq və geniş yaymaq üçün Türkiyə və İranın bir sıra şəhərlərini gəzib dolaşmışdır. Nizami Gəncəvinin «Yeddi gözəl» poemasında «Xeyirlə şərin hekayəti»ndə nur fəlsəfəsinin təsiri hiss olunmaqdadır. Şər tərəfindən gözləri çıxarılan Xeyir nurdan məhrum olduqda, onun gözlərini iqtidar qoca sağaldır.

Nur fəlsəfəsi Qurani-Kərimdə də öz əksini tapmışdır. Quranda 24-cü surə «Nur» surəsi adlanır. Bu surənin 8-ci ayəsində deyilir: «Belə isə Allaha, onun peyğəmbərinə və nazil etdiyimiz nura inam gətirin». Deməli, «nurlar nuru» olan Allah, öz rəsulu «Nuri Məhəmməd» vasitəsilə bəşəriyyətə «göylərdən nazil olmuş nur»i, yəni Qurani bəxş etmişdir.

Azərbaycan dilində «gözümün nuru», «nuri-didəm», «nuri-çeşmim» üslublarından indi də istifadə edilir.

İslam saflığı təbliğ edən dindir. Ona itaət edən türklərdə yalan danışmaq və yaxud da insanı aldatmaq böyük qəbahət sayılır. Bu mənada A.Bakıxanovun «Gülüstani İrəm» əsərində yazılmış bir əhvalat diqqətəlayiqdir: «Rum qeysəri Tiberinin elçisi dost olduqlarını bildirmək üçün türk xanının yanına (miladi 580-ci ildə) getmişdi. Xan ona dedi: Siz o rumlular deyilsinizmi ki, on dildə danışıb hamısı ilə də insanları eyni dərəcədə aldadırsınız? Biz türkük, yalan və aldatmaq bilmərik... Bilməlisiniz ki, məşriqdən məğribə qədər bütün aləm mənim itaətimdədir».[1]



Tarixi ədəbiyyatdan məlumdur ki, Qafqazda islamın yayılması Azərbaycandan başlanmışdır. İslamın Qafqaza yayılması Hicrətin 17-ci ilindən başlayaraq, Xəlifə Ömərin dövründə olmuş və 7-ci əsrin 30-cu illərində qurtarmışdır. Yerli əhali Sasanilərin (İran) və Bizansın (Roma) zülmündən cana doyduğu üçün islami gətirən ərəbləri xilaskar kimi qəbul etmişdilər.

Ziya Göyalp yuxarıda adı çəkilən əsərində yazmışdır: «milli həmrəyliyi gücləndirmək üçün hər şeydən əvvəl vətəni, əxlaqi yüksəltmək lazım gəlir».[2]

Müsəlmanlığa xas olan mənəvi keyfiyyətləri: inam, ədalət, halallıq, sözünə düzlük Sovet üsul-idarəsi illərində Azərbaycanda xeyli zəiflədi. Halbuki, məşhur «Əkinçi» qəzeti hələ 1876-cı ilin 25 iyul sayında yazmışdı: «İnsanlığın əvvəlinci şərti insaf, doğruluq və əldən gəldikcə qeyrilərə yaxşılıq eləməkdir». Ona görə də türklük «haqq və ədalətdir».

Ümumiyyətlə, qoca Şərq üçün doğruluq və insanlara yaxşılıq etmək ləyaqətin meyarı sayılır. Həmin əxlaqi keyfiyyətlər bu gün də bizim üçün vacibdir. Həm də ona görə ki, imana qayıdış olmasa, islama qayıdış süni olaraq səslənər və təsirli olmaz.

Türkdilli xalqların 7-ci əsrdə islamı qəbul etməsi onların tarixi inkişafında, o cümlədən sonralar millət kimi formalaşmasında, düşüncə tərzində xeyirxahlıq, ədalət, humanizm, vətən sevgisi, doğruluq, halallıq, böyüyə və qadına hörmət və ehtiram kimi əxlaqi keyfiyyətlərin geniş və dolğun təcəssüm olunmasında həlledici rol oynamışdır.

Avropalı müsəlman alimi Məhəmməd Əsəd «İslam iki yol ayrıcında» (Laxor, 1955) kitabının 51-52-ci səhifələrində yazır ki, mənfəətpərəstlik əxlaqının təsiri nəticəsində «avropalı

---

[1] A.Bakıxanov. Gülüstani-İrəm. Bakı, 1951, s.31-32.
[2] Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, 1991, s.75.

ata günbəgün öz oğluna təsirini getdikcə daha çox itirir və oğul da atasına hörməti itirir». Və beləliklə ailədə «ata ilə oğul arasında əvvəllər olan böyük-kiçiklik münasibəti köhnəlməyə başlayır».

Bu (əxlaqi) təsir hər şeydən əvvəl İslam dininin və onun peyğəmbəri Məhəmməd Rəsulillahın adı ilə bağlıdır.

Məşhur Fransa tarixçisi Lamartin «Türklərin tarixi» əsərinin II cildində (Paris, 1854) yazmışdır ki, əgər insan dühasının böyüklüyü, qarşısına qoyduğu məqsədin möhtəşəmliyi, bunun reallaşması üçün az məsrəf sərf olunması və əldə edilən cahanşümul nəticələr kimi üç meyyarla ölçülərsə, müasir tarixdə bu məsələdə Məhəmməd ilə müqayisə olunmağa kim cürət edə bilər? ... Məhəmməd qanunlar yaradılmasına, ordular yaratdığı iyirmi imperiya xalqlarına dünyanın üçdə bir hissəsində yaşayan milyonlarla insanlara rəhbərlik etmiş, ölümündən sonra isə böyük şöhrətə nail olmuşdur. O, saysız-hesabsız sosial və siyasi islahatların, əxlaq normalarının müəllifi hesab edilə bilər». Məşhur filosof Bernard Şou 1936-cı ildə Sinqapurda nəşr etdirdiyi «Həqiqi İslam» adlı əsərinin I cildində həzrət Məhəmməd haqqında yazmışdır: «Onu bəşəriyyətin xilaskarı adlandırmaq olar».

Həzrəti Məhəmməd peyğəmbərin Mövlud (anadan olma) günü münasibətilə Bakıda Təzəpir məscidində 1993-cü ilin 5 sentyabrında etdiyi çıxışında Dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev demişdir: «Bəşər tarixində Həzrəti Məhəmmədin (Əleyhissəlamın) dünyaya gəlməsi və fəaliyyəti ilə yer üzündə yeni və mükəmməl bir dinin – İslam dininin əsası qoyuldu. Onun yadigarı «Qurani-Kərim» əsrlər boyudur ki, insanların həyatında böyük rol oynayır».[1]

Əslən azərbaycanlı olan Şeyx Cəmaləddin Əfqani (Cənubi Azərbaycanın Həmədan şəhərində doğulmuşdur) Yaxın və Orta Şərqdə «İttihadi İslam» adı ilə tanınan milli-azadlıq hərəkatının nəzəri əsaslarının banisidir. O, «Milli vəhdət fəlsəfəsi və din birliyinin həqiqi mahiyyəti» adlı əsərlərində «ittihad islamı» Şərq xalqlarının azadlıq uğrunda mübarizə bayrağı adlandırmışdır.

[1] «Azərbaycan», 7 sentyabr, 1993.



İslam dini, islamçılıq türkdilli xalqların millət halında birləşməsində və yad etnoslar içərisində əriyib-qarışmamasında həlledici rol oynamışdır.

Millət haqqında nəzəri müddəaları şərh edərkən Nəriman Nərimanov və M.Ə.Rəsulzadə islamın bu böyük keyfiyyəti haqqında dəyərli fikirlər irəli sürmüşlər.[1] 1920-ci illərdə İtaliyanın Baş naziri işləmiş Françesko Nitti türklər haqda belə yazmışdır: «Şərqin ən namuslu, ən təmiz, ən səmimi xalqı onlardır».

Sovet üsul-idarəçiliyinin Azərbaycanda hökm sürdüyü 70 illik dövr ərzində kommunist ideologiyası burada 13 əsrdən çox itaət edilən islam dininin xalqın hafizəsindən və həyatından çıxarmaq istədisə də, bunu edə bilmədi və bilməzdi də!

Müsəlman əxlaqımızın əsasını təşkil edən islama, onun dini bayramlarının və adət-ənənələrinin icrasına Sovet siyasi sistemi tərəfindən yasaq qoyulmuşdu. Məscid və mədrəsələrin dağılması, əhalinin türk dünyası ilə əlaqələrinin məhdudlaşdırılması və onlarla əlaqələrə maneçiliklərin geniş miqyas alması, rusdilli məktəb şəbəkəsinin geniş inkişafı, qarışıq kəbinlərin genişlənməsinə üstünlük verilməsi islami milli mədəniyyətimizin əsaslarını zəiflətsə də, sarsıda bilmədi.

İslami dəyərlərə ən böyük zərbə dini (islami) kitablarımızın məhv edilməsi oldu. XX əsrin 20-ci illərində Azərbaycanda islama aid ədəbiyyatın məhv edilməsi Orta əsrdə Avropada inkvizisiya dövrünü xatırladır. Bu vəhşilik türkdilli xalqlara qarşı aparılan böyük təxribat idi. Axı,buna heç bir ehtiyac da yox idi. Əlifba dəyişdirilmişdi və yeni nəsil bu dini kitabları onsuz da oxuya bilməyəcəkdi. Kitab isə mədəniyyət abidəsidir. Kitabı

[1] Bu haqda bax: «XX əsr - Dirçəliş» jurnalı, 2001, №56, s.136-139.

yandırmaq mədəniyyəti yandırmaq deməkdir. Göründüyü kimi, bu tədbir düşmənlərimizin əvvəlcədən düşünülmüş məkrli planı idi. Müsəlmanları islam mədəniyyətindən qoparmaq planı idi.

Faktlar göstərir ki, Azərbaycan xalqı hakim Sovet üsul-idarəsinin bu tədbirlərinə qarşı imkan dairəsində müqavimət göstərmişdir. Ağdaş rayonunun ağsaqqallarından biri XX əsrin 20-ci illərində dini kitabları xilas etmək üçün etibar etdiyi ayrı-ayrı adamlara məsləhət görmüşdü ki, taxtadan möhkəm tabutlar düzəldib, bu kitabları onlara dolduraraq, ölü adı ilə qəbrstanlıqda basdırsınlar. Belə də etmişdilər. Mal damlarında və evlərin məxfi yerlərində gizlədilmiş kitabları qabaqcadan düzəldilmiş tabutlara doldurularaq, yaxın gələcəkdə geri qaytarmaq ümüdilə, yasin oxuya-oxuya qəbrstanlıqda basdırmışdılar. Stalinin ölümündən sonra (artıq o zaman Azərbaycan Elmlər Akademiyasının nəzdində Respublika Əlyazmalar Fondu yaradılmışdı) Ağdaşdan həmin fonda xəbər gəlmişdi ki, kənd qəbristanlığında çoxlu kitablar basdırılmışdır, gəlin onları çıxarın. Beləliklə, salamat qalmış kitablar Bakıya Əlyazmalar fonduna gətirilmişdi.[1]

Rəsmi məlumatlara görə XX əsrin əvvəlində, sosialist inqilabı ərəfəsində bütün Qafqazda 2000-ə yaxın məscid və ziyarətgah vardısa, həmin əsrin 80-cı illərində bunlardan yalnız 25 məscid qalmışdı.[2] Müsəlman xalqlarında dini tolerantlıq (dözümlülük) güclü olduğu üçün Azərbaycanda da müsəlman əhalinin islami etiqadlara bağlılığı qırılmadı və davam etdi. Görünür, qismən də buna görədir ki, Azərbaycan xalqının islama qayıdışı nisbətən asan oldu.

Azərbaycanda islami dəyərlər məsələsində müəyyən çətinliklər törədən məsələ əhalinin sünnü və şiə məzhəbinə mənsub olması məsələsidir. Mustafa Kamal paşa Atatürk demişdir:

[1] Bax: «Vətən səsi» qəzeti, 7 mart 1991.
[2] Şeyxülislam Allahşükür Paşazadə. Qafqazda İslam. Bakı, 1991, s.157.



«İlk dörd böyük xəlifədən sonra bizim dinimiz siyasətin, şəxsi çəkişmələrin və istibdadın alətinə çevrildi».

Xoşbəxtlikdən Türkiyədə belə bölgü yoxdur. M.Atatürkün belə məzhəb bölgüsünə mənfi münasibəti məlumdur. Azərbaycanda əhalinin şiə məzhəbinə mənsub olanların çoxluq təşkil etməsi haqqındakı fikirlər[1] isə dürüst deyildir. Təəssüflər olsun ki, Azərbaycanda Novruz bayramı şiələrin keçirdiyi məhərrəmlik günlərinə təsadüf etdikdə, Novruz Bakıda və bəzi yerlərdə çox sönük keçirilir. Xalqın ümumi bayramına belə münasibət olmamalıdır.

Türkiyədə dini fanatizmə qarşı mübarizə daha fəal aparılmışdır. Buna görədir ki, Türkiyədə müasir texniki vasitələrin (radio, televiziya və s.) dini ayinləri təbliğ etmək işində istifadə edilməsinə XX əsrin 40-cı illərindən sonra adi bir hal kimi baxıldı və bu da Qərb ədəbiyyatında islamın modernləşdirilməsinin bir nümunəsi kimi qiymətləndirildi.

[1] «Xalq» qəzeti, 4 sentyabr, 1998.

## YENİ ƏSRDƏ YENİ ZİRVƏLƏRƏ DOĞRU
(*Nəticə əvəzi*)

*«...Son yüz illikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş - elm, mədəniyyət, səhiyyə, təhsil, nəhayət ictimai-siyasi intibah yolunu tutmuşdur»*

**HEYDƏR ƏLİYEV.**

XXI əsrin əvvəli Azərbaycan və Türkiyə xalqlarına yeni uğurlar üçün imkanlar açdı. Belə ki, Azərbaycanda 2003-cü ilin 15 oktyabrında keçirilmiş prezident seçkiləri Heydər Əliyev kursunun davamçısı olan İlham Əliyevi hakimiyyətə gətirdi. 42 yaşlı İlham Əliyevin ölkə prezidenti seçilməsi Azərbaycanda sabit iqtisadi inkişaf üçün şərait yaratdı. Ölkə liderinin diplomatiya üzrə təhsilə malik olması, Avropa Şurasında qazandığı iş təcrübəsi və cavanlığı Azərbaycan rəhbərinin beynəlxalq imicinə müsbət təsir etməli idi və etməkdədir.

Türkiyə üçün strateji əhəmiyyət kəfsb edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Ərzrum qaz kəmərinin inşası iqtisadi cəhətdən böyük amildir. Bu kəmərlər iki ölkə arasında dostluq tellərinin daha da möhkəmlənməsinə real imkanlar yaradır.

Mədəniyyətşünaslıqla məşğul olan bir sıra tədqiqatçılar bəşər tarixində mövcud olmuş imperiyaların dağılması timsalına əsaslanaraq iddia edirlər ki, dövlətlər və xalqlar öz milli mədəniyyətlərinin yüksək mərhələlərində daha çox uğurlar qazanırsa, onların mədəniyyətlərində beynəlmiləl ünsürlər çoxaldıqca, mənsub olduqları dövlətlər zəifləməyə başlamış və imperiyalar dağılmışdır. Bu müddəada həqiqət məqamları olmamış deyil.

Dünya miqyasında görkəmli dövlət xadimi Heydər Əliyev 2000-ci ilin sonu və XXI əsrin başlanması münasibətilə Azərbaycan xalqına müraciətində xüsusi olaraq qeyd etmişdir ki,



**«Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti-xətti ilə seçilən xalqlardandır».** Bununla yanaşı dünya miqyasında başlanmış qloballaşma prosesinin yaratmaqda olduğu vəziyyəti nəzərdə tutaraq o, göstərdi ki, «**Dünya inkişafının indiki mərhələsinin başlıca meylləri mədəni inteqrasiya və qloballaşmadır.** Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür».[1]

XXI əsr planetar düşüncəli insanlar əsri olmaq istiqamətində inkişaf edir. Birləşmiş Millətlər Təşkilatının Yunesko bölməsi 2005-ci ili **«planetar düşüncə»** ili adlandırmışdır. Çalışmaq lazımdır ki, bu düşüncə **milli-planetar düşüncə** kimi formalaşsın.

Bəşəriyyət vahid olduğu üçün qloballaşma dövründə bu düşüncə «planetardan milliliyə» və «millilikdən planetara» istiqamətində inkişaf etməsə, milli ideyaları millətçilik ideyalarına gətirib çıxara bilər, yaxud da milli mədəniyyətlər öz milliliyini itirə bilərlər ki, bu da bəşəriyyət üçün böyük fəlakətlər törədə bilər.

Qədim və zəngin mədəniyyətə malik olan türkdilli xalqların mədəniyyəti dünya miqyasında getdikcə daha geniş yayılır və yüksək qiymətləndirilir. **Birləşmiş Millətlər Cəmiyyəti 2003-cü ildə Azərbaycan muğamlarını dünya xalqları musiqisinin şah əsərləri sırasına daxil etmişdir.**

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev **«Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası»** məqaləsində ölkəmizdə təhsilin inkişafı istiqamətini belə səciyyələndirmişdir: «Azərbaycanda təhsil sistemi keyfiyyətcə yeni texnologiyaların tətbiqinə əsaslanmalı, milli mənafelərə cavab verməli; tədrisin yüksək səviyyəsini təmin etməli, vətən-

---

[1] «Azərbaycan», 30 dekabr, 2000.

pərvər, intellektual və səriştəli gənclər yetişdirməli, «beyin axını»nın qarşısını almağa kömək etməlidir».[1] Göründüyü kimi, bu məqalədə mədəniyyət sahəsində qarşıda duran bütün vəzifələr sərrast şərh edilmişdir. Bəs bu vəzifələr indi necə yerinə yetirilir?

Həmin vəzifələrin həlli üçün ilk növbədə gənc nəslin təhsilində **müstəqil təfəkkürə** arxalanma prinsipinə daima əməl edilməsi ilk tələb kimi qəbul edilməlidir. Totalitar sovet rejimi dövründə ideoloji tələblərə əsaslanan **kütləvi şüur** formasının mövcudluğu mənfi hallar yaradırdısa da, çox əsrlik təcrübəyə malik olan Rusiya təhsil sisteminə (o da müəyyən dərəcədə Almaniya və Fransa təhsil sistemlərindən götürülmüşdü) əsaslanaraq, elmlərin əsaslarını mənimsəmək istiqamətində inkişafa nail olunurdu.

Təəssüflə qeyd etmək lazımdır ki, test sisteminin icadı və tətbiqi, elmi mətnlərin kompüter vasitəsilə çoxaldılıb satılmasına imkan yaratdı. (Belə çıxır ki, bilik üzrə hazır cavab satılır! Halbuki, elmi müddəalar hər bir şəxs tərəfindən fərdi olaraq tapılmalı, öyrənilməli, ümumiləşdirilməlidir). Deməli, hər bir şəxs bilikləri qavradığı səviyyədə müstəqil olaraq şərh etməyi bacarmalıdır.

Azərbaycanda XX əsrdən XXI əsrə miras qalaraq keçmiş ən əsas məsələ **Qarabağ məsələsinin həlli və müasir ölkəmizin ərazi bütövlüyünü təmin etmək** vəzifəsidir. Təəssüflər olsun ki, bu məsələnin həlli yollarında lazım olan mütləq xalq birliyinə hələlik nail ola bilməmişik. Bu isə böyük öndər, ümummilli lider Heydər Əliyevin yuxarıda adını çəkdiyimiz xalqa müraciətində onun vəsiyyət etdiyi əsas məsələlərdən biridir.

II Dünya müharibəsinin ən ağır mərhələsi olan 1941-45-ci illəri əhatə edən Böyük Vətən müharibəsinin əvvəlində, 1942-ci ilin 23 avqustunda Tbilisidə keçirilmiş Zaqafqaziya

[1] «Xalq» qəzeti, 26 may, 2004.



xalqlarının antifaşist mitinqindəki çıxışında böyük şairimiz Səməd Vurğun demişdi: «Nizami Gəncəvinin yatdığı torpağa faşist işğalçılarının ayağı dəyə bilməyəcəkdir... Qoy keçilməz Qafqaz dağlarının dibi, görünməz dərələri alman işğalçıları üçün məzarıstan olsun. Mən hamını düşmənə nifrətə çağırıram».

Bəs nə üçün ərazilərimizin 20%-i zəbt etmiş erməni dığalarına qarşı indi dözümlü olmuşuq? Bəlkə də, ona görə ki, onlar sərhəd rayonlarında yaşayan bəzi azərbaycanlıların dünənki kirvələridirlər!

Məşhur qlobal siyasət professoru **Zbiqnev Bjezinski «Böyük şahmat taxtası» adlı kitabının təxminən 50 səhifəsini Azərbaycana həsr etmişdir.** Azərbaycanın geosiyasi mövqeini o, göstərilən əsərində belə şərh edir: «Yığcam ərazi miqyasına və əhalisinin azlığına baxmayaraq, Azərbaycan böyük enerji ehtiyatları ilə, həm də geosiyasi planda açar əhəmiyyətlidir. O, Xəzər dənizi hövzəsinin və Orta Asiyanın zəngin sərvətlərinə malik olan qabın tıxacıdır. Əgər Azərbaycan tamamilə Rusiyanın nəzarəti altına düşsə, onda Orta Asiya dövlətlərinin müstəqilliyinə praktiki olaraq, mənasız anlayış kimi baxmaq olar. Rusiyanın nəzarət etdiyi ərazilərdən yan keçərək çəkilən neft kəmərləri vasitəsilə Qərb bazarları *ilə birləşən müstəqil* Azərbaycan həm də enerjiyə tələbatı olan öncül dünya iqtisadiyyatının enerji cəhətdən zəngin Orta Asiya respublikalarına yol tapması üçün böyük magistraldır».

Azərbaycanın və Türkiyənin iqtisadi imkanları, coğrafi mövqeləri və yaxınlığı, Bakı- Ceyhan neft kəməri və Bakı- Ərzrum qaz kəmərinin uğurla inşası iki qardaş ölkənin xalqları arasında mədəni əlaqələrin gələcək inkişafı üçün imkanları artıracaqdır.

SSRİ-nin dağılmasından sonrakı ilk illərin iqtisadi sarsıntıları (iqtisadi əlaqələrin birdən qırılmasının mənfi təsiri) Azərbaycan üçün böyük çətinliklər yaratmışdısa da, bu çətinliklərin son 10-15 ildə aradan qaldırılması uğurla davam edir. 2004-cü

ilin aprelində Azərbaycan dövləti prezidenti İlham Əliyevin qardaş Türkiyəyə səfəri böyük uğurla başa çatdı. Azərbaycanı yaxından tanıyan tarix elmləri doktoru, türkiyəli professor Yəhya Daşdələn nüfuzlu «Öndər» qəzetində çap etdirdiyi «Atasının oğlu» adlı məqaləsində yazmışdır: «Böyük siyasi xadimin, milli qəhrəmanın, dövlət və Cümhuriyyət qurucusunun, Azərbaycanın Atatürkünün – Heydər Əliyevin oğlu olmaq bir təsadüf deyil – alın yazısıdır. Belə bir şəxsiyyətin oğlu olmaq böyük hadisədir. Ancaq prezident İlham Əliyev atasının kölgəsində qalmayacağını qısa zamanda atdığı müdrik siyasi addımlarda bütün türk aləminə nümayiş etdirmiş, böyük siyasətçi kimi hörmət və ehtiram qazanmışdır».[1]

2004-cü ilin 18 mayında Brüsseldə Dünya Gömrük Təşkilatının iqamətgahı qarşısında «Dədə Qorqud» abidəsinin təntənəli açılışı mərasimi keçirilmişdir. Abidəni heykəltəraş Namiq Zeynalov hazırlamışdır və onun Brüsseldə Dünya Gömrük təşkilatı iqamətgahı qarşısında yerləşdirilməsində Belçika – Azərbaycan Evinin rəhbəri Bülənd Gürcan təşəbbüs göstərmiş və açılışı təşkil etmişdir. Abidənin yanındakı lövhədə Azərbaycan, ingilis və fransız dillərində yazılmışdır: «Dədə Qorqud Azərbaycan xalqının əcdadı olan qədim oğuzların bilicisi, ozanı, müdrik el ağsaqqalı, hörmətli və nüfuzlu simasıdır. Haqqədalət, barışıq carçısı olub. «Kitabi – Dədə Qorqud» Azərbaycan xalqının, bütün türkdilli xalqların qədim və möhtəşəm abidəsidir. Elm aləminə iki nüsxəsi məlumdur. Bunlardan biri Drezden, ikincisi Vatikan kitabxanasındadır. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 2000-ci ildə Bakı şəhərində bütün türkdilli xalqların mədəni irsinin qədim və ayrılmaz hissəsi, Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubiley mərasimi təntənəli surətdə keçirilmişdir».

[1] «Xalq» qəzeti, 2 may 2004.



Brusseldə «Dədə-Qorqud» abidəsinin açılışında iştirak etmiş görkəmli Qazax ədibi Qazaxstanın «Yunesko»da daimi nümayəndəsi Oljas Süleymenov çıxışında «Kitabi-Dədə Qorqud» dastanındakı

Qarlı qara dağların yıxılmasın!

Allah verən ümidin üzülməsin!

sözlərini yada salaraq, Azərbaycan xalqına və onun prezidenti İlham Əliyevə xoş arzularını bildirmişdir.

Mərasimdə iştirak edən Azərbaycan prezidenti İlham Əliyev demişdir: «1999-cu ildə Yunesko böyük proqramla çıxış edərək, «Dədə Qorqud» dastanının 1300 illiyini qeyd etdi. Bu ədəbi inci bu gün də yaşayır. «Kitabi-Dədə Qorqud»dakı ideyalar və fikirlər bu günkü nəsil üçün də əhəmiyyət kəsb edir və mən əminəm ki, hələ çox əsrlər boyu öz aktuallığını saxlayacaqdır»[1].

[1] «Xalq» qəzeti, 21 may 2004.

## Ədəbiyyat

*I – Azərbaycan dilində*


1. Azərbaycan çoxsaylı qarşılıqlı çoxşaxəli mədəni əlaqələrdə (Dördüncü Bakı Beynəlxalq simpoziumunun nəticələrinin məcmuəsi (4-6 iyun 1998), Bakı, 1999.
2. Azərbaycanı dünyaya saydıran insan (Heydər Əliyev), B, 1998.
3. Abuzər İsmayılov, Nazim Hikmət (həyat və yaradıcılıq salnaməsi) Bakı, 1990.
4. Azərbaycan milli dövlət quruculuğu yolunda (tərtibçilər: R.Mehdiyev, H.Orucov), B, 1996.
5. Azərbaycan Xalq Cumhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət) Bakı, 1998.
6. Azərbaycanın Bəxtiyarı (məqalələr toplusu), Bakı, 1995.
7. Aydın Rüstəmov. Erməni təcavüzünün xronikası, B., 1994.
8. Aqşın Balayev, Nazim Hikmət. Bakı, 1978.
9. Atatürkün özü sənsən (H.Əliyev haqqında), Bakı, 2001.
10. Bəkir Nəbiyev. Didərgin şair (Almas İldırım), B. 1995.
11. Bəxtiyar Vahabzadə. Gəlin açıq danışaq (məqalələr toplusu) Bakı, 1989.
12. Bəxtiyar Vahabzadə. Dərin qatlara işıq, Bakı, 1996.
13. Bəxtiyar Vahabzadə. Şənbə gecəsinə gedən yol, Bakı, 1991.
14. Bəxtiyar Vahabzadə. Şəhidlər (poema), Bakı, 1990.
15. Bəxtiyar Vahabzadə. Axı dünya fırlanır. Bakı, 1987.
16. Budaq Budaqov. Heydər Əliyev fenomeni. Bakı, 2002.
17. Buludxan Xəlilov. Türkologiyanın intibah dövrü. Bakı, 2001.
18. Buludxan Xəlilov. Azərbaycan dili: dünən, bugün. B., 2004.
19. Dilarə Seyidzadə. Azərbaycan XX əsrin əvvəllərində. Müstəqilliyə aparan yollar. B., 1998.
20. Ədilxan Ziyatxanov, Azərbaycan, Bakı, 1993.





21. Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcısında. Bakı, 2001.
22. Əliyev Heydər. Müstəqillik yolu (seçilmiş fikirlər). Bakı, 1997.
23. Əziz Mirəhmədov. Fikrin karvanı. B., 1984.
24. Heydər Əliyev və muasir Azərbaycan (Ümumrespublika əliyevşünaslıq konsfransının materialları). Bakı, 2003.
25. Heydər Əliyev. Müstəqilliyimiz əbədədir (I cild), B., 1997.
26. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. B, 1994.
27. Heydər Əliyevin neft strateqiyası Azərbaycanın müstəqilliyi və rifahi naminə. B, 2001.
28. Əliyev Qoşqar. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi, Bakı, 2003.
29. Əliyev Calal, Budaqov Budaq. Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin «soyqırmı», Bakı, 2003.
30. Əlibəy Hüseynzadə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar (seçilmiş məqalələr) Bakı, 1996.
31. Əlibəy Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, 1997.
32. Əlikram Tağıyev. Ruslar və türklər. B., 2001.
33. Əhməd Əhmədov. Rəşad Nurinin romanları. Bakı, 1965.
34. Elçin. Ədəbiyyatımızın yaradıcılıq problemləri (seçilmiş əsərlər). Bakı, 1999.
35. Elçin nəsrinin poetikası. Bakı, 2003.
36. Elçin haqqında: Ürəklərə yol tapanda. Bakı, 2003.
37. Gültəkin Rəşad Nuri. Bakı, 1989.
38. Hidayət Orucov. Heydər Əliyev və Azərbaycanda milli siyasət. B., 2001.
39. Hüseynov Rüstəm. Namiq Kamal, Bakı, 1990.
40. Həmzə Erbol. Paşanın həyat hekayəsi. B., 1992.
41. Hüsaməddin Məmmədov, Lalə Qurbanova, Musa Piriyev. Azərbaycan-Türkiyə münasibətləri. 1920-1922-ci illər. Sənəd və materiallar. B., 2004.
42. Xəlil Rza. Hara gedir bu dünya? Bakı, 1983.

43. Xəlil Rza. Davam edir 37. Bakı, 1992.
44. Xəlil Rza Ulutürk. Bağışla, ey Vətən. Bakı, 1995.
45. Xəlil Rza Ulutürk; ilk allahım, son allahım – mübarizə. Bakı, 1999.
46. Xəlilov Səlahəddin. Lider, Dövlət, Cəmiyyət (H.Əliyev haqqında), Bakı, 2001.
47. İrfan Ülki. Qızıl Ulduzdan hilala doğru (Heydər Əliyevin fırtınalı həyatı). B., 1994.
48. İsrafil İsmayılov. Türk dünyası XX əsrin 90-cı illərində. Bakı, 2001.
49. X.İbrahimli. Azərbaycanın siyasi mühacirəti. Bakı, 1996.
50. İlk Azərbaycan kitabı. Bakı, 1995.
51. Yusifli Yunis. Sən millətin atasısan (H.Əliyev haqqında). Bakı, 1998.
52. Yaqub Mahmudlu. Ata yurdu. Bakı, 1997.
53. Yusif Vəzir Çəmənzəminli. Xarici siyasətimiz. B., 1993.
54. Kars müqaviləsi. B., 2004.
55. Qılman İlkin. Türk ordusu Bakıda. Bakı, 2003.
56. Mayevski V.F. Qafqazda erməni-tatar nifaqları (Tiflis, 1915), B., 1993.
57. 1905-ci il və Şərq. B., Azərnəşr, 1931.
58. Mövlud Uluqtekin Yılmaz. Türk xalqlarının ortaq ata-babaları. Bakı, (Göytürk), 1997.
59. Mir İbrahim Hüseynov. Dünya türklərinin müxtəsər tarixi. Bakı, 1999.
60. Nazir Əhmədov. Mustafa Kamal Atatürk. B., 2003.
61. Qurbanov A.B. Əbdülhəq Həmid. Bakı, 1987.
62. Quliyev Elman. Türkiyə türk ədəbiyyatı (XIX-XX əsrlər). Bakı, 2003.
63. Mehdiyev R. Dünyanı heyran qoyan insan. Bakı, 2004.
64. Məmməd Əmin Rəsulzadə. Əsərləri I cild (1903-1909), Bakı, 1992.
65. Məmməd Əmin Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. B., 1990.



66. Mehman Süleymanov. Qafqaz İslam ordusu və Azərbaycan. Bakı, 1999.
67. Mir Mövsüm Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1991.
68. Məmməd Səid Ordubadi. Qanlı illər. Bakı, 1991.
69. N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). B., 1992.
70. Nəriman Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı, 2002.
71. Nizami Cəfərov. Heydər Əliyevin dil siyasəti. Bakı, 2003.
72. Nizami Xudiyev. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1997.
73. Nazim Hikmət. Bakıya gedirəm. Bakı, 1984.
74. Ramiz Mehdiyev. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. B., 2000.
75. Ramiz Mehdiyev. Azərbaycanın inkişaf dialektikası. B., 2001.
76. Rasim Mirzə. Türkçülüyün babası (Əlibəy Hüseynzadə haqqında). Bakı, 2000.
77. Rəbiyyət Aslanova. İslam və mədəniyyət. Bakı, 2002.
78. Serebrennikov B.A., Hacıyev N.Z. Türk dillərinin müqayisəli tarixi qrammatikası. Bakı, 2002.
79. Siyasi olimpə doğru. Bakı, 2003.
80. Sovet türkçülüyü jurnalı (ayrı-ayrı sayları).
81. Səfalı Nəzərli. Heydər Əliyev Atatürk haqqında. B., 2004.
82. Şamil Qurbanov. Nərimanov dünyası. Bakı, 2001.
83. Şamil Qurbanov. Atatürk və Nəriman Nərimanov. Bakı, 2003.
84. Şamil Qurbanov. Nəriman Nərimanov (ömrünün son illəri). Bakı, 2003.
85. Şükürov S., Səfərov İ. Millət atası (H.Əliyev haqqında), Bakı, 2000.
86. Tofiq Paşa oğlu. Atatürk və Türkiyədə mədəni inqilab. 1920-30-cu illər. Bakı, 1993.

87. Tofiq Fikrət. Seçilmiş əsərləri. Bakı, 1969.
88. «Türk dünyası» jurnalı.
89. «Türkologiya» jurnalı (ayrı-ayrı sayları).
90. Türkün səsi (kitab).
91. Türk dünyasının Bəxtiyarı. Bakı, 2002.
92. Türk dünyasının xeyirxahları. B., 1997.
93. Türkiyə Atatürkün, Azərbaycan Heydər Əliyevin əsəridir. (Nizami Cəfərov), Bakı, 2002, 2004.
94. Vəli Məmmədov, Nəriman Nərimanov (həyat və yaradıcılığı). Bakı, 1957.
95. «Ulduz» jurnalı, 1988, №3.
96. Ziya Göyalp. Qırmızı terror. B., 1993.
97. Ziya Göyalp. Türklüyün əsasları. Bakı, 1991.

II. *Türk dilində*

1. Atatürkün Söylev və demeçleri, cild II, Ankara, 1959.
2. Atatürkün Araştırma merkezi derqisi. Ankara, 1986.
3. Ali Kafkaziyalı, Azərbaycanın alim kadınları. Ankara, 1991, Erzurum, 1999.
4. Cemal Kitay. Atatürk-Enver Paşa hadiseleri. İstanbul, 1956.
5. Güner Samli. Azerbeycan. Ankara, 1981.
6. İbrahim Yüksel. Azerbeycanda fikir heyatı ve basın (mətbuat). Ankara, 1981.
7. Kafas Oğlu. Türk milli kulturu. Ankara, 1984.
8. Kaplan Mehmet. Türk milletinin kultural degerleri. Ankara, 1987.
9. Kenan Yıldırım. Şairler ve yazarlar sözlüyü. Ankara, 2002.
10. Kohn Nans. Panslavizm ve rus milletçiliyi. Ankara, 1982.
11. Mehmetzadə Mirzəbala. Milli Azerbeycan herekatı. Ankara, 1991.
12. Musayev İsmayıl. Azerbeycan-Türkiye ilişkileri. Bakı, 1998.



13. Mustafa Haqqı Türkəgül. Azerbeycan türk şairi Hüseyin Cavid. Bakı, 2002.
14. Tarix boyunca türklərdə insani degerler və insan haqları. İstanbul türk kulturuna hizmet vakfı. Yüzilliyimiz və Türkiyə Cümhuriyyəti. İkinci kitab, 1993; üçüncü kitab, 1993.
15. Türk milletinin kulturel degerleri. Ankara, 1973.
16. Türk gencleri ahlak yasası. Ankara, 1996.
17. Timurtaş, Farik Kadri. Bakı divanından seçmeler. Ankara, 1987.
18. Tarihtə Türk Devletleri. Ankara Universiteti Basımları, Ankara, 1987.
19. Türk dünyası tarix dergisi. 1992, №64.

III. *Rus dilində*

1. Анадолу Абилова, Ибрагим Абилов. Азербайджанский друг Ататюрка. Б., 2003.
2. С.И.Аралов. Воспоминание Советского дипломата. М., 1980.
3. Ю.Багиров. Из истории Советско-Турецких отношений (1920-1922). Б., 1965.
4. Босфорт Е.Э. Мусульманские династии (перевод с английского). М., 1971.
5. Джастин Маккарти, Каролин Маккарти. Тюрки и армяне. Вашингтон, 1989, Баку, 1996.
6. Кемаль Ататюрк. Избранные речи и выступления. М., 1966.
7. Миллер А.Ф. Турция: Актуальные проблемы новейшей истории. М., 1983.
8. Миллер А.Ф. Очерки новейшей истории Турции. М., 1948.

9. Миллер А.Ф. Краткая история Турции. М., 1948.
10. Мустафа Кемаль. Путь новой Турции, т.т.I-IV. М., 1929-1932.
11. Нариман Нариманов. Избранные произведения. Том I-II. Б., 1988, 1989.
12. Стенли Л.П. Мусульманские династии. Лондон, 1894, Санкт-Петербург, 1899.
13. А.Топчубашев. Дипломатические беседы в Станбуле. Баку, 1994.
14. Челеби Е. Путешествие. Т.2. М., 1983.



## MÜNDƏRİCAT

GİRİŞ (Türklüyə qısa tarixi nəzər)........................ 3-14

I Hissə
AZƏRBAYCAN VƏ TÜRKİYƏ 1901-1922-ci İLLƏRDƏ.................................................. 15-51

I fəsil. Türkiyə və Şimali Azərbaycan 1901-1917-ci illərdə........................................ 15-21
II fəsil. M.Atatürk türklük və mədəniyyət haqqında. 22-29
Türklük şərəfi................................ 30
III fəsil. N.Nərimanov millət və milli mədəniyyət haqqında........................................ 31-37
Nərimanın ruhu dardadır...................... 38
IV fəsil. Azərbaycan-Türkiyə mədəni əlaqələri 1918-1920-ci illərdə.......................... 39-44
V fəsil. 1920-1922-ci illərdə Azərbaycan-Türkiyə mədəni əlaqələrinin genişlənməsi........... 45-49
§1. Azərbaycan Respublikası səfiri İbrahim Əbilovun Türkiyə ilə mədəni əlaqələr sahəsində fəaliyyəti........................... 50-51

II hissə
AZƏRBAYCANDA VƏ TÜRKİYƏDƏ MƏDƏNİ İNQİLABIN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ, NAİLİYYƏTLƏRİ......................................... 52-97

VI fəsil. Azərbaycan və Türkiyə xalqları mədəniyyətinin XX əsrdə görkəmli nümayəndələri............................................. 52-65
1) Əli bəy Hüseynzadə........................ 52-53
2) Ziya Göyalp................................. 54-56
3) Hüseyn Cavid .............................. 57-58
4) Nazim Hikmət............................. 59-65

| | | |
|---|---|---|
| VII fəsil | Azərbaycan-Türkiyə mədəni əlaqələri 1923-1991-ci illərdə............................ | 66-83 |
| | §1. Mədəniyyətin incəsənət sahəsində Azərbaycan-Türkiyə xalqlarının əlaqələri......... | 84-88 |
| VIII fəsil | Türkiyədəki azəri mühacirlərinin mədəni əlaqələr sahəsindəki fəaliyyətləri............ | 89-97 |

**III Hissə.**

**AZƏRBAYCAN-TÜRKİYƏ MƏDƏNİ ƏLAQƏLƏRİ 1991-2000-ci İLLƏRDƏ..........................** 98-143

| | | |
|---|---|---|
| IX fəsil. | Azərbaycan-Türkiyə dostluğunun möhkəmləndirilməsində Heydər Əliyevin müstəsna xidmətləri.................................... | 98-110 |
| | İki Atatürk....................................... | 111 |
| X fəsil | Türk dünyasının iftixar ölkəsi................. | 112-118 |
| XI fəsil | Mədəni əlaqələrin genişlənməsində ortaq türk dilinin əhəmiyyəti........................ | 119-129 |
| XII fəsil | İslam mədəniyyətinin türk qolunda əxlaqi dəyərlərin türk birliyinə müsbət təsiri............................................... | 130-137 |
| XIII fəsil | Yeni əsrdə yeni zirvələrə doğru (Nəticə əvəzi)............................................ | 138-143 |
| Ədəbiyyat | ............................................... | 144-150 |






## İsrafil Zakir oğlu İSMAYILOV

*1920-ci ilin 17 aprelində indiki Oğuz rayonunun (göstərilən dövrdə Şəki qəzası) Bayan kəndində anadan olmuşdur.*

*1939-cu ilin dekabrında hərbi xidmətə Moskva hərbi dairəsinə göndərilmiş və faşist Almaniyasının Sovetlər İttifaqına qarşı başladığı müharibənin sonuna qədər Qərb cəbhəsi tərkibində 51-ci Zenit artilleriyası diviziyasında xidmət etmişdir.*

*1945-ci ilin iyulunda hərbi xidmətdən buraxılmışdır, kapitan rütbəsində zabitdir.*

*Müharibədən sonrakı dövrdə partiya işində rəhbər vəzifələrə irəli çəkilmiş və Moskvada İctimai Elmlər Akademiyasında təhsilə (1951-1954) göndərilmiş və orada tarix elmləri namizədliyinə dissertasiya müdafiə etmişdir.*

*1954-1961-ci illərdə Bakı Ali Partiya məktəbinin direktoru (rektoru) olmuşdur.*

*İsmayılov İ.Z.1956-1963-cü illərdə Azərbaycan partiya təşkilatının Təftiş Komissiyasının sədri (4 il) və üzvü olmuşdur. 1959-1963-cü illərdə Azərbaycan Respublikası Ali Sovetində Qəribli (Tovuz rayonu) seçki dairəsindən deputat olmuşdur.*

*1968-ci ilin dekabrında Bakıda tarix elmləri doktoru elmi rütbəsinə dissertasiya müdafiə etmişdir. O, Bakı Dövlət Neft Akademiyasında 5 il partiya komitəsi katibi və 21 il kafedra müdiri işləmişdir.*

*İsrafil İsmayılov 28 elmi monoqrafiyanın, 15 kitab və tədris vəsaitinin, 200 çap olunmuş elmi məqalələrin müəllifidir. Müəllifin elmi axtarışlarının əsas mövzuları: Dövlətçilik siyasəti məsələləri, Milli məsələ və mədəni quruculuq, Şərq xalqları və Türk dünyası, Vətənpərvərlik tərbiyəsi məsələləridir. Onun 15-dən çox məqaləsi Mustafa Kamal paşa Atatürkün, Heydər Əliyevin, Nəriman Nərimanovun, Məhəmməd Əmin Rəsulzadənin dövlətçilik və siyasi fəaliyyətlərinə həsr olunmuşdur. Bir kitab və 14 məqaləsi ingilis, fransız, ispan, alman, türk, ərəb və dari dillərində nəşr olunmuşdur.*

*Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Bioqrafiya İnstitutu müəllifin ictimai və elmi fəaliyyətini nəzərə alaraq onun adını «2000-ci ilin adamı» («Hallmark-2000») şərəf kitabına daxil etmiş və ona 2002-ci ildə «American Medal of HONOR» qızıl medalı təqdim etmişdir.*

*İ.Z.İsmayılov üç orden («Vətən Müharibəsi» ordeni, Azərbaycanın «Şöhrət» ordeni, «Şərəf Nişanı» ordeni) və 17 medal (o cümlədən, «Hərbi xidmətlərinə görə», «Moskvanın müdafiəsinə görə» medalları) ilə təltif edilmişdir. Ona «Azərbaycan Respublikasının Əməkdar təbliğatçısı» fəxri adı verilmişdir. SSRİ və Azərbaycanın dövlət orqanları tərəfindən 10-dan çox fəxri fərmanla təltif edilmişdir.*

*Hazırda Azərbaycan Dövlət Neft Akademiyasının professorudur və Bakı şəhərinin Nəsimi rayonu Veteranlar Şurasına (ictimai əsaslarla) sədrlik edir.*



Yığmağa verilmişdir 26.07.2004. Çapa imzalanmışdır: 27.10.2004, kağız formatı 60x84, Çapı ofset üsulu ilə, Sifariş 152 Tiraj 500.

Azərbaycan Dövlət Neft Akademiyasının Mətbəəsi